Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Orqanı

# QANUNÇULUQ

№ 9-12, 2020-ci il

HÜQUQ JURNALI




## Vətən müharibəsində BÖYUK QƏLƏBƏYƏ həsr olunmuş xüsusi buraxılış



İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.

Heydər ƏLİYEV,
Azərbaycan xalqının ümummilli lideri



Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan!

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# QANUNÇULUQ
## hüquq jurnalı

**№ 09-12, 2020-ci il / xüsusi buraxılış**

**TƏSİSÇİ:**
**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

**BAŞ REDAKTOR:**
**Fikrət Məmmədov**

**REDAKSİYA HEYƏTİ:**
**Fuad Ələsgərov**
**Toğrul Musayev**
**Azər Cəfərov**
**Adil Əliyev**
**Cavid Hüseynov**
**Elçin Xələfov**

*"Qanunçuluq" jurnalı 1966-cı ildən nəşr olunur. Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu sahəsində görülən işləri, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatını, ədliyyə və məhkəmə fəaliyyətini işıqlandırır, öz səhifələrində görkəmli alimlərin, təcrübəli hüquqşünasların məqalələrinə və gənc mütəxəssislərin çıxışlarına yer verir, Azərbaycan ədliyyəsinin tarixi, məhkəmə təcrübəsi və digər mövzularda materiallar, eləcə də yeni qəbul olunan qanunların, fərmanların və digər normativ-hüquqi aktların mətnlərini müntəzəm şəkildə dərc edir.*

© "Ədliyyə Nəşriyyat Evi"MMC

# Bu sayımızda


Zəfər yürüşü ....4
Azərbaycan xalqına müraciətlər ....5
Şuşa şəhərinin azad olunması münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin xalqa müraciəti ....13
Dünyanın nüfuzlu medialarına müsahibə ....19
Respublikamızın Birinci-vitse prezidenti Mehriban xanım Əliyevanın sosial çağırışları ....21
Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı ....24
Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı ....25
Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad olmuş torpaqlara səfəri ....31
İşğaldan azad olunmuş şəhər və kəndlərimiz ....35
“Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 dekabr tarixli 2314 nömrəli Sərəncamı ....38
“Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 2 dekabr tarixli 2311 nömrəli Sərəncamı ....39
“Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 dekabr tarixli 2315 nömrəli Sərəncamı ....40
“Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 3 dekabr tarixli 2316 nömrəli Sərəncamı ....41
“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli 2303 nömrəli Sərəncamı ....41
“Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 26 noyabr tarixli 204-VIQD nömrəli Qanunu ....43


## Ədliyyə Nazirliyi Vətən müharibəsi dövründə


Ədliyyə naziri xarici həmkarlarına müraciətlər ünvanlayıb ....45
Ermənistanın ölkəmizə qarşı işğalçılığı və müharibə cinayətləri ilə bağlı nüfuzlu beynəlxalq təşkilatlara müraciətlər ....49
Ədliyyə naziri Avropa Şurasının konfransında Ermənistanın ölkəmizə qarşı müharibə cinayətlərini ifşa edib ....55
Türkiyənin ədliyyə nazirindən xalqımıza dəstək ....56
Türkiyənin baş ombudsmanı ilə görüş və “Qarabağ Azərbaycandır!” elektron məlumat platformasının təqdimatı ....57
Xarici ölkələrin Azərbaycandakı səfirləri Ermənistanın müharibə cinayətləri barədə məlumatlandırılıb ....59
Ədliyyə naziri vyetnamlı həmkarına məktub ünvanlayıb ....62
İşğaldan azad olunmuş torpaqların sakinləri Ali Baş Komandana minnətdardırlar ....63
Ədliyyə Nazirliyində Zəfərlərimiz qeyd olunub ....64
Ədliyyə işçiləri və hakimlərdən Silahlı Qüvvələrin Yardım Fonduna və YAŞAT Fonduna dəstək ....65
Ədliyyə işçiləri peşə bayramlarını böyük qələbə sevinci ilə qeyd ediblər ....67
Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə ədliyyə işçilərinin müraciəti ....70
Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya ədliyyə işçilərinin müraciəti ....71
Fikrət Məmmədov. Azərbaycan ədliyyəsi xalqımızın şanlı Qələbəsi ilə qürur dolu günlər yaşayır ....72
Ədliyyə Nazirliyində Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımızın şanlı Qələbəsinə həsr olunan kollegiya iclası keçirilib ....80



QARABAĞ bizimdir, Azərbaycandır!



# ZƏFƏR YÜRÜŞÜ

***2020-ci il sentyabrın 27-dən Ermənistanın Azərbaycana qarşı təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, xalqımız torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.***

*Noyabrın 9-dək 44 gün sürən hərbi əməliyyatlar nəticəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müdrik və yenilməz sərkərdəliyi ilə müzəffər Azərbaycan Ordusu 30 ildir erməni işğalı altında olan Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.*

*Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.*

*Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə 8 noyabr tarixində Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, düşməni Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.*

*Xalqımızın əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.*



# Azərbaycan xalqına müraciətlər



***Vətən müharibəsi dövründə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqına 11 dəfə müraciət etdi. Dövlət başçısı hər kəsin səbirsizliklə gözlədiyi və həyəcanla dinlədiyi müraciətlərində Ordumuzun zəfərləri, işğalçı erməni qüvvələrinin darmadağın edilərək torpaqlarımızın bir-birinin ardınca azad olunması, döyüş meydanında acı məğlubiyyətə düçar olan Ermənistanın ölkəmizə qarşı işğalçılığı və müharibə cinayətləri ilə bağlı dəqiq, hərtərəfli məlumatlar verdi.***

Dövlət başçısınn xalqa müraciətlərindən:

**27 sentyabr 2020-ci il tarixli**

- Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artileriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin!

- Ermənistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma siyasəti aparır. Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerləşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Bu cinayətə görə Ermənistan cavab verəcəkdir.

- Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir.

- Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir.

- Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.

- Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

### 04 oktyabr 2020-ci il tarixli

- Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun doqquz kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibətilə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Cəbrayıl rayonunun böyük hissəsinin və Cəbrayıl şəhərinin azad edilməsi xüsusi əhəmiyyət daşıyır.

- Bir həftədir ki, Azərbaycan öz ərazi bütövlüyünün bərpası uğrunda mübarizə aparır. Döyüş meydanında əsgər və zabitlərimiz qəhrəmanlıq göstərir, düşmənə sarsıdıcı zərbələr endirir, düşməni yerinə oturdur, düşməni torpaqlarımızdan qovur, canı-qanı bahasına. Bu şərəfli missiya tarixdə öz yerini tapacaqdır.

- Uzun illər ərzində - 30 ilə yaxındır ki, erməni cəlladları torpağımızı işğal edib, bizim bütün tarixi, dini, mədəni abidələrimizi darmadağın edib dağıdıblar.

- Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir. İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır!

- Bu gün şanlı Azərbaycan Ordusu aşağıdakı yaşayış məntəqələrini azad edib: Cəbrayıl şəhəri, Karxulu kəndi, Şükürbəyli kəndi, Yuxarı Maralyan kəndi, Çərəkən kəndi, Daşkəsən kəndi, Horovlu kəndi, Decal kəndi, Mahmudlu kəndi, Cəfərabad kəndi.

- Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

### 09 oktyabr 2020-ci il tarixli

- Bu gün müzəffər Azərbaycan Ordusu bir neçə yaşayış məntəqəsini işğaldan azad edib. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

- İşğaldan azad edilmiş yaşayış məntəqələrinin adlarını sizin diqqətinizə çatdırmaq istərdim: Hadrut qəsəbəsi, Çaylı kəndi, Yuxarı Güzlək kəndi, Gorazıllı kəndi, Qışlaq kəndi, Qaracallı kəndi, Əfəndilər kəndi, Süleymanlı kəndi, Sur kəndi.

- Bu kəndlərin və Hadrut qəsəbəsinin işğaldan azad edilməsi tarixi qələbəmizdir. Azərbaycan işğal altında olan torpaqları işğaldan azad edir. Azərbaycan Ordusu həm maddi-texniki təchizat baxımından, eyni zamanda, döyüş hazırlığı baxımından bu gün döyüş meydanında tam üstünlüyə sahib olubdur.

- Döyüşlərin obyektiv müşahidə mənzərəsi var və istənilən hərbi mütəxəssis görə bilər ki, bu gün Azərbaycan Ordusu döyüş meydanında qələbə əldə edibdir. Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Azərbaycan əsgər və zabiti yüksək mənəvi psixoloji keyfiyyətlər göstərir, mənəvi ruh göstərir. Çünki biz öz torpağımızda vuruşuruq, öz torpaqlarımızı azad edirik. Ermənistanın əsgərləri işğalçılardır. Döyüş gedən torpaq onların torpağı deyil.

- Bu gün işğaldan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Bu gün Azərbaycan əsgərləri bizim işğal edilmiş torpaqlarda ermənilərin qazdıqları səngərlərdə keşik çəkirlər - onlar bizim yox, biz onların səngərlərində, biz onların postlarında, biz onların tanklarında. Budur Azərbaycan Ordusunun üstünlüyü, bizim üstünlüyümüz.

- Bu gün bütün cəbhə boyu döyüşlər gedir. Azərbaycan bütün istiqamətlər üzrə mövqelərini möhkəmləndirir və biz işğalçını, təcavüzkarı sülhə məcbur edirik. Bu əməliyyatın əsas məqsədi də budur. Biz onlara göstərdik ki, döyüş meydanında da, beynəlxalq müstəvidə də, siyasi meydanlarda da biz qalib gəlirik.

- Bizim müharibəmiz mülki vətəndaşlarla deyil. Ermənistandan fərqli olaraq, biz mülki vətəndaşları atəşə tutmuruq.

- Biz nəyi nə vaxt edəcəyimizi yaxşı bilirik. Ona görə də bu gün

bizim uğurlu əməliyyatımız böyük nəticələrə gətirib çıxardı. Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm, bütün sahələrdə, o cümlədən hərbi quruculuq sahəsində.

- Status-kvo deyilən məsələ yoxdur, qurtardı getdi. Status-kvo belə olmalıdır, elə olmalıdır. Mən dəyişdirdim status-kvonu, dəyişdirdim! Bax, orada, döyüş meydanında. Yoxdur status-kvo. Təmas xətti, yoxdur təmas xətti. Yarmışıq onu. Onlar 30 il idi ki, qururdular bu təmas xəttini.

- Biz torpaqlarımızı azad edəcəyik, ərazi bütövlüyümüzü bərpa edəcəyik! Düşməni ondan sonra da qovacağıq. Mən bilirəm ki, Azərbaycan xalqı mənim bu sözlərimi bəyənibdir. Qovacağıq onları axıra qədər. Bayrağımız işğal edilmiş bütün torpaqlarda qaldırılacaq, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləcək. Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

### 17 oktyabr 2020-ci il tarixli

- Bu gün Ermənistanın faşist rəhbərliyi növbəti hərbi cinayət törədib. Gəncə və Mingəçevir şəhərləri raket atəşinə məruz qalıb. Bu namərd atəş nəticəsində soydaşlarımız həlak olub, yaralanıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı soydaşlarımıza Allah şəfa versin! Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərir.

- Ermənistan rəhbərliyi hərbi cinayət törədir. Dinc əhaliyə atəş açmaq, özü də əməliyyat operativ raket kompleksləri vasitəsilə atəş açmaq hərbi cinayətdir. Onlar bu cinayətə görə məsuliyyət daşımalıdırlar və daşıyacaqlar.

- Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!

- Mən bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu münasibətlə əziz füzulililəri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq.

- Füzuli şəhərinin qalıqları erməni faşizminin təzahürüdür və erməni faşizminin şahididir.

- Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq.

- Ali Baş Komandan kimi bütün işlərə rəhbərlik edirəm və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da öz fəaliyyətimdə ölkəmizin, xalqımızın milli maraqlarını qorumaq üçün əlimdən gəlini əsirgəməyəcəyəm. Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik.

### 20 oktyabr 2020-ci il tarixli

- Müzəffər Azərbaycan Ordusu döyüş meydanında yeni qələbələr qazanır. Bu qələbələr hər bir Azərbaycan vətəndaşını sevindirir. Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan

düşmən döyüş meydanında Azərbaycan Ordusunun gücünü görür. Biz öz torpağımızda vuruşuruq, öz torpağımızı qoruyuruq və işğalçıları bundan sonra da öz torpaqlarımızdan qovacağıq.

- Hər bir kəndin, hər bir şəhərin, hər bir strateji yüksəkliyin işğalçılardan azad edilməsi böyük peşəkarlıq, cəsarət, rəşadət, qəhrəmanlıq tələb edir. Bizim hərbçilərimiz şəhid olurlar. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Şəhidlərimiz həmişə bizim qəlbimizdə yaşayacaq. Bizim hərbçilərimiz döyüş meydanında yaralanırlar. Allah bütün yaralı hərbçilərimizə şəfa versin!

- Bütün dünya görür ki, Azərbaycan hansı mənfur, vəhşi düşməndən öz doğma torpaqlarını azad edir. Otuz il ərzində bizim torpaqlarımızı istismar edirdi, bizim təbii resurslarımızı istismar edirdi, oğurluq, talançılıq onların xislətidir. Dağıdılmış kəndlərin, şəhərlərin vəziyyətinə baxmaq kifayətdir, hər kəs görsün ki, bizim qarşımızda hansı vəhşilər dayanıb. İşğal olunmuş və artıq azad edilmiş torpaqlarda bir dənə də salamat bina qalmayıb. Bütün binalar sökülüb, talan edilib, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz dağıdılıb, talan edilib, təhqir edilib. Onlar hesab edirdilər ki, bu torpaqları əbədi işğal altında saxlayacaqlar. Onlar bizim şəhərlərimizin adlarını dəyişdiriblər, rayonlarımızın sərhədlərini dəyişdiriblər, kəndlərimizin adlarını dəyişdiriblər, bizim torpaqlarımızı erməniləşdirmək istəyiblər, amma buna nail ola bilmədilər, Azərbaycan xalqının iradəsini qıra bilmədilər.

- Prezident kimi mənim fəaliyyətim üçün əsas məsələ, əsas vəzifəm Azərbaycan torpaqlarının qaytarılmasıdır, ərazi bütövlüyünün bərpa edilməsidir və bu gün biz bunu döyüş meydanında edirik.

- İşğal edilmiş torpaqlarda Ermənistan tərəfindən qurulmuş istehkamlar onu göstərir ki, onlar bu torpaqları bizə vermək fikrində deyildilər.

- Bizim yumruğumuz bizim birliyimizdir, xalqımızın birliyidir, məqsədyönlü fəaliyyətdir, beynəlxalq müstəvidə bizə sərf edən və ədaləti əks etdirən qərarların, qətnamələrin qəbul edilməsidir.

- Mən hər dəfə xalqıma müraciət edərkən xoş xəbərlər çatdırıram. Eyni zamanda, demək olar ki, hər gün öz "Twitter" hesabımda, "Twitter" vasitəsilə işğaldan azad edilmiş yeni kəndlərin, şəhərlərin adlarını çəkirəm.

-İndi isə əziz xalqımın səbirsizliklə gözlədiyi bizim yaşayış məntəqələrinin azad edilməsi haqqında məlumatı böyük qürur hissi ilə çatdırıram.

Füzuli rayonu - azad edilmiş kəndlərin adları: Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı.

Cəbrayıl rayonu - azad edilmiş kəndlər: Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli.

Xocavənd rayonu - azad edilmiş yaşayış məntəqələrinin siyahısını çatdırıram: Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Günəşli kəndinin keçmiş adı Noraşen idi), Vəng. Bu kəndə yeni Azərbaycan adı verirəm. Bundan sonra Vəng kəndi Çinarlı kəndi adlandırılsın. Adı mübarək olsun!

Zəngilan rayonu. Şanlı Azərbaycan Ordusu Zəngilan rayonu ərazisinə də daxil olub, girib və yaşayış məntəqələrinin azad olunması təmin edilib. Zəngilan rayonu ərazisində yerləşən yaşayış məntəqələrinin adlarını çəkirəm: Havalı kəndi, Zərnəli kəndi, Məmmədbəyli kəndi, Həkəri kəndi, Şərifan kəndi, Muğanlı kəndi və Zəngilan şəhəri! Zəngilan bizimdir! Qarabağ bizimdir!

### 26 oktyabr 2020-ci il tarixli

- Bir aya yaxındır ki, ikinci Qarabağ müharibəsi davam edir. Bu müharibə xalqımız üçün Vətən müharibəsidir. Biz Vətən torpaqlarını işğalçılardan azad edirik. Bu müddət ərzində Şanlı Azərbaycan Ordusu bir çox yaşayış məntəqələrini düşməndən azad edibdir.

- Erməni xalqı Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələrindən sonra bizim dədə-baba torpaqlarımıza gətirildi. Məqsədyönlü şəkildə gətirildi və ölkəmizin ən dilbər guşələrindən biri olan Qarabağda yerləşdirildi, onlara şərait yaradıldı. Məqsəd aydın idi - imperiyanın yeni torpaqlarında




dini tərkibi dəyişdirmək, müsəlmanları öz dədə-baba torpaqlarından qovmaq, didərgin salmaq və yeni reallıq yaratmaq idi. Bu idi məqsəd və əfsuslar olsun ki, bu məqsədə çatdılar.

- Heydər Əliyev bütün vəzifələrdən gedəndən sonra 2 həftə keçməmiş baş qaldıran erməni separatçılar məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın, Ermənistana verilsin və bizim xalqımızın bəlaları o gündən başladı.

- Münaqişənin həlli üçün hüquqi baza kifayət qədər genişdir. Biz bu bazanı genişləndirmişdik. Bu gün təkcə BMT Təhlükəsizlik Şurasının qətnamələri yox, digər sənədlər mövcuddur. BMT Baş Assambleyası qətnamə qəbul edib, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, digər təşkilatlar. Avropa İttifaqı ilə paraflanmış sənəddə ölkəmizin suverenliyi, sərhədlərimizin toxunulmazlığı və ərazi bütövlüyü haqqında xüsusi müddəa var. Yəni, bu, hüquqi bazadır və bu baza imkan verir ki, bu gün biz döyüş meydanında düşmənə dərs verək, qovaq onları, rədd edək bizim torpaqlarımızdan.

- Vasitəçi neytral olmalıdır. Neytral deyilsə, getsin öz namizədliyini geri götürsün. Vasitəçi neytral deyilsə, o, vasitəçi ola bilməz. İndi vasitəçi ölkələr gərək yeni bir funksiya fikirləşsinlər, nə ilə məşğul olacaqlar? İndi artıq beş rayonun azad edilməsindən danışa bilməzlər, hanı 5 rayon, bizdədir onların artıq 4-ü. O məsələ artıq getdi, qurtardı getdi. Özümüz götürmüşük - Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı. Bu rayonların böyük hissəsi bizdədir. Keçmiş Hadrut - indiki Xocavənd rayonunun bir hissəsi bizdədir. Ona görə fikirləşsinlər.

- Hərbi-siyasi həll yalnız Azərbaycanın ərazi bütövlüyünün bərpası məsələsini reallaşdırmalıdır.

- İndi Azərbaycan xalqının səbirsizliklə gözlədiyi siyahıları böyük məmnuniyyət və qürur hissi ilə xalqımın diqqətinə çatdıracağam.

Beləliklə, dünən azad edilmiş yaşayış məntəqələrinin siyahısını doğma xalqıma çatdırıram. Zəngilan rayonunda azad edilmiş kəndlər: Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd. Cəbrayıl rayonunun azad edilmiş kəndləri: Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər. Qubadlı rayonunun dünən azad edilmiş yaşayış məntəqələri: Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan və Qubadlı şəhəri!

- Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik. Heç bir təzyiq bizə təsir edə bilməz. Heç bir hədə-qorxu bizi yolumuzdan döndərə bilməz. Çünki haqq yolundayıq, yumruq kimi birik. Bu birlik əbədidir və əbədi olacaq!

**8 noyabr 2020-ci il tarixli**

- Vətən müharibəsinin taleyində həlledici rol oynayan Şuşanın düşməndən qurtulması ilə bağlı dövlət başçısının xalqa müraciətinin tam mətni jurnalımızın bu sayında oxucuların diqqətinə təqdim olunur.

**10 noyabr 2020-ci il tarixli**

- Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri imzalamışlar.

- Faktiki olaraq bu bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir.

- Mən böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq.

- Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torplaqlarımıza qayıdırıq. Biz bu Qələbəyə görə onlara borcluyuq. Onlar tor-




pağımızı işğalçılardan qarış-qarış azad edib, onlar bizim bayrağımızı işğal edilmiş və işğaldan azad edilmiş torpaqlarda qaldırıb, bayrağımızı orada dalğalandırıb. Bu, bizim hamımızın qələbəsidir, bütün Azərbaycan xalqının.

- Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri, bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək, düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər. Bu, bizim böyük sərvətimizdir, böyük dəyərimizdir.

- Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!

- "Qarabağ Azərbaycandır və nida" ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!

### 20 noyabr 2020-ci il tarixli

- Mən sizi Ağdam rayonunun işğaldan azad olunması münasibətilə ürəkdən təbrik edirəm. Bütün ağdamlıları ürəkdən təbrik edirəm. Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız.

- Ağdam rayonunun işğaldan azad olunması noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir.

- Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir. Deyə bilərəm ki, işğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayondur. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. Hazırda Ağdam rayon sakinlərinin sayı 204 mindir. Rayonun 73 faizi işğal edilmişdi və qalan ərazilərdə - bizim nəzarətimizdə olan ərazilərdə biz son illər ərzində böyük quruculuq, abadlıq işləri aparmışıq.

- Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün olmuşdur. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş istehkamlar, oraya böyük vəsait xərclənib. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etdilər. Bizim gücümüzü düzgün hesablaya bilmədilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bilmirdilər ki, bizi o Qələbəyə aparan həm gücümüzdür, texniki təchizatımızdır, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi.

- Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi artıq arxada qalır və bunu beynəlxalq ekspertlər də qeyd edirlər. Azərbaycan döyüş meydanında parlaq Qələbə qazanaraq siyasi meydanda da istədiyinə nail ola bilmişdir.

- Əgər erməni faşizmi bir də baş qaldırsa, əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, 10 qatını alacaqlar, 10 qatını və heç kim bizi durdura bilməz.

- Azərbaycan xalqı müzəffər xalqdır. Azərbaycan Ordusu müzəffər ordudur. Biz döyüş meydanında qələbə qazanmışıq, siyasi müstəvidə qələbə qazanmışıq, torpaqlarımızı işğalçılardan azad etmişik.

- Bundan sonra biz, ilk növbədə, işğaldan azad edilmiş torpaqlara vətəndaşlarımızın qaytarılmasını təmin etməliyik. Bütün gücümüzü səfərbər etməliyik. Bütün maddi imkanlarımızı səfərbər etməliyik ki, tezliklə vətəndaşlarımızı doğma torpaqlarına qaytaraq.

### 25 noyabr 2020-ci il tarixli

- Bu gün Kəlbəcər rayonu işğaldan azad olundu. Bu




münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Əziz kəlbəcərlilər, gözünüz aydın olsun! Doğma rayonunuz işğaldan azad olundu.

- Kəlbəcər bizim qədim torpağımızdır. Kəlbəcər ərazi baxımından ən böyük rayonlarımızdan biridir. Kəlbəcərin tarixi abidələri bizim böyük sərvətimizdir.

- Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq.

- Bizim Qələbəmiz təkcə Ermənistan dövləti üzərində əldə edilmiş qələbə deyil, biz erməni faşizmini məhv etdik.

- Mən Prezident kimi bu illər ərzində əlimdən gələni edirdim ki, Dağlıq Qarabağ məsələsi daim gündəlikdə olsun, özü də daim gündəliyin mərkəzində olsun. Həm ölkə daxilində vətənpərvərlik, milli qürur, həmrəylik hissləri daha da yüksək səviyyəyə qalxsın. Həm beynəlxalq müstəvidə daim bu məsələ gündəlikdə olsun. Hər kəs bilsin, həqiqət nədən ibarətdir, hər kəs bilsin, təcavüzkar kimdir, zərərçəkmiş tərəf kimdir və biz buna nail olduq. İndi dünyada hər kəs bunu bilir.

- Biz döyüş meydanında qələbə qazandıq, informasiya məkanında qələbə qazandıq, siyasi müstəvidə qələbə qazandıq. Müharibənin nəticələri mən deyən kimi oldu.

- Müharibə bir daha göstərdi kim kimdir. Ermənistan məğlub edilmiş ölkədir. Azərbaycan zəfər çalmış ölkədir.

**01 dekabr 2020-ci il tarixli**

- Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq.

- Laçın rayonunun zəngin təbiəti, tarixi abidələri, yeraltı sərvətləri bizim milli sərvətimizdir. Laçın rayonunun Azərbaycanın gələcək iqtisadi inkişaf işlərində mühüm rolu olacaqdır. İlk növbədə, biz Laçına laçınlıları qaytaracağıq.

- İşğaldan azad edilmiş torpaqlarda mövcud olan mənzərə böyük çətinliklər yaradır. Çünki hər tərəf dağıdılıb, infrastruktur dağıdılıb, binalar sökülüb, inzibati binalar sökülüb. Hazırda o yerlərdə yaşamaq üçün şərait yoxdur. Ancaq biz o bölgələri, bütün rayonları bərpa edəcəyik, vətəndaşlarımızın normal həyatı üçün bütün addımları atacağıq.

- Biz yeni reallıq yaratdıq, qələbə çaldıq, düşmənin başını əzərək, düşməni torpaqlarımızdan qovaraq yeni reallıq yaratdıq. BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik.

- Biz ərazi bütövlüyümüzü bərpa etdik. Biz işğala son qoyduq. Müharibə zamanı təqribən 5 min, 5 min kvadratkilometrə yaxın ərazini döyüş meydanında azad etdik, müharibə yolu ilə azad etdik. Eyni zamanda, təxminən bir o qədər - 5 min kvadratkilometrə yaxın ərazini artıq sülh yolu ilə qaytardıq.

- Biz bir neçə rayonu döyüş meydanında düşməndən azad etdik, üç rayonu düşməni məcbur edərək qaytardıq və beləliklə, Dağlıq Qarabağ münaqişəsini həll etdik. İndi artıq Dağlıq Qarabağ münaqişəsi yoxdur. Əgər kimsə hesab edir ki, bu münaqişə hələ də davam edir, səhv edir.

- Artıq "Dağlıq Qarabağ münaqişəsi" termini arxada qalıb. Məsləhət görmürəm ki, bu termin artıq dillərdə olsun. Ancaq tarix haqqında danışanda, əlbəttə ki, bu termindən istifadə etmək olar.

-Biz müharibə dövründə Ermənistan ordusunu demək olar ki, məhv etdik. Mən müharibə dövründə müntəzəm olaraq düşmənin hərbi texnikasının məhv edilməsi ilə bağlı Azərbaycan xalqına məlumat verirdim. Artıq müharibə başa çatıb və bölgədə yeni dövr başlayır. Amma istərdim ki, Azərbaycan xalqına məlumat verim. Biz müharibə dövründə Ermənistan ordusunu necə məhv etmişik və nəyə görə Ermənistan baş naziri o alçaldıcı kapitulyasiya aktına imzasını qoydu.




- Məhv edilmiş Ermənistan ordusunun texnikaları:

Tank əleyhinə vasitələr - 53 dənə, "Smerç" - dörd dənə, "Qrad" - 97 dənə, "Uraqan" - 2, "YARS" - 1, TOS odsaçan - 1, "S-300" zenit-raket kompleksləri - 7 atıcı qurğusu məhv edildi. İndi əgər təkcə bunun qiymətini hesablasalar, görərlər ki, biz Ermənistan ordusuna nə qədər böyük zərbə vurduq. Beləliklə, 7 atıcı qurğu, bir "S-300" radiolokatoru və iki "S-300" aşkaretmə stansiyası məhv edildi. "Oborona" radiolokasiya stansiyası - 1 dənə, "TOR" zenit-raket kompleksi - 5 dənə, "Osa" zenit-raket kompleksi - 40 dənə, "KUB" zenit-raket kompleksi - 4 dənə, "KRUQ" zenit-raket kompleksi - 1 dənə, zastava - 14 dənə, "S-125" zenit-raket kompleksi - 2 dənə, pilotsuz uçuş aparatları - 22 dənə, "Elbrus" əməliyyat-taktiki raket kompleksi - 2, ballistik raket - 1, "Toçka-U" raket kompleksi - 1, radioelektron mübarizə vasitələri - 5 dənə, "R-142" komanda qərargah maşını - 2 dənə, "Nebo-M" radiolokasiya stansiyası - 1 dənə, müxtəlif radiolokasiya stansiyaları - 7 dənə, "Reppelent" radio-texniki maneə vasitəsi - 4 dənə.

Düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikaları:

Özüyeriyən artilleriya qurğuları "Akasiya" və "Qvozdika" - 28-i məhv edilib, 5-i qənimət götürülüb. Müxtəlif çaplı toplar - 315-i məhv edilib, 37-si hərbi qənimət kimi götürülüb. Minaatanlar - 63-ü məhv edilib, 62-si qənimət götürülüb. Xüsusi avtomobillər - 10-u məhv edilib, 93-ü qənimət götürülüb. Qumbaraatan - 178-i qənimət götürülüb. Traktor - 10, "Şilka" zenit qurğusu - 5 ədəd qənimət götürülüb. Atıcı silahlar - 1380 atıcı silah qənimət götürülüb. 7 komanda məntəqəsi, 11 sursat anbarı dağıdılıb. Tank - 287-si məhv edilib, 79-u qənimət götürülüb, toplam 366 tank. Siyahı davam edir. Piyadaların döyüş maşını - 69-u məhv edilib, 47-si qənimət götürülüb. "Su-25" təyyarəsi - 5-i məhv edilib. Yük avtomobilləri - 252-si məhv edilib, 270-i hərbi qənimət kimi götürülüb.

Bunlar deməyə əsas verir ki, Ermənistan ordusu yoxdur, məhv etmişik.

- Mən müharibənin ilk günündən bu günə qədər - sentyabrın 27-dən dekabrın 1-nə qədər Azərbaycan xalqına dəfələrlə müraciətlər etmişəm, qələbə sevincini bölüşmüşəm, azad edilmiş şəhərlərimizin müjdəsini vermişəm. Özümü çox xoşbəxt adam hesab edirəm. Çünki bu Qələbə bizim ruhumuzu, əyilməz ruhumuzu göstərdi. Göstərdi ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildi və bütün xalqımız, lap balaca uşaqlar, yaşlı insanlar, o torpaqları tərk edənlər, qayıtmaq arzusunda olanlar, o torpaqlarda heç vaxt olmayan, amma o bölgələrdən olan gənc nəslin nümayəndələri bir arzu ilə, biz hamımız bir arzu ilə yaşamışıq və bu arzunu həyata keçirmişik. Bu gün bizim bütün arzularımız çin olub. Bu, hər birimiz üçün doğrudan da böyük xoşbəxtlikdir. Artıq müharibə arxada qaldı.

- Mülki vətəndaşlar - 94 mülki vətəndaş həlak olub, 400-dən çox mülki vətəndaş vəhşi düşmən tərəfindən yaralanıb. Evi dağılmış insanlar o dağıntılardan çıxarkən deyirdilər ki, ancaq irəli. Bilirsiniz, bunu hər kəs bilməlidir və biz bütün dünyaya göstəririk ki, biz böyük xalqıq, yenilməz xalqıq. Biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır.

- Mən artıq bu mövzu ilə bağlı müraciətlərimi yekunlaşdırıram. Əminəm, bundan sonra, əlbəttə ki, bir çox hallarda doğma xalqıma öz sözlərimi deyəcəyəm. Amma bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!




# Şuşa şəhərinin azad olunması münasibətilə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin xalqa müraciəti







**Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin xatirəsinə ehtiramlarını bildirib, abidəsi önünə əklil qoyublar.**

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsi də yad olunub, tanınmış dövlət xadimi Əziz Əliyevin və həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə gül dəstələri düzülüb.

Sonra dövlətimizin başçısı və xanımı Şəhidlər xiyabanına gələrək Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları önünə gül dəstələri düzüblər.

Ölkə Prezidenti "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Dövlətimizin başçısı Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edib.



QARABAĞ bizimdir, Azərbaycandır!





# Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti

-Əziz həmvətənlər, əziz bacılar və qardaşlar!

Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik. 30 ilə yaxın mənasız danışıqlar bizi heç bir nəticəyə yaxınlaşdırmadı. Əzəli tarixi torpaqlarımız 30 ilə yaxın işğal altında qaldı. Danışıqlar prosesində Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq

istəyirdi, sadəcə olaraq, status-kvonu möhkəmləndirmək, əbədi etmək istəyirdi. Bu illər ərzində dəfələrlə Azərbaycana müxtəlif güc mərkəzlərindən göndərilən siqnallar bizi vəziyyətlə barışmağa sövq edib. Ancaq biz qətiyyət, cəsarət, siyasi iradə göstərərək Azərbaycan xalqının maraqlarına cavab verməyən heç bir razılaşmaya getmədik. Mən dəfələrlə bütün beynəlxalq kürsülərdən bəyan etmişdim ki, torpaqlarımızın, ərazi bütövlüyümüzün bərpa edilməsi bizim əsas vəzifəmizdir və biz bu vəzifəni icra edirik. Danışıqlar heç bir nəticə vermədi. Sadəcə olaraq, bizim başımızı aldadırdılar, sadəcə olaraq, məsələni dondurmaq istəyi müşahidə olunurdu. Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Həm birinci Qarabağ, həm ikinci Qarabağ – Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm. Yaralı soydaşlarımıza Allahdan şəfa diləyirəm. Biz xalqımızın, əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik. İşğalçıları torpaqlarımızdan qovuruq və qovacağıq!

Şuşa 28 il yarım işğal altında idi. Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlərboyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi. Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir. Bir neçə il bundan əvvəl - 2016-cı ilin Aprel döyüşlərindən sonra işğaldan azad edilmiş Cocuq Mərcanlı qəsəbəsində mənim göstərişimlə tikilmiş məscidin açılışında bəyan etmişdim ki, bu məscid Şuşa məscidinin bənzəridir, ölçülərinə, memarlıq üslubuna görə eynidir. Demişdim ki, gün gələcək biz Şuşa şəhərində erməni vandalları tərəfindən dağıdılmış məscidlərimizi bərpa edəcəyik və bu gün gəlir. Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır. Bu gün bütün Azərbaycan xalqı qürur hissi ilə bu xoş xəbəri qarşılayır.

Biz güc toplayırıq, məqsədyönlü şəkildə, yorulmadan, bütün təzyiqlərə baxmayaraq, güc toplayırıq və toplamışıq. İqtisadi güc. Əgər iqtisadi gücümüz olmasaydı, bu Qələbəni əldə etmək mümkün olmazdı. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi və təmin edildi. Bu gün Azərbaycan iqtisadi cəhətdən heç kimdən asılı deyil, heç bir ölkədən asılı deyil, heç bir beynəlxalq maliyyə qurumundan asılı deyil. Müstəqilik və bu, bizə imkan verdi ki, ölkəmizi inkişaf etdirək, eyni zamanda, Ordumuzu gücləndirək. Biz Ordumuz üçün lazım olan bütün hərbi texnikanı, silahları xarici bazarlardan alırıq. Əgər bizim iqtisadi imkanlarımız olmasaydı, biz bunları necə əldə edə bilərdik? Biz ölkə daxilində uğurlu siyasət aparaq hesab edirəm ki, ölkəmizdə dünya üçün çox nadir inkişaf modelini yaratdıq. Daxildəki həmrəylik, milli birlik, vahid amal uğrunda birləşməyimiz bizə əlavə güc verdi, imkan vermədi ki, bəzi mənfur xarici dairələr öz çirkin planlarını Azərbaycanda həyata keçirsinlər. Halbuki belə planlar var idi, belə cəhdlər var idi. Biz siyasi iradə göstərərək, birlik göstərərək bu cəhdləri dəf etdik, xalq olaraq, millət olaraq öz qürurumuzu müdafiə etdik, öz müstəqil seçimimizi müdafiə







etdik və sübut etdik ki, heç kim bizim işimizə qarışmasın və qarışa bilməz. Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. Bu illər ərzində bizə qarşı aparılan qara piar kampaniyası, qarayaxma, şərböhtan kampaniyasının da əsas məqsədi o idi ki, bizi əsas vəzifəmizdən uzaqlaşdırsınlar, biz uzaqlaşaq, daxili problemlər içində boğulaq və işğal edilmiş torpaqlar işğalçıların əlində əbədi qalsın. Güclü siyasi iradə, xalq-iqtidar birliyi bu planları da alt-üst etdi.

Qələbəmizin üçüncü əsas amili beynəlxalq səviyyədəki uğurlarımızdır. Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır. Sübut etdik ki, əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb. Sübut etdik ki, erməni əhalisi bu torpaqlara 200 il bundan əvvəl köçürülübdür, necə köçürülübdür, hansı məqsədlərlə köçürülübdür, hamısını biz dünya ictimaiyyətinə təqdim etdik, sübutlarla, faktlarla. Biz sübut etdik ki, Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır və bu məsələ beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır. Dünyanın bütün aparıcı təşkilatları, bütün beynəlxalq təşkilatlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli qətnamələr, qərarlar qəbul edibdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, BMT Baş Assambleyasının qətnamələri, Qoşulmama Hərəkatının qətnamələri, İslam Əməkdaşlıq Təşkilatının qətnamələri, Avropa Parlamentinin qətnamələri və digər beynəlxalq təşkilatların qərar və qətnamələri birmənalı şəkildə Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdı. Bu, bizə əlavə güc verdi. Əgər biz bunu etməsəydik, bu gün münaqişənin ətrafında cərəyan edən proseslər bizə böyük problemlər yarada bilərdi. Biz bu illər ərzində bir çox ölkələrlə səmimi, işgüzar, qarşılıqlı hörmət əsasında münasibətlər qura bildik, bir çox ölkələr Azərbaycanı strateji tərəfdaş hesab edir və artıq bu ifadə beynəlxalq sənədlərdə öz əksini tapır. Biz bütün qonşu ölkələrlə səmimi dostluq əsasında münasibətlər qura bildik, qarşılıqlı hörmət, qarşılıqlı inam əsasında. Əgər biz bunu etməsəydik, bu gün münaqişə ətrafında tam başqa proseslər gedə bilərdi.

Şuşa işğal altına düşəndə bizim əsas problemlərimiz həm o idi ki, ordumuz yox idi, rəhbərlik öz vəzifə borcunu yerinə yetirə bilmirdi. Beynəlxalq müstəvidə Azərbaycan demək olar ki, bütün ölkələrlə münasibətləri gərginləşdirmişdi. Biz demək olar ki, təcrid edilmiş vəziyyətdə idik. Ancaq bu gün biz Ermənistanı təcrid edilmiş vəziyyətə saldıq. Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır. Bütün bunlar Azərbaycanın beynəlxalq nüfuzunu böyük dərəcədə gücləndirdi. Əgər bu nailiyyətlər olmasaydı, problem dondurulmuş vəziyyətdə qala bilərdi.

Nəhayət və ilk növbədə, ordu quruculuğu. Bu 17 il ərzində mənim işimin əsas hissəsi ordu quruculuğuna həsr edilmişdir ki, biz ordumuzu necə gücləndirək, ordumuzu ən müasir silahlarla təchiz edək. O da asan məsələ deyildi. O silahları almaq üçün təkcə maddi vəsait kifayət etmir. Eyni zamanda, diplomatik, siyasi səylər göstərilməlidir və biz

buna da nail olduq. Bu gün Azərbaycan öz hərbi təchizatını bir çox ölkələrdən təmin edir. Eyni zamanda, mənim təşəbbüsümlə Azərbaycanda müdafiə sənayesi yaradıldı. Biz ordumuzun tələbatını böyük dərəcədə daxili istehsal hesabına təmin edirik. Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir, o cümlədən ən müasir məhsullar. Budur bizim fəaliyyətimiz. Ordu quruculuğu, hərbçilərin maddi-məişət problemlərinin həlli, təqaüdə çıxmış hərbçilərin məişət problemlərinin dövlət tərəfindən həll olunması, onlara mənzillərin verilməsi, hərbçilərimizin iş şəraitinin yaxşılaşdırılması. Biz demək olar ki, bütün hərbi şəhərciklərimizi, hərbi bazalarımızı yenidən qurduq və onlar ən yüksək standartlara cavab verir. Əlbəttə, ilk növbədə, döyüş qabiliyyəti. Döyüş qabiliyyəti artdı. Azadlıq meydanında dəfələrlə keçirilmiş hərbi paradlar bütün dünyaya bizim gücümüzü göstərdi.

Döyüş qabiliyyətinin artırılması ordu quruculuğu sahəsində əsas amildir. Biz müasir silahlardan istifadə edirik, texnikadan istifadə edirik, düşmənin texnikasını məhv edirik. Torpaqlarımızı ancaq Azərbaycan əsgəri azad edir, Azərbaycan zabiti azad edir, sinəsini qabağa verərək, heç nədən qorxmayaraq, əlində bayraq, əlində silah düşməni qovan da əsgərdir, düşməni məhv edən də əsgərdir. Eşq olsun bizim əsgərlərimizə!

Bax, belə ordu yaratmışıq biz! Deyirdik işğalçılara, deyirdik, düz yola gəlin, işğala son qoyun, hələ ki, gec deyil. Ona görə bizim bütün dövrlərdəki siyasətimiz birmənalı olub. Demişik ki, əgər məsələ sülh yolu ilə öz həllini tapmasa, hərbi yolla məsələni həll edəcəyik. Mən bunu dəfələrlə demişəm. Buna görə də tənqid olunmuşam bəzi ölkələr tərəfindən. Mən demişəm ki, bəs bizim torpaqlarımız məgər hərbi yolla zəbt edilməyibmi? Ermənistan bizim torpaqlarımızı sülh yolu iləmi zəbt edib? Hər bir ölkənin özünümüdafiə hüququ var. Bu hüququ bizə BMT Nizamnaməsi verir. Mən demişdim, əgər görsəm ki, danışıqlar artıq tamamilə səmərəsizdir, bizim başqa yolumuz qalmayacaq. Bunu hamı bilsin - düşmən, onun havadarları və bu məsələ ilə məşğul olan vasitəçilər. Həmişə sözümün üstündə durmuşam. Azərbaycan xalqına nə demişəmsə, onu da etmişəm. Bu məsələdə də sözümün üstündə durdum və artıq biz Qələbəni qeyd edirik.

Sentyabrın 27-dən bu günə qədər 200-dən çox şəhər, kənd, qəsəbə işğaldan azad edildi. O cümlədən Füzuli şəhəri, tamamilə darmadağın edilmiş, bir dənə də salamat bina qoymayıb mənfur düşmən. Cəbrayıl tamamilə dağıdılmış. Qubadlı, Zəngilan tamamilə dağıdılmış. Kəndlər, şəhərlər. Hadrut qəsəbəsi, Suqovuşan qəsəbəsi və bu gün Şuşa şəhəri.

Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Ermənistan artıq öz acı məğlubiyyətini etiraf edib, özünü alçalda-alçalda, xalqını təhqir edə-edə. Ermənistan rəhbərliyi indi dünya ölkələrindən yardım istəyir, hərbi yardım istəyir, silah, texnika istəyir. Bəs, hanı sənin yenilməz ordun? Məhv etmişik onu. Onların bütün sözləri, onların bütün bəyanatları mif idi, yalan idi. Yenilməz ordu Azərbaycan Ordusudur! Bunu döyüş meydanında göstərir, düşməni torpaqlardan təkbaşına qovur. Otuz il ərzində milyardlarla dollar xərclənib oraya,

istehkamlar qurulub, mühəndislik qurğuları inşa edilib. Amma hamısını vurub dağıtmışıq - mənəvi ruh, güc hesabına, birlik hesabına!

Bir daha demək istəyirəm ki, bizim zəfər yürüşümüz davam edir. İşğal edilmiş bütün torpaqlardan düşmən qüvvələri çıxarılmalıdır. Bu, bizim tələbimizdir. Beynəlxalq norma və prinsiplər, beynəlxalq təşkilatların qərar, qətnamələri bunu tələb edir.

Əziz bacılar və qardaşlar, bu gün bu müjdəni mən burada - Şəhidlər xiyabanında doğma xalqıma verirəm. Bu, təsadüfi deyil. Bu, təbiidir. Bu gün şəhidlərimizin ruhu qarşısında bir daha baş əyirəm. Bu gün bəyan edirəm ki, şəhidlərimizin qanı yerdə qalmır. Erməni vəhşiliyinin qurbanlarının, Xocalı qurbanlarının qanı yerdə qalmır. İntiqamımızı döyüş meydanında aldıq. Biz mülki vətəndaşlara qarşı heç vaxt müharibə aparmamışıq, bu dəfə də aparmamışıq. Baxmayaraq ki, mənfur düşmən 93 mülki şəxsi namərd atəşlə öldürüb, 400-dən çox mülki şəxs yaralanıb. Amma mən dedim yox, biz azərbaycanlıyıq! Biz intiqamımızı döyüş meydanında alacağıq və alırıq! Onların ordusunu məhv etmişik, texnikasını məhv etmişik, məhv edirik və edəcəyik. Düşməni qovuruq və qovacağıq!

Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!

Mən bu günlərdə dünya azərbaycanlılarından və Azərbaycanda yaşayan insanlardan minlərlə məktub alıram. Hər gün minlərlə məktub. Sadəcə olaraq, heyfsilənirəm ki, bütün bu məktubları oxuya bilmirəm. Sadəcə olaraq, vaxt çatmır. Nə qədər gözəl sözlər, nə qədər böyük dəstək göstərilir. Bu gün biz bir daha bütün dünyaya sübut edirik ki, biz böyük xalqıq, biz məğrur xalqıq! Biz yenilməz xalqıq! Biz döyüş meydanında düşmənə yerini göstəririk!

Bu günlərdə dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam.

Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir.

Əziz Şuşa, sən azadsan!

Əziz Şuşa, biz qayıtmışıq!

Əziz Şuşa, biz səni dirçəldəcəyik!

Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!



QARABAĞ bizimdir, Azərbaycandır!



# DÜNYANIN NÜFUZLU MEDİALARINA MÜSAHİBƏ

*Vətən müharibəsi dövründə ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev dünyanın nüfuzlu medialarına, o cümlədən ABŞ, Rusiya, Türkiyə, Almaniya, Fransa, İngiltərə, İtaliya və digər dövlətlərin informasiya agentliklərinə, televiziya kanallarına və qəzetlərə 26 müsahibə verdi. Dövlət başçısı müsahibələrində diplomatik məharəti ilə milli maraqlarımızı uğurla müdafiə etdi, yalan və feyk xəbərlər üzərində qurulan erməni təbliğatını tam ifşa edərək düşmənin ölkəmizə qarşı hərbi təxribatlarını, müharibə və insanlıq əleyhinə cinayətlərini bütün dünyaya çatdırdı.*



"Rossiya-1" telekanalına müsahibə, 29.09.2020



"Əl-Cəzirə" televiziya kanalına müsahibə, 02.10.2020



"Əl-Ərəbiyə" televiziya kanalına müsahibə, 04.10.2020



"TRT Haber" televiziya kanalına müsahibə, 05.10.2020



"Pervıy Kanal" televiziyasına müsahibə, 06.10.2020



"CNN Türk" televiziyasına müsahibə, 07.10.2020



"Euronews" televiziyasına müsahibə, 07.10.2020



"CNN International" televiziya kanalına müsahibə, 09.10.2020



"Sky News" televiziya kanalına müsahibə, 09.10.2020



Rusiyanın RBK televiziya kanalına müsahibə, 10.10.2020



Türkiyənin "Haber Global" televiziya kanalına müsahibə, 12.10.2020



QARABAĞ bizimdir, Azərbaycandır!





Türkiyənin “Haber Türk” televiziya kanalına müsahibə, 13.10.2020



“France 24” televiziya kanalına müsahibə, 14.10.2020



Türkiyənin NTV televiziyasına müsahibə, 15.10.2020



Rusiyanın “Ria Novosti” agentliyinə müsahibə, 15.10.2020



Türkiyənin “A Haber” televiziya kanalına müsahibə, 16.10.2020



Rusiyanın TASS agentliyinə müsahibə, 19.10.2020



Yaponiyanın “Nikkei” qəzetinə müsahibə, 21.10.2020



Fransanın “Figaro” qəzetinə müsahibə, 24.10.2020



ABŞ-ın “Fox News” televiziya kanalına müsahibə, 25.10.2020



İtaliyanın “Rai-1” televiziya kanalına müsahibə, 26.10.2020



Rusiyanın İnterfaks agentliyinə müsahibə, 28.10.2020



Almaniyanın ARD televiziya kanalına müsahibə, 28.10.2020



İtaliyanın “La Repubblica” qəzetinə müsahibə, 02.11.2020



İspaniyanın EFE informasiya agentliyinə müsahibə, 04.11.2020



“BBC News”a müsahibə, 06.11.2020



**QARABAĞ** *bizimdir, Azərbaycandır!*



# Respublikamızın Birinci-vitse prezidenti Mehriban xanım Əliyevanın SOSİAL ÇAĞIRIŞLARI

***Vətən müharibəsi dövründə Ali Baş Komandanın ən sadiq silahdaşı respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkəmizin ədalətli mübarizəsi barədə həqiqətlərin beynəlxalq birliyə çatdırılması ilə bağlı vətənpərvər çağırışları hər bir azərbaycanlını informasiya platformalarında mübarizəyə səfərbər etdi.***



### "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"

Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!

Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək, uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir.

Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdaram. Onların həmrəyliyi və mənəvi dəstəyi bu gün hər bir azərbaycanlıya qürur hissi yaşadır.

Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!

Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!

Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!

Allah şəhidlərimizə rəhmət etsin! Qəbirləri nurla dolsun!

**29 sentyabr 2020-ci il**

### Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq

Əziz həmvətənlər! Rəşadətli Ordumuz əzəli Azərbaycan torpaqlarını erməni işğalından azad etmək üçün uğurlu əks-hücum əməliyyatı apardığı bir vaxtda düşmən öz məkrli niyyətlərini göstərməkdən əl çəkmir. Qızğın döyüşlərin davam etdiyi bütün həftə ərzində Ermənistan vic-

dansızcasına feyk xəbərlər tirajlayır. Bu şiddətli hücumda beynəlxalq birliyi fəal surətdə yanlış məlumatlandıran erməni diasporu xüsusi rol oynayır. Bu gün biz hamımız həqiqətən tarixi hadisələrin şahidləriyik! Lakin biz baş verənləri sadəcə kənardan müşahidə edə bilmərik.

Bizim hər birimiz Böyük Qələbə anını yaxınlaşdırmaq üçün əlimizdən gələni etməyə borcluyuq. Deməli, biz hamımız erməni yalanını ifşa etmək üçün maksimum səy göstərməyə borclu olan əsgərlərik. Mən sizin hər birinizi erməni təbliğatının feyklərini ifşa etməyə və erməni təcavüzü haqqında həqiqətləri bütün mümkün platformalarda beynəlxalq birliyə çatdırmağa çağırıram! Azərbaycanı özünün Vətəni hesab edən hər kəs səsini ucaltmalı və ermənilərin yalanını təkzib etməlidir! Uca Tanrı bizim Ordumuzu, xalqımızı və Vətənimizi qorusun!".

**5 oktyabr 2020-ci il**

## Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu!

Əziz həmvətənlər!

Bu gün böyük gündür – Qələbə Günüdür! Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu! Tarixi ədalət bərpa olundu! Həqiqətən əlamətdar olan bu hadisə münasibətilə Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm!

Ermənistan özünün tam və qeyd-şərtsiz kapitulyasiyasını etiraf etdi! Biz öz nəcib xilaskar missiyamızı şərəflə yerinə yetirdik! Biz öz Vətənimizi qoruduq, əzəli Azərbaycan torpaqlarını işğaldan azad etdik, Azərbaycanın səbirlə gözlədiyi Qələbəni qazandıq! Biz uzun illər boyu həqiqətin və tarixi ədalətin təntənəsini gözləyirdik. Münaqişənin dinc yolla nizamlanmasına dair danışıqlar prosesində 30 ilə yaxın iştirak etməyimiz bizim sülh tərəfdarı olmağımızın əyani göstəricisidir. Ermənistan 27 il ərzində BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal altında olan bütün ərazilərindən işğalçı qüvvələrin dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə etinasızlıq göstərib. Ermənistan tərəfindən törədilən hərbi təxribatlar bitib-tükənmirdi. Azərbaycan bütün dünyaya göstərdi və sübut etdi ki, o, özünün işğal altında olan torpaqlarını müstəqil şəkildə, öz gücü ilə, öz qüdrəti ilə azad etməyə qadirdir və bunu etdi!

2020-ci il sentyabrın 27-dən davam edən hərbi əməliyyatlar dövründə Azərbaycan Ordusu təqribən 300 yaşayış məntəqəsini, o cümlədən 5 şəhəri və 4 qəsəbəni, çoxsaylı strateji yüksəklikləri azad etdi. Azərbaycanın mədəniyyət incisi – Şuşa şəhəri azad ediləndən cəmi bir neçə saat sonra bizim döyüşçülərimiz 72 yaşayış məntəqəsini və 9 strateji yüksəkliyi öz nəzarəti altına almağa nail oldu. Bu, şübhəsiz, Ermənistanın hərbi və siyasi rəhbərini çıxılmaz vəziyyətə saldı. Bizim ordumuz öz müqəddəs dəyərləri - Vətənimiz, ortaq evimiz uğrunda döyüşürdü və bu müqəddəs mübarizədə dözüb dayandı və qalib gəldi!

Bu anlarda bütün dünya azərbaycanlıları sevinc və qürur hissləri keçirir. Bizim Prezidentimizə görə, igid əsgərlərimizə və zabitlərimizə görə, Azərbaycan xalqının vətənpərvərliyinə, sıx birliyinə və həmrəyliyinə görə qürur keçirir!

Hər birimiz bizim Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə hədsiz təşəkkür edirik! Onun rəhbərliyi ilə müasir, güclü Azərbaycan Ordusu yaradılıb! Məhz onun sarsılmaz iradəsi, cəsarəti, əzmkarlığı və qətiyyəti sayəsində Azərbaycan Ordusu düşməni sarsıtdı, müharibənin nəticəsini müəyyən etdi və qələbə nöqtəsini qoydu. Prezidentimizin güc mənbəyi olan Azərbaycan xalqının hörməti, sevgisi, etimadı, inamı və dəstəyi ona Avrasiya məkanında ən uzunmüddətli münaqişələrdən biri olan

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini başa çatdırmaqda kömək etdi. Onun başçılığı ilə biz xalqımızın özünəinamını qaytaran Qələbəni qazandıq! Bu Qələbənin möhtəşəmliyi Azərbaycan dövlətinin tarixində əbədi qalacaq!

Əziz qardaşlar və bacılar!

Torpaqlarımızın xaincəsinə işğalı illərində olduğu kimi, budəfəki döyüşlər dövründə də faciələr və itkilər oldu. Hərbi əməliyyatlar zonasından uzaqda vəhşicəsinə hücumlar nəticəsində şəhərlərimizin və kəndlərimizin dinc sakinləri həlak oldu. Uşaqlar, qadınlar və ahıl insanlar həlak oldu. Amma bu, Azərbaycanın əzmini sındırmadı! Mən həlak olanların doğmalarına və yaxınlarına bir daha dərin hüznlə başsağlığı verirəm! Onların qanı yerdə qalmadı! Azərbaycan Ordusu, Azərbaycan dövləti bütün həmvətənlərimizin axıdılmış qanına görə qisas aldı!

Vətənimizi müdafiə edən, onu dirçəldən nəslin işıqlı xatirəsi, bu nəslə hörmət və ona görə səmimi qürur hissi hər bir azərbaycanlının qəlbində həmişəlik qalacaq! Bizim əsgər və zabitlərimiz canlarını belə əsirgəmədən döyüşüblər. Onlar nəciblik və həqiqi vətənpərvərlik nümunəsi göstəriblər. Bu gün onların hamısını Vətən naminə, onun qüdrəti naminə göstərdikləri igidliklər birləşdirir! Biz onların rəşadəti, iradəsi və ruh yüksəkliyi qarşısında, öz mətanəti ilə işğalçını sarsıdan, Azərbaycanın ərazi bütövlüyünü bərpa edən hər kəsin qarşısında baş əyirik! Adları Azərbaycan dövlətinin tarixinə əbədi olaraq yazılan bu cür igid övladlar böyüdüb tərbiyə etmiş valideynlərin qarşısında baş əyirik! Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə Allah rəhmət eləsin!

Bu müharibə bizə əsrlərboyu bildiyimiz bir həqiqəti - dost dar gündə tanınar həqiqətini bir daha sübut etdi. Dünyadakı bütün dostlarımıza minnətdaram! Sağ olsunlar ki, bizim dərdimizə şərik oldular, Azərbaycan xalqını dəstəkləyən prinsipial və ədalətli mövqelərini açıq bildirdilər. Qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana xüsusi təşəkkürümü bildirirəm. Onların həmrəyliyi və dəstəyi hər bir azərbaycanlıda qürur hissi oyadır!

Kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkür edirəm. Onların yüksək peşəkarlığı, obyektivliyi, qərəzsizliyi, operativliyi və məsuliyyəti sayəsində bugünkü Azərbaycan reallıqlarını dünyaya çatdırmaq mümkün oldu. Öz vətənlərinin hüdudlarından kənarda Azərbaycanın mövqeyini müdafiə edən və Ermənistanın işğalçı mahiyyətini beynəlxalq ictimaiyyətə göstərən soydaşlarımız sağ olsunlar! Arxa cəbhədə bir yumruq kimi birləşərək Azərbaycan dövlətinin qüdrətini və bizim həmrəyliyimizi bütün dünyaya nümayiş etdirmiş bütün Azərbaycan xalqına minnətdaram!

Əziz həmvətənlər!

Sizin hamınızı Böyük Qələbə Günü münasibətilə təbrik edirəm! Böyük zəfər gününüz mübarək! Azərbaycanın şərəf və qüdrət günü mübarək! Qarabağın azad edilməsi günü mübarək! Biz Qələbə qazandıq! Qarabağ Azərbaycandır!

Dərin hörmət və sevgilərlə,

**Sizin MEHRİBAN**

**10 noyabr 2020-ci il**



QARABAĞ bizimdir, Azərbaycandır!



# Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatı



Biz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Ermənistan Respublikasının baş naziri Nikol Paşinyan və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin aşağıdakıları bəyan edirik:

**1.** 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunur. Bundan sonra Tərəflər adlandırılacaq Azərbaycan Respublikası və Ermənistan Respublikası hazırda tutduqları mövqelərdə qalacaqlar.

**2.** 20 noyabr 2020-ci il tarixinədək Ağdam rayonu Azərbaycan Respublikasına qaytarılır.

**3.** Dağlıq Qarabağda təmas xətti və Laçın dəhlizi boyu Rusiya Federasiyasının 1960 sayda odlu silahlı hərbi qulluqçusundan, 90 hərbi zirehli texnika, 380 ədəd avtomobil və xüsusi texnikadan ibarət sülhməramlı kontingenti yerləşdirilir.

**4.** Rusiya Federasiyasının sülhməramlı kontingenti erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilir. Rusiya Federasiyasının sülhməramlı kontingentinin qalma müddəti 5 ildir və müddətin bitməsinə 6 ay qalmış hazırkı müddəanın tətbiqinə xitam verilməsi niyyəti ilə bağlı Tərəflərdən hər hansı biri çıxış etməzsə, müddət avtomatik olaraq növbəti 5 ilə uzadılır.

**5.** Münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılır.

**6.** Ermənistan Respublikası 15 noyabr 2020-ci il tarixinədək Azərbaycan Respublikasına Kəlbəcər rayonunu, 1 dekabr 2020-ci il tarixinədək isə Laçın rayonunu qaytarır. Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın dəhlizi (5 kilometr enliyində) Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Tərəflərin razılığı əsasında növbəti üç il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın dəhlizi üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur. Azərbaycan Respublikası Laçın dəhlizi üzrə hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinə təhlükəsizlik zəmanəti verir.

**7.** Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının Ofisinin nəzarəti altında geri qayıdır.

**8.** Hərbi əsirlər, girovlar və digər saxlanılan şəxslərin, habelə cəsədlərin mübadiləsi həyata keçirilir.

**9.** Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək.

**Azərbaycan Respublikasının Prezidenti,**
**Ermənistan Respublikasının baş naziri,**
**Rusiya Federasiyasının Prezidenti**



QARABAĞ bizimdir, Azərbaycandır!



# Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı



**Dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan Zəfər paradında iştirak ediblər.

"Dəmir yumruq" əməliyyatında - Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəyə həsr olunmuş Zəfər paradına müdafiə nazirinin müavini, "Zəfər" ordenli general-leytenant Kərim Vəliyev



komandanlıq edib.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək hərbi texnikanın, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistem-







lərinin, eləcə də hərbi gəmi və katerlərin nümayişi oldu. Paradda, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qismi də nümayiş etdirildi.

Hərbi orkestr "Azərbaycan fanfarası"nı ifa etdi.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verdi.

Dövlət başçıları əsgərləri salamladılar.

Hərbi orkestr Azərbaycanın və Türkiyənin dövlət himnlərini ifa etdi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev paradda çıxış etdi.

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

Dövlət başçılarının çıxışlarından sonra Zəfər paradı başladı. Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət bayrağı və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanına gətirildi.

Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Məmmədovun başçılıq etdiyi döyüş bayraqdarları qrupu Böyük Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarını Azadlıq meydanına gətirdi.

Sonra Vətən müharibəsində müqəddəs döyüşlərdə əsl qəhrəmanlıq, şücaət, rəşadət və yüksək peşəkarlıq nümunələri göstərərək xalqımıza Böyük Qələbənin sevincini yaşadan Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi qulluqçuları tribunanın önündən keçdilər. Üç kolondan ibarət parad heyətinə Xüsusi Təyinatlı Qüvvələrin komandanı, Vətən Müharibəsi Qəh-






rəmanı general-leytenant Hikmət Mirzəyev başçılıq edib.

Ardınca Hərbi Dəniz Qüvvələrinin dəniz piyadaları birinci dərəcəli kapitan Zaur Quliyevin başçılığı ilə tribuna önündən keçdilər.

Sonra Xarici Kəşfiyyat Xidmətinin və Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarından ibarət parad heyətləri tribunanın önündən addımladılar. Dövlət Təhlükəsizliyi Xidmətinin parad heyətinə general-mayor Rövşən Muxtarov başçılıq edirdi.

Daha sonra polkovnik Səid İsayevin başçılığı ilə Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları, polkovnik Taleh Məşədiyevin rəhbərliyi ilə Birinci Ordu Korpusunun döyüşçüləri, polkovnik Nemət Müseyibovun başçılığı ilə İkinci Ordu Korpusunun, polkovnik-leytenant Kamran Ağabalayevin rəhbərliyi ilə Üçüncü Ordu Korpusunun, polkovnik İlham Məmmədovun başçılığı ilə Dördüncü Ordu Korpusunun və polkovnik-leytenant Dəyanət Müslümovun rəhbərliyi ilə Altıncı Ordu Korpusunun hərbi qulluqçuları tribuna önündən keçdilər.

Raket və Artilleriya Qoşunlarının hərbi qulluqçuları da tribuna önündən mətin addımlarla irəlilədilər. Parad heyətinə polkovnik İsmixan Məmmədov başçılıq edirdi.

Zəfər paradında qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən keçdilər.

Dövlət Sərhəd Xidmətinin parad heyətləri general-mayor Rəsul Tağıyevin, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının parad heyəti general-mayor İnqilab Muradovun, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçularından ibarət parad heyəti isə mayor Eldar Quliyevin rəhbərliyi ilə mətin addımlarla Azadlıq meydanına daxil oldular.

Sonra general-mayor Füzuli Salahovun rəhbərliyi ilə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin parad heyəti, general-mayor Bəkir Orucovun başçılığı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin kursant və zabitlərinin keçidi oldu.

Naxçıvan Muxtar Respub-

likasındakı Heydər Əliyev adına Hərbi Liseyin kursantları ilk dəfə olaraq Azadlıq meydanında keçirilən paradda iştirak edirdilər. Parad heyəti general-mayor Məhəmməd Həsənovun başçılığı ilə tribuna önündən keçdilər.

Vətən müharibəsində Böyük Qələbəyə həsr olunmuş Zəfər paradını Əməkdar incəsənət xadimi polkovnik-leytenant Rüfət Axundzadənin dirijorluğu ilə birləşmiş hərbi orkestr müşayiət edirdi.

Daha sonra hərbi texnikaların keçidi başladı.

Vətən müharibəsində Qələbəyə həsr olunan Zəfər paradına Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri dənizdən dəstək verdi. Dənizdə fəxri keçid edən hərbi gəmilərimiz yüksək döyüş hazırlığı nümayiş etdirdi.

"Dəmir yumruq" əməliyyatının – Vətən müharibəsinin qazilərinin Zəfər paradında tribuna önündən keçidi oldu.

Azadlıq meydanına 44 günlük Vətən müharibəsində düşməndən qənimət götürülmüş hərbi texnikaların bir qismi gətirildi. Vətən müharibəsi zamanı Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiya paradda nümayiş olundu. Dağlıq Qarabağ ərazisinin əzəli Azərbaycan torpağı olduğu kompozisiyanın üzərinə həkk olunan "Qarabağ Azərbaycandır!" şüarı ilə bir daha bəyan edilib.

Döyüşlərdə qənimət götürülmüş istifadəyə yararlı texnikalar - "KamAZ" markalı avtomobilin qoşqusunda D-30, "Ural" markalı avtomobilin qoşqusunda D-20 topları, qoşqu üzərində zenit qurğuları, "ŞİLKA", "OSA-1T", "KUB" zenit-raket kompleksləri, piyadaların döyüş maşınları (PDM), "T-72" tankları, eləcə də istifadəyə yararsız texnikalar - zirehli "UAZ Patriot", "UAZ Hunter" minik, "ZİL-131", "Ural", "Ka-









mAZ" markalı yük avtomobilləri, 122 millimetrlik "Qvozdika" özüyeriyən artilleriya qurğusu, BM-21 "Qrad" qurğuları, PDM-1 və PDM-2 texnikaları, T-72 tankları qəhrəman Azərbaycan Ordusunun düşmənə sarsıdıcı zərbələr vurduğunun əyani təsdiqidir.

Bundan sonra xüsusi təyinatlı avtomobil, zirehli texnika və silah sistemləri kolonu Azadlıq meydanına daxil oldu. Kolona "Qarabağ" ordenli general-leytenant Nizam Osmanov başçılıq edirdi.

Azadlıq meydanında keçid edən, üzərində 12,7 millimetrlik NSV pulemyotları, tank əleyhinə idarə olunan "SPIKE-ER," "NLOS," "LAHAT" raketləri, 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılan "SandCat-Stormer" zirehli idarəetmə, çevik hərəkət maşınları, piyada daşıyan zirehli maşınlar, "Kobra" və "BTR-82A" zirehli transportyorları, PDM-2 və PDM-3 texnikaları, "T-72," "T-90S" tankları Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirdi.

Daha sonra Azadlıq meydanında Hava Hücumundan Müdafiə silahları sistemləri kolonunun keçidi oldu. Kolona müdafiə nazirinin müavini – Hərbi Hava Qüvvələrinin komandanı, "Zəfər" ordenli general-leytenant Ramiz Tahirov başçılıq edirdi. Tribuna önündən modernləşdirilmiş "OSA-1T," "S-125 TM," "BUK-MB," "İldırım" zenit-raket komplekslərinin, "S-300 Favorit" sistemlərinin keçidi oldu. Ardınca Vətən müharibəsində Qələbənin əldə edilməsində çox mühüm rol oynayan "Orbiter-1KM" - "İti qovan," "Orbiter-2B," "Orbiter-3B," "Orbiter-4," "Aerostar–BP," "Heron" pilotsuz uçuş aparatları (PUA), eləcə də ən müasir PUA-lar - "Bayraktar-TB2," habelə "Hermes-450," "Hermes-900," "Quzğun" və "Harop" PUA-ları nümayiş olundu.

Ardınca Azadlıq meydanına artilleriya silahları sistemlərinin kolonu daxil oldu. Kolona "Zəfər" ordenli general-mayor Ağamir Sultanov başçılıq edirdi. Meydanda özüyeriyən haubitsa və artilleriya qurğuları - 152 millimetrlik "Akasiya," 152 millimetrlik "MSTA-S," 203 millimetrlik "Pion," eləcə də 220 millimetrlik "TOS-1A" ağır




odsaçan, tank əleyhinə “Xrizantema-S” kompleksləri, “DANA” özüyeriyən top-haubitsaları, “Qrad,” “RM-70/85,” “BM-21,” “Smerç” yaylım atəşli reaktiv sistemləri, “TR-300 Qasırğa,” “Ekstra” taktiki, “Polonez” və “LORA” əməliyyat-taktiki raket sistemlərinin keçidi oldu.

Bundan sonra Azadlıq meydanı üzərində Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu başladı. “Qarabağ” ordenli polkovnik Həsən Əlövsətovun rəhbərlik etdiyi “Mİ-17” hərbi nəqliyyat-desant helikopterləri cütlüyü Azərbaycan və Türkiyə respublikalarının dövlət bayraqları ilə Bakı buxtasının üzərindən uçaraq Zəfər paradının iştirakçılarını salamladı. Bunun ardınca Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Rəşad Nadirovun başçılığı ilə “Mİ-35” hücum helikopterləri qrupunun uçuşu oldu. Polkovnik-leytenant Rəhim Quluzadənin başçılığı ilə “LAHAT” və “SPAYK” uzunmənzilli raketləri ilə silahlanmış “Mİ-17” helikopterlərinin və “Qarabağ” ordenli polkovnik Zaur Rüstəmovun rəhbərliyi ilə “MİQ-29” çoxməqsədli qırıcı təyyarələr qruplarının uçuşları da maraqla qarşılandı. Zəfər paradında döyüş təyyarə və helikopterlərinin çıxışını müasir silahlarla təchiz olunmuş “Su-25” hücum və hava dəstək təyyarələr qrupu tamamladı. Vətən Müharibəsi Qəhrəmanı general-mayor Namiq İslamzadənin başçılıq etdiyi qrupun səmada Azərbaycan Respublikasının dövlət bayrağının təsvirini yaratması üçrəngli şanlı bayrağımızın daim yüksəklərdə dalğalanacağını təcəssüm etdirdi.

Vətən müharibəsinin iştirakçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbaninin aparıcısı olduğu Zəfər paradı 44 günlük müharibədə Azərbaycan Ordusunun Böyük Qələbəsini bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi. “Dəmir yumruq” əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan Vətən müharibəsində Rəşadətli Ordumuzun Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığı Böyük Qələbə müasir müstəqil Azərbaycan dövlətinin hərbi qüdrətinin, iqtisadi gücünün nümayişi ilə yanaşı, xalqımızın qələbə əzminin də əyani təsdiqidir.

Yaşasın, müstəqil Azərbaycan Respublikası! Yaşasın, müzəffər Azərbaycan Ordusu! Yaşasın, sarsılmaz və əbədi Azərbaycan-Türkiyə qardaşlığı!






# Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın işğaldan azad olmuş torpaqlara səfəri





Füzuli-Şuşa avtomobil yolunun təməlinin qoyulması

## Füzuli və Cəbrayıl rayonlarına səfər

**Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarında, o cümlədən Füzuli və Cəbrayıl şəhərlərində olublar.**

Prezident İlham Əliyev Füzuli rayonundan Şuşa şəhərinə yol çəkilişi ilə bağlı göstəriş verib. Artıq bu yolun inşasına start verilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva layihənin icrasının gedişi ilə tanış olublar. Dövlətimizin başçısı Füzuli-Şuşa avtomobil yolunun təməlinin qoyulmasını tarixi hadisə adlandırıb, artıq azad olmuş torpaqlarda quruculuq işlərinin başlanıldığını bildirib, Şuşa əməliyyatında ordumuzun şücaətindən, İkinci Qarabağ müharibəsində şanlı Qələbəmizdən, münaqişənin siyasi həlli mərhələsindən bəhs edib.

***

Qeyd edək ki, Füzuli rayonuna gedən yolun ətrafında bir vaxtlar həyat qaynayıb, bu kəndlərdə insanlar firavan və sülh içində yaşayıblar. Ancaq ermənilər tərəfindən torpaqlarımızın işğala məruz qalmasından sonra azərbaycanlılar öz dədə-baba torpaqlarından qovulublar, erməni vandalları tərəfindən evlər yerlə-yeksan edilib. Onlar daşı daş üstündə qoymayıblar, azərbaycanlıların tikdiyi evləri vəhşicəsinə dağıdıblar. Bunlar ermənilərin əməllərinin nəticəsidir.

Dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Füzuli şəhərinə gəliblər. Prezident İlham Əliyev Füzuli şəhərində şanlı Azərbaycan bayrağını qaldırıb. Sonra Ali Baş Komandan çıxış edərək Füzuli şəhərinin erməni vəhşiliyinə məruz qalmasından danışıb, Vətən müharibəsində zəfərlərimizi, Füzuli və işğaldan azad edilmiş başqa torpaqların bərpasını qeyd edib.

***

Dövlətimizin başçısı sükan arxasında yolda gedərkən yol kənarına toplaşan insanları görüb və avtomobili saxlayaraq onlarla görüşüb.

***

Cəbrayıla gedərkən avtomobili özü idarə edən Prezident İlham Əliyev yol boyunca Azərbaycan vətəndaşlarının vəhşi düşmən tərəfindən







dağıdılmış evlərinin şahidi olub, Xudafərin körpüsünə gəlib, körpüdə şanlı Azərbaycan bayrağını qaldırıb. Dövlətimizin başçısının bayrağımızı tarixi Xudafərin körpüsündə qaldırması Azərbaycan xalqı üçün qürur və fəxarətdir. Xalqımızın mənəviyyatında, tarixində dərin iz buraxan Xudafərin həm də milli qürur məsələsi idi.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Araz çayının sahilini gəzib, Xudafərin körpüsünün önündə xatirə şəkilləri çəkdiriblər.

Daha sonra dövlətimizin başçısı və birinci xanım Cəbrayıl şəhərinə gəliblər.

Xalqımızın uzun illər həsrətində olduğu anları yaşadıq. Dövlətimizin başçısı, Ali Baş Komandan Cəbrayıl şəhərində də üçrəngli bayrağımızı qaldırıb. Şəhərdə mövcud binalara, dağıdılmış yerlərə baş çəkib, şəhərin mərkəzində bir dənə də salamat binanın qalmadığını, infrastruktur, evlər, binalar, məktəblər, ictimai binalar - hamısının düşmən tərəfindən söküldüyünü vurğulayıb.

Ölkə Prezidenti bütün şəhərlərin bərpa olunacağına, Azərbaycan vətəndaşlarının yenə də burada yaşayacaqlarına əminliyini bildirib.

## Ağdam şəhərinə səfər

**Noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar.**

Dövlətimizin başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırıb.

İyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda indi dövlət bayrağımız qürurla dalğalanır. Bu görüntüləri hər bir azərbaycanlı fəxrlə və böyük sevinclə izləyir. Bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq, Ağdamın ağ damlarını xarabalığa çeviriblər, şəhəri darmadağın ediblər.

Sonra dövlətimizin başçısı və birinci xanım Ağdam məscidini ziyarət ediblər. Xocalı soyqırımında sağ qalan xocalıların ümid, pənah yerinə çevrilən qoşa minarəli məscid də yırtıcı düşmən tərəfindən vəhşicəsinə dağıdılıb.

Prezident İlham Əliyev Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məscidinə bağışlayıb, məscidin qarşısında çıxış edib. Dövlət başçısı noyabrın 20-də Ağdam şəhəri və Ağdam rayonunun işğal altında





**Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva Ağdam Məscidində**








**İşğaldan azad olmuş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır**

olan hissəsinin azad edilməsindən, döyüş meydanında əldə edilən qələbənin Ağdam, eyni zamanda, Kəlbəcər və Laçın rayonlarının bir güllə atmadan, bir şəhid vermədən azad olunmasına imkan verdiyini vurğulayıb, bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtdığını qeyd edib.

Dövlət başçısı ötən 17 il ərzində qüdrətli ordu quruculuğundan, beynəlxalq müstəvidə böyük işlər aparılmasından, bütün beynəlxalq təşkilatlarda ədaləti, beynəlxalq hüququ tanıyan, əks etdirən qərar və qətnamələr qəbul etdirilməsindən, həmçinin informasiya müharibəsində ölkəmizin qələbəsindən danışıb, siyasi, iqtisadi müstəqilliyimizin təmin olunduğunu, hərbi gücümüzün artırıldığını və bütün bunların nəticəsində Vətən müharibəsində şanlı zəfərlər qazanıldığını vurğulayıb, 44 gün ərzində Türkiyə Cümhuriyyətinin, Prezident Rəcəb Tayyib Ərdoğanın mənəvi və siyasi dəstəyini qeyd edib.

Dağılmış Ağdam şəhərinin erməni vəhşiliyinin şahidi olduğunu söyləyən Prezident İlham Əliyev Ağdam və digər şəhərlərimizin, qalan tarixi abidələrimizin bərpa olunacağını vurğulayıb.

## Qubadlı və Zəngilan rayonlarına səfər

**Dekabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olublar.**

Qubadlıya gedən yolda avtomobili özü idarə edən Prezident İlham Əliyev yol boyunca - Zəngilan rayonunun ərazisindən keçərkən - ermənilər tərəfindən dağıdılmış kəndlərimizə baxıb, Ermənistanın qanunsuz məskunlaşma apardığı Qubadlının Xanlıq kəndinə gəlib, burada hərbçilərlə görüşüb, onlarla söhbət edib.

Prezident İlham Əliyev Qubadlıda Azərbaycan bayrağını ucaldıb.

Dövlətimizin başçısı çıxış edərək oktyabrın 25-də Qubadlı şəhərinin azad edilməsinin qələbəmizi yaxınlaşdırdığını, Qubadlı uğrunda şiddətli döyüşlər getdiyini, şəhidlər verildiyini vurğulayıb, rayonun azad edilməsi əməliyyatı barədə danışıb.

Ali Baş Komandan müharibə zamanı gördüyümüz işlərin, Azərbaycanın döyüş taktikasının bu gün aparıcı ölkələrin ali hərbi məktəblərində öyrənildiyini qeyd edərək az itkilərlə düşmənə sarsıdıcı zərbələr vurulduğunu, düşmənin ordusunun faktiki olaraq məhv edilərək hədəfə nail olunduğunu bildirib.

Dövlət başçısı noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın faktiki olaraq Ermənistan dövlətinin kapitulyasiyası olduğunu qeyd edərək bildirib ki, bununla Ermənistan təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü. Bu gün vaxtilə işğal







edilmiş torpaqlarda Azərbaycan Bayrağı dalğalanır. Artıq bu bölgənin, Qarabağ bölgəsinin bərpası ilə bağlı konkret addımlar atılır, ilkin kontraktlar imzalanmışdır. Mənfur düşmən hər şeyi dağıdıb. Yol boyunca Cəbrayıl rayonundan, azad edilmiş torpaqlardan başlayaraq, Qubadlıya qədər hər tərəf dağıdılıb. Bir dənə də salamat bina yoxdur. Təkcə Qubadlıda bir neçə bina qalıb ki, burada hərbçilər və onların ailə üzvləri yaşayıblar. Bütün binalar, bütün evlər, tarixi abidələrimiz, məscidlərimiz, qəbirlərimiz mənfur düşmən tərəfindən dağıdılıb. Bu cinayətlərin hamısı sənədləşdirilir.

Ölkə rəhbəri Qələbəyə həsr olunmuş Zəfər paradında düşmənin məhv edilmiş və qənimət götürülmüş texnikasının, öz hərbi potensialımızın nümayiş olunduğunu qeyd edərək diqqətə çatdırıb ki, "Biz Qələbə qazanmışıq, düşməni torpaqlarımızdan qovmuşuq. Amma heç kim təminat verə bilməz ki, bir neçə ildən sonra erməni faşizmi yenə baş qaldırmasın. Ona görə Azərbaycan dövləti həmişə güclü olmalıdır. Azərbaycan dövlətinin həmişə güclü ordusu olmalıdır".

Azərbaycan Prezidenti ölkəmizin ən gözəl rayonlarından biri olan Qubadlı rayonunun qısa müddət ərzində lazım olan bütün bərpası işlərinin nəzərdə tutulduğunu vurğulayaraq insanlarımızın buraya qayıdacaqlarını və öz torpağımızda bundan sonra əbədi yaşayacaqlarını bildirib.

***

Sonra dövlətimizin başçısı və birinci xanım işğaldan azad olunmuş Zəngilan rayonunda olublar, Dövlətimizin başçısı Azərbaycan bayrağını ucaldıb. Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilanda mənfur düşmən tərəfindən dağıdılan məscidə gəliblər. Məscidin qarşısında çıxış edən Prezident İlham Əliyev bütün dini abidələrimizin düşmən tərəfindən dağıdıldığını, dünyanın 30 il ərzində buna səssiz qaldığını vurğulayıb. Bildirib ki, Zəngilan işğaldan azad olunandan sonra rayonda yerləşən məscidlərin birində donuzların saxlanması ilə bağlı videokadrlar nümayiş etdirilmişdir. Düşmən bizim dinimizi təhqir edib, bütün müsəlmanları təhqir edib. 30 il ərzində dəfələrlə UNESCO-ya müraciət etmişik, dəfələrlə bildirmişik ki, bizim məscidlərimiz dağıdılıb, tarixi abidələrimiz dağıdılıb, bizim tarixi abidələrimiz erməniləşdirilir, bir dəfə missiya göndərildimi? Bir dəfə bizim müraciətimizə cavab verildimi?

Dövlət başçısı ikili standartların, ədalətsizliyin, riyakarlığın davam etdiyini bildirərək məscid, dini ibadət yerlərimizi təhqir edən Ermənistanın qınanmalı olduğunu söyləyib, Cəbrayıldan başlayaraq Qubadlıya, Zəngilana qədər azad edilmiş torpaqlarda bir dənə də salamat bina qalmadığını, bütün binaların söküldüyünü, dağıdıldığını, kəndlərimizin adlarının dəyişdirilərək eybəcər adlar verildiyini bildirib. Qeyd edib ki, biz bu məscidi bərpa edəcəyik və bizim vətəndaşlar gəlib burada ibadət edəcəklər, buradan azan səsi gələcək, bu torpaqlara həyat qayıdacaq.



Qarabağ Azərbaycandır!







# İşğaldan azad olunmuş şəhər və kəndlərimiz

***Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib.***

***Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olunub.***

***Noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalayıblar. Bəyanata əsasən 2020-ci il dekabrın 1-dək Kəlbəcər, Ağdam və Laçın rayonlarının Azərbaycana qaytarılması təsbit olunub.***

## Vətən müharibəsində işğaldan azad olunmuş şəhər, qəsəbə və kəndlərimizin siyahısı

### 27 sentyabr

- **Füzuli** rayonunun Qaraxanbəyli, Qərvənd, Kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndləri
- **Cəbrayıl** rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri
- **Ağdərə** və **Murovdağ** istiqamətlərində yüksəkliklər

### 3 oktyabr

- **Tərtər** rayonunun Suqovuşan və Talış kəndləri
- **Cəbrayıl** rayonunun Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy, Quycaq kəndləri
- **Füzuli** rayonunun Aşağı Əbdürrəhmanlı kəndi

### 4 oktyabr

- **Cəbrayıl** şəhəri və rayonun Karxulu, Şükürbəyli, Yuxarı Maralyan, Çərəkən, Daşkəsən, Horovlu, Decal, Mahmudlu, Cəfərabad kəndləri

### 5 oktyabr

- **Cəbrayıl** rayonunun Şıxəli Ağalı, Sarıcalı, Məzrə kəndləri

### 9 oktyabr

- **Xocavənd** rayonunun Hadrut qəsəbəsi və Sur kəndi
- **Cəbrayıl** rayonunun Qaracallı, Süleymanlı, Əfəndilər və Qışlaq kəndləri
- **Füzuli** rayonunun Yuxarı Güzlək, Görəzilli kəndləri
- **Tərtər** rayonunun Çaylı kəndi

### 14 oktyabr

- **Füzuli** rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu kəndləri
- **Xocavənd** rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri

### 15 oktyabr

- **Xocavənd** rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndləri
- **Füzuli** rayonunun Arış kəndi
- **Cəbrayıl** rayonunun Doşulu kəndi

### 16 oktyabr

- **Xocavənd** rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri







**17 oktyabr**

- **Füzuli** rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri

**18 oktyabr**

- **Xudafərin** körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı

**19 oktyabr**

- **Cəbrayıl** rayonunun Soltanlı, Əmirvarlı, Maşanlı, Həsənli, Əlikeyxanlı, Qumlaq, Hacılı, Göyərçinveysəlli, Niyazqullar, Keçəl Məmmədli, Şahvəlli, Hacı İsmayıllı, İsaqlı kəndləri

**20 oktyabr**

- **Zəngilan** rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri
- **Füzuli** rayonunun Dördçinar, Kürdlər, Yuxarı Əbdürrəhmanlı, Qarğabazar, Aşağı Veysəlli, Yuxarı Aybasanlı kəndləri
- **Cəbrayıl** rayonunun Safarşa, Həsənqaydı, Fuğanlı, İmambağı, Daş Veysəlli, Ağtəpə, Yarəhmədli kəndləri
- **Xocavənd** rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli (Noraşen), Çinarlı (Vəng) kəndləri

**21 oktyabr**

- **Zəngilan** rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndləri
- **Cəbrayıl** rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndləri
- **Füzuli** rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndləri

**22 oktyabr**

- **Zəngilan** rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndləri və Ağbənd qəsəbəsi
- **Cəbrayıl** rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndləri
- **Füzuli** rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli kəndləri

**23 oktyabr**

- **Xocavənd** rayonunun Dolanlar və Bünyadlı kəndləri
- **Cəbrayıl** rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı və Veysəlli kəndləri
- **Zəngilan** rayonunun Vənədli və Mirzəhəsənli kəndləri
- **Qubadlı** rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndləri

**25-26 oktyabr**

- **Zəngilan** rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd kəndləri
- **Cəbrayıl** rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər kəndləri
- **Qubadlı** rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndləri və Qubadlı şəhəri.

**28 oktyabr**

- **Zəngilan** rayonunun Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli kəndləri
- **Füzuli** rayonunun Mandılı kəndi
- **Cəbrayıl** rayonunun Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac kəndləri
- **Qubadlı** rayonunun Qiyaslı, Əbilcə, Qılıcan kəndləri.

**30 oktyabr**

- **Cəbrayıl** rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı kəndləri
- **Zəngilan** rayonunun Aladin, Vejnəli kəndləri
- **Qubadlı** rayonunun Kavdadıq, Məmər, Mollalı kəndləri.




**2 noyabr**

- **Cəbrayıl** rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq kəndləri
- **Zəngilan** rayonunun Dərə Gilətağ, Böyük Gilətağ kəndləri
- **Qubadlı** rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndləri.

**4 noyabr**

- **Cəbrayıl** rayonunun Mirək, Kavdar kəndləri
- **Zəngilan** rayonunun Məşədiismayıllı, Şəfibəyli kəndləri
- **Qubadlı** rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndləri.

**7 noyabr**

- **Füzuli** rayonunun Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar kəndləri
- **Cəbrayıl** rayonunun Yuxarı Məzrə, Yanarhac kəndləri
- **Qubadlı** rayonunun Qəzyan, Balasoltanlı, Mərdanlı kəndləri
- **Zəngilan** rayonunun Beşdəli kəndi
- **Xocavənd** rayonunun Ataqut, Tsakuri kəndləri
- **Xocalının** Qarabulaq, Moşxmaat kəndləri

**8 noyabr**

- **ŞUŞA şəhəri**

**9 noyabr**

- **Füzuli** rayonunun Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq kəndləri
- **Xocalı** rayonunun Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Şuşakənd, Muxtar, Daşaltı kəndləri
- **Xocavənd** rayonunun Susanlıq, Domi, Tuğ, Akaku, Azıx,Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər kəndləri
- **Cəbrayıl** rayonunun Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər kəndləri
- **Qubadlı** rayonunun Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli kəndləri
- **Zəngilan** rayonunun Keçikli, Ördəkli, Sobu, Qaragöz, İsgəndərbəyli kəndləri, Bartaz qəsəbəsi
- **Laçın** rayonunun Güləbürd, Səfiyan, Türklər kəndləri

**10 noyabr**

- Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin bəyanatına əsasən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olunub.

**20 noyabr**

- Noyabrın 10-da imzalanmış üçtərəfli bəyanata uyğun olaraq, **Ağdam** rayonu Azərbaycana təhvil verilib. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi azad olunub.

**25 noyabr**

- Üçtərəfli bəyanata əsasən, **Kəlbəcər** rayonu Azərbaycana təhvil verilib. İşğaldan əvvəl rayonda 147 yaşayış məntəqəsi olub.

**1 dekabr**

- Üçtərəfli bəyanata uyğun olaraq, Ermənistan silahlı birləşmələri **Laçın** rayonundan çıxıblar. Rayon Azərbaycan Silahlı Qüvvələrinə təhvil verilib. Laçın rayonunda bir şəhər, bir qəsəbə və 125 kənd olmaqla, ümumlikdə 127 yaşayış məntəqəsi var.

Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşıb.

**AZƏRTAC**







## Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz




qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 3 dekabr 2020-ci il*
*N 2314*

## Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır.

Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xal-



QARABAĞ bizimdir, Azərbaycandır!



qımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir.

Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir.

Həmvətənlərimizin bir çoxu şəhid olmuş, itkin düşmüş, yaralanaraq sağlamlığını itirmişdir. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda, regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir.

Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, **qərara alıram:**

1. Hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 2 dekabr 2020-ci il*
*N 2311*

## Vətən müharibəsi şəhidlərinin xatirəsinin yad edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, canlarını Azərbaycan Respublikasının ərazi bütövlüyü yolunda qurban vermiş Vətən müharibəsi şəhidlərinin əziz xatirəsini yad etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək məqsədilə 2020-ci il dekabrın 4-də saat 12:00-da bir dəqiqəlik sükut elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

*Bakı şəhəri, 3 dekabr 2020-ci il*
*N 2315*



QARABAĞ bizimdir, Azərbaycandır!



## Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında

# Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyi yaradılsın.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Bakı Şəhər İcra Hakimiyyəti ilə birlikdə Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yeri və layihələndirilməsi ilə bağlı təkliflərini hazırlayıb iki ay müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

3.1. Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin layihələndirilməsi və tikintisinin maliyyələşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 3 dekabr 2020-ci il*
*N 2316*

## Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında

# Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası Baş nazirinin və Rusiya Federasiyası Prezidentinin 2020-ci il noyabrın 10-da imzaladıqları Bəyanatda nəzərdə tutulmuş müddəaların icrasından irəli gələn, habelə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi

məqsədilə aşağıdakı tərkibdə Əlaqələndirmə Qərargahı (bundan sonra - Qərargah) yaradılsın:

**Qərargahın rəhbəri**

Samir Nuriyev - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri

**Qərargahın üzvləri**

Zeynal Nağdəliyev - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri

Şahmar Mövsümov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Hikmət Hacıyev - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri

Fuad Ələsgərov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

Anar Ələkbərov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi

Gündüz Kərimov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Elçin Əmirbəyov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Xalid Əhədov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Emin Hüseynov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Kamran Əliyev - Azərbayan Respublikasının Baş prokuroru

Vilayət Eyvazov - Azərbaycan Respublikasının daxili işlər naziri

Muxtar Babayev - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

Fikrət Məmmədov - Azərbaycan Respublikasının ədliyyə naziri

Sahil Babayev - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Ceyhun Bayramov - Azərbaycan Respublikasının xarici işlər naziri

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadiyyat naziri

İnam Kərimov - Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri

Zakir Həsənov - Azərbaycan Respublikasının müdafiə naziri

Ramin Quluzadə - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri

Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri

Emin Əmrullayev - Azərbaycan Respublikasının təhsil naziri

Anar Quliyev - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

Rövşən Rzayev - Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri

Elçin Quliyev - Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi

Əli Nağıyev - Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

Orxan Sultanov - Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin rəisi

Anar Kərimov - Azərbaycan Respublikasının mədəniyyət nazirinin birinci müavini

Rəşad Nəbiyev - "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri

2. Qərargahın nəzdində katiblik və kommunikasiya funksiyasının yerinə yetirilməsi və zəruri analitik-təşkilati dəstək göstərilməsi məqsədilə İdarələrarası Mərkəz yaradılsın.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 24 noyabr 2020-ci il*
*N 2303*



QARABAĞ bizimdir, Azərbaycandır!



## Vətən Müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı, 1992, N 23, maddə 996; 1993, N 23-24, maddə 676; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, N 5, maddə 251; 2003, N 12 (I kitab), maddə 677; 2005, N 4, maddə 291; 2006, N 10, maddə 846; 2007, N 3, maddə 213; 2008, N 6, maddələr 452, 472; 2009, N 1, maddə 4, N 5, maddə 312, N 7, maddələr 514, 515, N 12, maddə 974; 2010, N 3, maddə 174, N 11, maddə 960; 2011, N 11, maddə 992; 2012, N 7, maddə 664, N 11, maddələr 1036, 1048, 1061; 2013, N 5, maddələr 460, 478, N 10, maddə 1143, N 12, maddə 1477; 2014, N 6, maddələr 612, 623; 2015, N 12, maddə 1447; 2016, N 12, maddələr 1979, 2040; 2017, N 1, maddələr 16, 27, N 7, maddə 1311, N 10, maddə 1771, N 11, maddə 1962, N 12 (I kitab), maddələr 2242, 2269; 2018, N 2, maddə 168, N 3, maddə 387, N 5, maddələr 841, 859, 874, N 6, maddə 1190, N 11, maddə 2207, N 12 (I kitab), maddələr 2465, 2516; 2019, N 3, maddə 369, N 5, maddə 790, N 11, maddə 1693, N 12, maddə 1909; 2020, N 5, maddə 506; Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 174-VIQD və 175-VIQD nömrəli qanunları) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci maddəyə "Azərbaycan Respublikasının ən yüksək təltifi - "Heydər Əliyev" ordeni;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

"Zəfər" ordeni;

"Qarabağ" ordeni;";

1.2. 2-ci maddəyə "Qızıl Ulduz" medalı;" hissəsindən əvvəl "Vətən Müharibəsi Qəhrəmanı" medalı;" hissəsi və "İgidliyə görə" medalı;" hissəsindən sonra aşağıdakı məzmunda yeni hissələr əlavə edilsin:

"Cəsur döyüşçü" medalı;

"Döyüşdə fərqlənməyə görə" medalı;

"Suqovuşanın azad olunmasına görə" medalı;

"Cəbrayılın azad olunmasına görə" medalı;

"Xocavəndin azad olunmasına görə" medalı;

"Füzulinin azad olunmasına görə" medalı;

"Zəngilanın azad olunmasına görə" medalı;

"Qubadlının azad olunmasına görə" medalı;

"Şuşanın azad olunmasına görə" medalı;

"Kəlbəcərin azad olunmasına görə" medalı;

"Ağdamın azad olunmasına görə" medalı;

"Laçının azad olunmasına görə" medalı;

"Vətən müharibəsi iştirakçısı" medalı;

"Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalı;".

**Maddə 2.** "Azərbaycan Respublikasının "Zəfər"




ordeninin statutu" və "Azərbaycan Respublikasının "Zəfər" ordeninin təsviri" təsdiq edilsin.

**Maddə 3.** "Azərbaycan Respublikasının "Qarabağ" ordeninin statutu" və "Azərbaycan Respublikasının "Qarabağ" ordeninin təsviri" təsdiq edilsin.

**Maddə 4.** "Vətən Müharibəsi Qəhrəmanı" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 5.** "Cəsur döyüşçü" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Cəsur döyüşçü" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 6.** "Döyüşdə fərqlənməyə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Döyüşdə fərqlənməyə görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 7.** "Suqovuşanın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Suqovuşanın azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 8.** "Cəbrayılın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Cəbrayılın azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 9.** "Xocavəndin azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Xocavəndin azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 10.** "Füzulinin azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Füzulinin azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 11.** "Zəngilanın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Zəngilanın azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 12.** "Qubadlının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Qubadlının azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 13.** "Şuşanın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Şuşanın azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 14.** "Kəlbəcərin azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Kəlbəcərin azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 15.** "Ağdamın azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Ağdamın azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 16.** "Laçının azad olunmasına görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Laçının azad olunmasına görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 17.** "Vətən müharibəsi iştirakçısı" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Vətən müharibəsi iştirakçısı" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**Maddə 18.** "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikasının medalı haqqında Əsasnamə" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" Azərbaycan Respublikası medalının təsviri" təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 26 noyabr 2020-ci il*
*N 204-VIQD*



QARABAĞ bizimdir, Azərbaycandır!



# Ədliyyə Nazirliyi Vətən müharibəsi dövründə

## Ədliyyə naziri xarici həmkarlarına müraciətlər ünvanlayıb

**Ermənistanın ölkəmizə qarşı işğalçılığı və hərbi təcavüzü barədə**

Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədov Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribatı ilə bağlı xarici ölkələrin Ədliyyə nazirlərinə rəsmi müraciət ünvanlayıb.

Müraciətdə 30 ildən artıq davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin milyondan çox insanın taleyinə ciddi təsir göstərmiş faciəvi nəticələri qeyd olunub.

Azərbaycanın tarixi torpaqlarına ərazi iddiaları irəli sürən Ermənistanın 90-cı illərin əvvəllərində hərbi təcavüzə başladığı və Azərbaycan əhalisinin etnik təmizləməsini həyata keçirərək Dağlıq Qarabağı və ətraf yeddi rayonunu işğal etdiyi, bir milyon insanın qaçqın və məcburi köçkünə çevrildiyi bildirilib.

Qeyd edilib ki, 1994-cü ildə atəşkəs rejiminə nail olduqdan sonra münaqişənin sülh yolu ilə həlli istiqamətində vasitəçilik



missiyası – ATƏT-in Minsk Qrupu tərəfindən danışıqların aparılmasına baxmayaraq, Ermənistan müxtəlif bəhanələrlə davamlı olaraq münaqişənin sülh yolu ilə həllini uzatmış və ona sərf edən status-kvonu davam etdirərək özgə torpaqlarını işğal altında saxlamaqla bu günədək orada qanunsuz iqtisadi fəaliyyət göstərməyi və bu ərazilərin qanunsuz məskunlaşdırmasını həyata keçirir. Bununla da o, kobud şəkildə beynəlxalq hüquq normalarını, xüsusilə 1949-cu il Cenevrə Konvensiyalarını pozur.

Eyni zamanda, Ermənistanın hazırkı rəhbərliyinin hakimiyyətə gəldiyi andan açıq-aşkar danışıqlar prosesini pozmağa başlayaraq Dağlıq Qarabağın statusu məsələsinin danışıqların predmeti olmasına baxmayaraq, hərbi təxribatlara və müharibəyə açıq təhrik edən "Qarabağ Ermənistandır və nöqtə" və "Yeni ərazilər üçün yeni bir müharibə" şüarları ilə çıxışlar etdiyi vurğulanıb.



## QARABAĞ bizimdir, Azərbaycandır!



Təəssüflə qeyd olunub ki, beynəlxalq ictimaiyyətin heç bir reaksiya göstərməməsi təcavüzkarın əl-qolunu açaraq sərhəd bölgələrində hərbi təxribatları intensivləşdirmişdir.

Müraciətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin BMT-nin Baş Assambleyasının 75-ci sessiyasında çıxışı zamanı bu məsələləri ətraflı şəkildə və dəqiq faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırması qeyd olunub.

Hadisələrin pik həddi isə, 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin hərbi mövqelərimizi və ən dəhşətlisi, yaşayış məntəqələrimizi və dinc sakinlərimizi qəsdən və məqsədyönlü şəkildə ağır artilleriya qurğularından atəşə tutmağa başlaması olub.

Hücum nəticəsində bu günlər ərzində təkcə hərbçilərimiz deyil, eyni zamanda yeddi qadın və üç uşaq olmaqla 27 dinc sakin həlak olub, 140-dan çox mülki şəxs yaralanıb. Bundan əlavə, doğum evi, uşaq bağçası, məktəb, rayon məhkəməsinin binası və s. daxil olmaqla 450-ə yaxın yaşayış binası və mülki obyekt dağıdılıb və ya ciddi ziyan dəyib.

Hərbi təcavüz nəticəsində cəbhə xəttində yaranmış vəziyyətlə bağlı Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin xalqa müraciət etdiyi vurğulanaraq ölkəmizin BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququna əsaslanmaqla Ermənistanı sülhə məcbur etmək məqsədilə əks-hücum əməliyyatlarını aparmağa vadar olduğu qeyd edilib.

Doğma torpaqları uğrunda və yalnız öz ərazilərində vuruşan ordumuzun uğurlu əks-hücumunu görən Ermənistan tərəfi beynəlxalq hüquq normaları ilə istifadə olunması qadağan edilmiş kasset bombaları ilə dinc şəhər və kəndləri güclü atəşə tutmaqdadır.

Beləliklə, təmas xəttindən onlarla kilometr məsafədə yerləşən paytaxtdan sonra ikinci böyük, qədim şəhər olan Gəncə ciddi raket atəşinə tutulub. Bundan əlavə, hərbi əməliyyatlar aparılan yerdən 100 km-dən çox məsafədə yerləşən böyük bir sənaye mərkəzi və ərazisində iri su anbarı və enerji obyekti olan Mingəçevir şəhərinə raket zərbəsi endirilib.

Nazir xüsusilə qeyd edib ki, Ermənistan ərazisindən endirilən bu zərbələr ölkəmizi cavab zərbəsinə təhrik edərək üçüncü ölkələri hərbi əməliyyatlara cəlb etmək məqsədi daşıyır.

Ermənistan beynəlxalq normalara zidd olaraq, xarici ölkələrdən hərbi muzdluları cəlb edir və onlardan istifadə edir, bundan əlavə beynəlxalq arenada, sosial şəbəkələrdən geniş istifadə olunmaqla Azərbaycana qarşı terror və digər cinayət əməllərinə çağırışlar edilir.

Mülki infrastrukturun atəşə tutulması və dağıdılması nəticəsində dinc sakinlərin həlak olması ilə bağlı beynəlxalq humanitar hüququn pozulmasına dair Azərbaycanın Baş Prokurorluğu tərəfindən onlarla cinayət işinin açılması barədə məlumat verilib.

Erməni silahlı qüvvələrinin işğal altında olan ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının (822, 853, 874 və 884 nömrəli) dörd qətnaməsinin və Qoşulmama Hərəkatı, ATƏT, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı kimi aparıcı beynəlxalq təşkilatların digər analoji qərarlarının artıq təxirəsalınmadan dərhal icra edilməsinin və ədalətin bərpa edilməsi üçün beynəlxalq hüququn tam gücünü tətbiq etməsinin zəruriliyi diqqətə çatdırılıb.

Ədliyyə naziri davam edən təcavüz nəticəsində yaranmış vəziyyəti nəzərə alaraq, mövcud beynəlxalq hüquq mexanizmlərinin reallaşdırılması və ədalət, sülh və əmin-amanlığın bərpa olunması naminə həmkarlarını real əməllər görməyə, xüsusilə muzdlu hərbçilərin münaqişə zonasına göndərilməsi üçün qanunsuz cəlb olunmasının və onların ölkələrinin ərazisində digər qanunsuz hərəkətlərin qarşısının alınması məqsədilə müvafiq preventiv tədbirlər həyata keçirməyə çağırıb.

Müraciətin sonunda ədalət mühakiməsinə və ədliyyəyə məsul şəxs olaraq həmkarları-

nın bu məsələdə iştiraksız qalmayacaqlarına və beynəlxalq hüququn görünməmiş pozuntularına qarşı öz səlahiyyətləri çərçivəsində müvafiq tədbirlər görəcəklərinə əminlik ifadə olunub.

### Ermənistanın Bərdədə törətdiyi qətliam barədə

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən düşmənin hərbi təxribatlarının qarşısı qətiyyətlə alınır.

Döyüş meydanında məğlubiyyətə uğrayan işğalçı Ermənistanın qəsdən mülki əhaliyə hədəflənən qeyri-insani əməllərindən əl çəkməyərək beynəlxalq hüququn qadağan etdiyi kasset bombaları və ballistik raketlərlə Bərdədə qətliam törətməsi ilə bağlı Ədliyyə naziri Fikrət Məmmədov tərəfindən xarici ölkələrin ədliyyə nazirlərinə xüsusi müraciət ünvanlanıb.

Müraciətdə beynəlxalq ictimaiyyətin lazımi reaksiya göstərmədiyindən daha da azğınlaşan Ermənistanın ölkəmizə qarşı terror və hərbi təxribatlarının, xüsusilə Bərdədə törədilmiş hadisələrin dəhşətləri barədə məlumat verilib.

Oktyabrın 28-də münaqişə zonasından onlarla kilometr uzaqda yerləşən Bərdə rayonunun əhalinin sıx hərəkətdə olduğu hissəsinə raket zərbələrinin endirilməsi nəticəsində 21 mülki şəxsin həlak olduğu və 70-dən çox insanın yaralandığı, ölən və xəsarət alanlar arasında insanlara humanitar yardım göstərən Azərbaycan Qızıl Aypara Cəmiyyətinin 3 nəfər könüllüsünün olduğu bildirilərək, ermənilərin törətdikləri bu vəhşiliklərin heç bir insanlığa sığmadığı vurğulanıb.

Qeyd olunub ki, hərbi toqquşma başlayandan ötən bir ay ərzində bütövlükdə 11-i uşaq olmaqla 90-dan çox dinc insan həlak olub, 400-dək şəxs yaralanıb, 3.000-ə yaxın yaşayış binası və mülki obyekt dağıdılıb və ya ciddi ziyan dəyib. Həmçinin, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan neft kəmərləri atəşə tutulur.

Ermənistanın həmin zərbələri öz ölkəsinin ərazisindən endirməklə münaqişəni beynəlmiləlləşdirmək və üçüncü ölkələri cəlb etmək məqsədi daşıdığı xüsusilə qeyd olunub.

Vurğulanıb ki, BMT-nin Baş katibi və Avropa İttifaqı əhalinin yaşadığı bölgələrə edilən hücumları qınayan və onların tam qəbuledilməzliyini qeyd edən bəyanatlarla çıxış edərək bildiriblər ki, mülki şəxslərin və obyektlərin atəşə tutulmasına son qoyulmalıdır.

Lakin bu çağırışları məhəl qoymayan Ermənistanın mülki əhaliyə qarşı törədilən namərd hücumlarının ölən və yaralanan şəxslərin sayının durmadan artmasına səbəb olduğu qeyd edilib, xarici həmkarların diqqəti erməni terroruna məruz qalan şəhərləri ziyarət edən hətta diplomatik korpus üzvlərinin də artilleriya atəşinə tutulması faktına xüsusilə cəlb olunub.

Bundan əlavə, Ermənistanın Çikaqo Konvensiyasının tələblərini pozaraq, humanitar yardım bəhanəsi ilə mülki aviasiyadan istifadə etməklə ölkəsinə qanunsuz silah daşınması ilə məşğul olduğu və bununla əlaqədar Azərbaycan tərəfindən Beynəlxalq Mülki Aviasiya Təşkilatına (ICAO) müraciət edildiyi diqqətə çatdırılıb.

Bildirilib ki, Ermənistandan fərqli olaraq, doğma torpaqları uğrunda və yalnız öz ərazisində heç bir kənar dəstək olmadan öz gücü ilə vuruşan Azərbaycan döyüş meydanında açıq üstünlüyə malik olmasına baxmayaraq, insanların həyatını xilas etmək naminə qan tökülməsini istəmir və münaqişənin siyasi yolla həlli üçün sülh danışıqlarının aparılmasının tərəfdarıdır.

Ədliyyə naziri xarici həmkarlarının diqqətini yenidən bu problemə yönəltməklə mülki əhalinin həyatını qorumaq naminə təsirli tədbirlər görəcəklərinə ümidvar olduğunu bildirib.

### Torpaqlarımızın işğaldan azad olunması ilə bağlı

Ölkə Prezidenti, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qəti iradəsi və müdrik




xarici siyasəti, qüdrətli Azərbaycan Ordusunun qəhrəmanlığı və şücaəti, xalqımızın birliyi və həmrəyliyi nəticəsində təcavüzkar Ermənistan döyüş meydanında və siyasi müstəvidə ağır məğlubiyyətə uğradılaraq 30 ildir işğal altında qalan torpaqlarımız azad olundu, Azərbaycanın Böyük Qələbəsi ilə Dağlıq Qarabağ münaqişəsi başa çataraq ərazi bütövlüyümüz bərpa edildi.

Bununla bağlı ədliyyə naziri Fikrət Məmmədov xarici həmkarlarına yeni müraciət ünvanlayıb.

Müraciətdə döyüş meydanında acı məğlubiyyətə uğrayan Ermənistanın faktiki kapitulyasiyası və bununla qalan torpaqlarımızı siyasi yolla qaytarmağa məcbur olması qeyd edilərək, düşmənin işğal dövründə ərazilərimizdə törətdiyi vəhşiliklərə, beynəlxalq humanitar hüquqa zidd digər qanunsuz əməllərinə diqqət cəlb olunub.

Həmçinin bildirilib ki, Azərbaycanın hərbi sahədə qazandığı qələbələr müharibənin taleyində həlledici rol oynamış və Zəfər yürüşündə Azərbaycan Ordusunun qarşısında tab gətirməyən Ermənistan beynəlxalq hüquqa məhəl qoymamağın, təcavüzkar siyasətini davam etdirməyin və özgə torpaqlarını işğalda saxlamağın daha mümkünsüz olduğunu dərk edərək öz məğlubiyyətini etiraf etmək məcburiyyətində qalmışdır.

44 gün sürən hərbi əməliyyatları uduzmağı ilə barışan Ermənistan noyabrın 10-da Birgə Bəyanata imza ataraq işğalçı qüvvələrini Azərbaycanın ərazilərindən çıxarılması və torpaqlarımızın qısa müddətdə boşaldılması öhdəliyini üzərinə götürmüşdür. Bəyanatda həmçinin, doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın öz dədə-baba yurdlarına geri qayıtması nəzərdə tutulmuşdur.

Nazir Ermənistanın işğala son qoyaraq torpaqlarımızdan çıxmağa hazır olduğunu elan edən kimi, ölkə Prezidenti cənab İlham Əliyevin sülhün tərəfdarı olaraq hərbi əməliyyatları dərhal dayandırdığını vurğulayıb. Bununla tarixi ədalətin qələbə çalaraq BMT Təhlükəsizlik Şurasının və Avropa Şurası Parlament Assambleyasının Azərbaycanın ərazi bütövlüyünün bərpasına dair qətnamələrinin icra edildiyini qeyd edib. Böyük təəssüflə bildirib ki, buna Vətən uğrunda canlarından keçən qəhrəman şəhidlərimizin, habelə Ermənistanın bütün beynəlxalq humanitar hüquq və əxlaq normalarını kobud pozaraq davamlı və məqsədli şəkildə dinc əhalini, o cümlədən qadın və uşaqları hədəf almaqla 500 nəfərədək mülki insanın tökülən qanı bahasına nail olunub.

Müraciətdə Bəyanatın icrası çərçivəsində dekabrın 1-də işğal olunmuş sonuncu – Laçın rayonunun sülh yolu ilə, qan tökülmədən azad olunması ilə bağlı məlumat verilərək artıq müharibənin arxada qaldığı, ölkəmiz üçün yeni quruculuq, inkişaf dövrünün başlanıldığı qeyd edilib.

Diqqətə çatdırılıb ki, azad edilmiş ərazilərimizi bərpa etmək üçün nəhəng işlər görülməlidir, çünki təcavüzkar düşmən Cenevrə Konvensiyasının 1977-ci il Protokolu ilə qadağan edilməsinə baxmayaraq, işğal etdiyi torpaqlarımızı viran edərək arxasında sözün əsl mənasında "yandırılmış torpaq" qoyub, o cümlədən həmin ərazilərdə xalqımızın tarixi və mədəni irsini, demək olar ki, tamamilə məhv edib.

Lakin dünyada sülhsevər, tolerant ölkə kimi tanınan Azərbaycan dövlətinin və xalqının dağıdılmış şəhərləri, kəndləri həmrəyliklə bərpa etmək üçün əlindən gələni əsirgəməyəcəyi, bölgədə qonşuluq şəraitində dinc yaşamaq üçün yaxşı imkanların, yeni təhlükəsizlik, əməkdaşlıq formatının yaranması qeyd olunub.

Ədliyyə naziri son 30 ildə Azərbaycan xalqının, o cümlədən 750 minə yaxın məcburi köçkün vəziyyətdə yaşayan soydaşlarımızın, qarşıdan gələn Yeni ili ilk dəfə olaraq sülh şəraitində, həmçinin uzun müddət işğal altında olmuş ərazilərimizdə qarşılayacağını, bölgəmizdə bundan sonra firavanlıq və təhlükəsizliyin hökm sürəcəyinə ümidvar olduğunu vurğulayıb.




# Ermənistanın ölkəmizə qarşı işğalçılığı və müharibə cinayətləri ilə bağlı nüfuzlu beynəlxalq təşkilatlara müraciətlər

**Beynəlxalq Prokurorlar Assosiasiyası**

Beynəlxalq Prokurorlar Assosiasiyasının senatoru və fəxri üzvü kimi Azərbaycan Respublikasının ədliyyə naziri Fikrət Məmmədov həmin təşkilatın Prezidentinə, Baş Katibinə, senatorlarına və İcraiyyə Komitəsinin üzvlərinə müraciət ünvanlayıb.

Müraciətdə cinayətkarlıqda mübarizədə ön sıralarda dayanan və dünya prokurorlarını birləşdirən yeganə təşkilat olan Beynəlxalq Prokurorlar Assosiasiyasına Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təxribatları və müharibə cinayətləri barədə məlumat verilib.

Bildirilib ki, Azərbaycanın tarixi torpaqlarına ərazi iddiaları irəli sürən Ermənistan hələ 90-cı illərin əvvəllərində hərbi təcavüz törədərək Dağlıq Qarabağı və azərbaycanlıların yaşadığı ətraf yeddi rayonu işğal edib, Azərbaycan əhalisinin etnik təmizləməsini həyata keçirib. Bir milyon insan qaçqın və məcburi köçkünə çevrilib. Bu gün qaçqın problemi ilə üzləşən Avropa və dünyanın digər regionları bu humanitar fəlakətin miqyasını aydın təsəvvür edə bilirlər.



Diqqətə çatdırılıb ki, münaqişənin həlli məqsədilə yaradılmış vasitəçilik missiyası – ATƏT-in Minsk Qrupunun təşəbbüslərinə, erməni silahlı qüvvələrinin işğal altında olan ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin icrasına Ermənistan tərəfindən məhəl qoyulmayıb. Ermənistan müxtəlif bəhanələrlə davamlı olaraq münaqişənin sülh yolu ilə həllini uzadıb və ona sərf edən status-kvonu davam etdirərək özgə torpaqlarını işğal altında saxlayıb, bu ərazilərin zəngin təbii ehtiyatlarını, xüsusilə qızıl yataqlarını istismar edərək qanunsuz iqtisadi fəaliyyət göstərib. Bununla yanaşı, beynəlxalq hüquq normaları, o cümlədən 1949-cu il Cenevrə Konvensiyaları kobud şəkildə pozularaq qanunsuz məskunlaşdırma həyata keçirib.

Ermənistanın yeni rəhbərliyinin açıq işğalçılığa hesablanan şüarlarla çıxışlarına beynəlxalq ictimaiyyətin reaksiya göstərməməsi təcavüzkarın əl-qolunu daha da açıb, hərbi təxribatlarını intensivləşdirib.

Müraciətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin BMT-nin Baş Assambleyasının 75-ci sessiyasında çıxışı zamanı bu məsələləri ətraflı şəkildə və dəqiq faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırması qeyd olunub.

Bildirilib ki, cəzasızlıqdan ruhlanan Ermənistan silahlı birləşmələrinin 2020-ci il sentyabrın 27-dən yaşayış məntəqələrimizi və dinc sakinlərimizi qəsdən və məqsədyönlü şəkildə ağır artilleriya qurğularından atəşə tutması nəticəsində bu günədək




təkcə hərbçilərimiz deyil, eyni zamanda qadın, uşaq və ahıllar olmaqla 63 dinc sakin həlak olub, 290-dan çox mülki şəxs yaralanıb. Bundan əlavə, 2400-dən artıq yaşayış binası və mülki obyekt dağıdılıb və ya ciddi ziyan dəyib.

BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququna əsaslanmaqla ölkəmiz Ermənistanı sülhə məcbur etmək məqsədilə əks-hücum əməliyyatları aparmağa məcbur olub.

Doğma torpaqları uğrunda və yalnız öz ərazisində vuruşan ordumuzun uğurlu əks hücumunu görən Ermənistan tərəfi beynəlxalq hüquq normalarına əsasən istifadə olunması qadağan edilmiş kasset bombaları ilə dinc şəhər və kəndləri, hərbi əməliyyatlar aparılan yerdən 100 km-dən çox məsafədə olan, ərazisində Avropada ən iri bəndli su anbarlarından biri və enerji obyekti yerləşən Mingəçevir şəhərini, Avropanın enerji təhlükəsizliyində mühüm rolu oynayan neft kəmərlərini atəşə tutur, ekoloji fəlakət yaratmaq istəyir.

Ən dəhşətlisi isə, təmas xəttindən onlarla kilometr məsafədə yerləşən Gəncə şəhərinin insanların sıx məskunlaşdığı hissələrinin xüsusi dəqiqliyi ilə seçilən ballistik raketlərlə gecə yarı dəfələrlə atəşə tutulması olub.

Ermənistan ərazisindən endirilən bu zərbələr nəticəsində beynəlxalq humanitar hüququn pozulmasına, dinc sakinlərin həlak olmasına, habelə silahlı münaqişələr zamanı cinayət əmrlərinin verilməsinə, terrorizm faktlarına dair Azərbaycanın Baş prokurorluğu tərəfindən onlarla cinayət işi açılıb.

BMT-nin Baş katibi və Avropa İttifaqı yaşayış məntəqələrinə hücumları qınayan bəyanatlarla çıxış edərək onların tam qəbuledilməzliyini vurğulayıb, bildiriblər ki, mülki şəxslərin və obyektlərin atəşə tutulmasına son qoyulmalıdır.

Lakin beynəlxalq normalara məhəl qoymayan Ermənistan bu hərəkətlərdən daşınmır, əksinə münaqişəyə xarici ölkələrdən olan hərbi muzdluları cəlb edir, qanunsuz silah daşımaları həyata keçirir, Azərbaycana qarşı terrora çağırışlar yayır.

Müraciətdə nazir yüksək nüfuza malik olan dünya prokurorları birliyinin ədalətin bərpası, insanlıq əleyhinə cinayətlərin qarşısının alınması naminə səslərini bütün dünyaya ucaldacaqlarına, habelə beynəlxalq hüququn kobud pozulması hallarına qarşı öz səlahiyyətləri çərçivəsində tədbirlər görəcəklərinə ümidvar olduğunu bildirib.

***

Ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsi xalqımızın şanlı Qələbəsi ilə başa çatdı, müzəffər ordumuz tərəfindən erməni işğalçı qüvvələri ağır məğlubiyyətə uğradılaraq 30 ildir həsrətində olduğumuz doğma torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Rəşadətli Azərbaycan Ordusunun gücü, qüdrəti və Vətən müharibəsində şanlı zəfərləri dekabrın 10-da keçirilən hərbi paradda bütün dünyaya bir daha nümayiş olundu.

Bu şərəfli dönəmdə dövlətimizin başçısı dünyanın nüfuzlu medialarına verdiyi müsahibələrdə qəti iradəsi və diplomatik məharəti ilə Ermənistanı, həmçinin informasiya məkanında iflasa uğratdı, düşmənin yalan təbliğatını tam ifşa etdi. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqımızın ədalətli mübarizəsi naminə vətənpərvər çağırışları beynəlxalq ictimaiyyətin düşmənin təcavüzkar siyasəti və ölkəmizə qarşı törətdiyi müharibə cinayətləri barədə hərtərəfli və dolğun məlumatlandırılmasına xidmət etdi.

Dövlətimiz, xalqımız və ordumuzla həmrəylik nümayiş etdirən ədliyyə işçiləri də bu sahədə məqsədyönlü işlər apardı, nazirlik tərəfindən xarici dövlətlərin ədliyyə nazirlərinə, tərəfdaş olduğu və ya əməkdaşlıq etdiyi nüfuzlu beynəlxalq təşkilatlara Ermənistanın işğalçılığı, müharibə və insanlıq əleyhinə cinayətləri barədə real həqiqətlərlə bağlı 400-ə qədər müraciətlər ünvanlandı.

Ədliyyə naziri Fikrət Məmmədov dünya prokurorlarının yeganə ittifaqı olan Beynəlxalq Prokurorlar Assosiasiyasına (BPA) qurumun senatoru və fəxri üzvü olaraq torpaqlarımızın azad olunması ilə bağlı yeni müraciət göndərib.

BPA-nın Prezidentinə, Baş







Katibinə, senatorlarına və İcraiyyə Komitəsinin üzvlərinə ünvanlanan müraciətdə uzun illərdir beynəlxalq hüququ kobudcasına pozan, BMT Təhlükəsizlik Şurasının və digər nüfuzlu beynəlxalq təşkilatların qətnamələrinin icrasına məhəl qoymayan Ermənistanın aparılan hərbi əməliyyatlarda Azərbaycan Ordusunun gücü qarşısında tab gətirməyərək məğlubiyyəti ilə barışdığı, beynəlxalq hüquq normalarına əməl etməyin qaçılmaz olduğunu anlayaraq işğalçı qüvvələrini torpaqlarımızdan çıxarmaq məcburiyyətində qaldığı vurğulanıb.

Bildirilib ki, dövlətimizin başçısı hər zaman sülhün tərəfdarı olaraq, Ermənistanın torpaqlarımızdan çıxmağa hazır olduğunu elan edən kimi, hərbi əməliyyatları dərhal dayandırıb. Bununla tarixi ədalət qələbə çalaraq torpaqlarımız işğalçılardan təmizlənib, mühüm əhəmiyyət kəsb edən 3 rayonun – Ağdam, Kəlbəcər və Laçının siyasi yolla, qan tökülmədən qaytarılmasına nail olunub, xalqımız, o cümlədən məcburi köçkün vəziyyətinə düşmüş 750 minə yaxın soydaşımız öz dədə-baba yurdlarına qovuşub.

BPA-nın üzvlərinin diqqəti azad olmuş ərazilərimizdə təcavüzkar düşmənin törətdiyi vəhşiliklərə cəlb olunaraq torpaqlarımızın büsbütün viran edildiyi, bütün infrastrukturun darmadağın olunduğu, tarixi, mədəni və dini irsimizin məhv edildiyi, beynəlxalq hüququn qadağan etdiyi digər qanunsuz əməlləri xüsusilə qeyd olunub.

Bununla əlaqədar bölgədə insanların sülh, təhlükəsizlik və firavan qonşuluq şəraitində yaşayışının təmin edilməsi üçün Azərbaycan dövləti tərəfindən həmin ərazilərin bərpa olunması ilə bağlı nəhəng quruculuq işlərinə başlanıldığı, o cümlədən artıq Şuşaya və digər azad olunmuş ərazilərə yol çəkilişlərinin həyata keçirildiyi bildirilib, dağıdılmış şəhərlərin, kəndlərin bərpa olunaraq yenidən inkişaf edəcəyi vurğulanıb.

Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə azad olunmuş torpaqlarımızda böyük coşqu ilə bərpa-quruculuq və abadlıq işlərinə, habelə respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlanılması torpaqlarımızın dirçələcəyinə və yenidən orada həyatın tezliklə qaynayacağına qəti əminlik yaradır.

### Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası və digər nüfuzlu beynəlxalq təşkilatlar

BMT-nin dəstəyi ilə yaradılmış və dünyanın 140 dövlətini birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) vitse-prezidenti kimi Azərbaycan Respublikasının Ədliyyə naziri Fikrət Məmmədov təşkilatın üzvlərinin işğalçı Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təxribatları və müharibə cinayətləri barədə məlumatlandırılması məqsədilə Assosiasiyanın prezidenti, Qətərin Baş prokuroru Dr. Ali Al Marriyə müraciət ünvanlayıb.

Müraciətdə Ermənistanın hərbi təcavüzü nəticəsində əzəli tarixi torpağımız Dağlıq Qarabağın və ətraf yeddi rayonun işğal olunması, Azərbaycan əhalisinin etnik təmizləməyə məruz qalaraq bir milyon soydaşımızın qaçqın və məcburi köçkünə çevrilməsi qeyd edilib.

Bildirilib ki, münaqişənin ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar yolu ilə həllini müxtəlif bəhanələrlə uzadan, BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal altında olan ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinin icrasına məhəl qoymayan Ermənistan ona sərf edən status-kvonu davam etdirərək 30 ildir torpaqlarımızı işğal altında saxlayır. Bu ərazilərin zəngin təbii ehtiyatlarını istismar edərək qeyri-qanuni iqtisadi fəaliyyət göstərir, qanunsuz məskunlaşdırma həyata keçirir, tarixi, mədəni və dini abidələrimizi məhv edir, məscidlərimizdə heyvanlar, xüsusilə müsəlmanların hisslərinə toxunan donuz saxlayırlar.

Bütün bunlarla beynəlxalq hüquq normalarını, o cümlədən 1949-cu il Cenevrə Konvensiyalarını kobud şəkildə pozan Ermənistanın yeni rəhbərliyinin açıq işğalçılığa



**QARABAĞ** *bizimdir, Azərbaycandır!*



hesablanan şüarlarla çıxışlar etməsi qeyd olunaraq düşmənin hərbi təxribatlarını intensivləşdirdiyi bildirilib.

Müraciətdə bu məsələlərin BMT-nin Baş Assambleyasının 75-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən dəqiq faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırıldığı vurğulanıb.

Qeyd olunub ki, 2020-ci il sentyabrın 27-dən Ermənistan silahlı birləşmələrinin yaşayış məntəqələrimizə və dinc əhaliyə qarşı başladığı hərbi təxribatlara cavab olaraq ölkəmiz BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun olaraq özünümüdafiə hüququna əsaslanmaqla işğalçını sülhə məcbur etmək məqsədilə əks-hücum əməliyyatları həyata keçirir.

Doğma torpaqları uğrunda və yalnız öz ərazisində heç bir kənar dəstək olmadan öz gücü ilə vuruşan ordumuzun uğurlu əks hücumunu görən Ermənistan tərəfinin qəsdən və məqsədyönlü şəkildə ağır artilleriya qurğularından, xüsusilə beynəlxalq hüquq normalarına əsasən istifadə olunması qadağan edilmiş kasset bombaları ilə hərbi əməliyyatlar aparılan yerdən onlarla, yüzlərlə kilometr aralıda yerləşən insanların sıx məskunlaşdığı Gəncə, digər dinc şəhər və rayonlarımızı, o cümlədən oktyabrın 28-də Bərdəni dəfələrlə atəşə tutduğu, nəticədə 21 nəfərin həlak olduğu, 70 insanın isə yaralandığı diqqətə çatdırılıb. Bütövlükdə isə, bu günədək təkcə hərbçilərimiz deyil, eyni zamanda qadın, uşaq və ahıllar olmaqla 94 dinc sakinin həlak olduğu, 380-dən çox mülki şəxsin yaralandığı, 2.700-dən artıq yaşayış binasının və mülki obyektin dağıdıldığı və ya ciddi ziyan dəydiyi qeyd olunub.

Razılaşdırılmış humanitar atəşkəs rejiminə dəfələrlə məhəl qoymayan Ermənistanın qeyri-insani siyasətindən əl çəkmədiyi, dinc əhaliyə və mülki infrastruktura hədəflənən təxribatlarını davam etdirdiyi, həlak olanların və sayının artdığı vurğulanıb.

Müraciətdə Gəncəyə səfər etmiş Qətərin Azərbaycandakı səfirinin dinc insanlara qarşı törədilmiş müharibə cinayətlərini pislədiyi, Qətərin ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə dəstəyi minnətdarlıqla qeyd edilib.

Bundan əlavə, münaqişəyə xarici ölkələrdən olan hərbi muzdluları cəlb edən Ermənistan tərəfindən, həmçinin Çikaqo Konvensiyasının tələbləri pozularaq humanitar yardım adı altında mülki aviasiya vasitəsilə Ermənistana silahların daşınması vurğulanıb, bununla əlaqədar Azərbaycan tərəfindən Beynəlxalq Mülki Aviasiya Təşkilatına müraciət olunduğu barədə məlumat verilib.

Qeyd olunub ki, Azərbaycan döyüş meydanında açıq üstünlüyə malik olmasına baxmayaraq, insanların həyatını qorumaq naminə qan tökülməsini istəmir və razılaşdırılmış prinsiplər çərçivəsində sülh danışıqlarının aparılmasının tərəfdarıdır.

Nazir beynəlxalq nüfuza malik olan peşəkar hüquqşünas və prokuror kimi müharibə cinayətlərinin qarşısının alınması naminə öz səylərini əsirgəməyəcinə, IAACA-da təmsil olunan çoxsaylı dövlətlərin mötəbər nümayəndələrinin səslərini bütün dünyaya ucaldacaqlarına ümidvar olduğunu bildirib.

Ədliyyə Nazirliyi tərəfindən həmçinin, birgə layihələr həyata keçirilən BMT-nin Uşaq Fonduna (UNICEF) müraciət ünvanlanaraq Ermənistanın müharibə cinayətləri, mülki insanların hədəfə alınması, 11-i uşaq olmaqla onlarla dinc







vətəndaşların həlak olması, bəzi uşaqların hər iki valideynini itirməsi barədə məlumat verilib, habelə ordudan kütləvi fərarilik halları ilə üzləşən düşmənin çıxılmaz vəziyyətdə olması görüntüsünü yaratmaq niyyəti ilə döyüş əməliyyatlarına hətta uşaqları cəlb etməsi faktları diqqətə çatdırılıb. Bununla da Ermənistanın beynəlxalq humanitar hüququn, xüsusilə BMT-nin Uşaq hüquqları haqqında Konvensiyasının tələblərini kobud surətdə pozduğu vurğulanıb.

Eyni zamanda BMT-nin digər ixtisaslaşmış qurumu və fəal tərəfdaşımız olan Dünya Bankına müraciət göndərilib. Bildirilib ki, respublikamızın dinc əhalisi və mülki obyektləri dəfələrlə Ermənistanın terror və hərbi təxribatlarına məruz qalır, o cümlədən məhkəmə infrastrukturunun müasirləşdirilməsinə dair birgə layihə həyata keçirdiyimiz Gəncə və digər yaşayış bölgələrimizə raket zərbələri endirilib, məhkəmə binalarına ciddi ziyan dəyib.

Bundan əlavə, nazirliyin sıx əməkdaşlıq etdiyi, dünyadakı yüksək nüfuzu və həyata keçirdiyi nəcib missiya nəzərə alınaraq Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) və qurumun Avropa Regional Bürosuna, Qlobal Fonda (səhiyyə üzrə) müraciətlər olunub və onların qeyd olunan məsələlərdə laqeyd qalmayacaqlarına, insanların həyatını və sağlamlığını qorumaq naminə qan tökülməsini dayandırmaq və sülhü bərpa etmək üçün səslərini ucaldacaqlarına ümidvar olduğu bildirilib.

Nazirlik tərəfindən analoji müraciətlər, uzun illər əməkdaşlıq edilən Almaniyanın Beynəlxalq Əməkdaşlıq Təşkilatına (GIZ) və Beynəlxalq Hüquq Əməkdaşlığı Fonduna (IRZ) da ünvanlanıb.

### Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi

Ədliyyə naziri Fikrət Məmmədov nazirliyin sıx əməkdaşlıq etdiyi Avropa məkanında yerli özünüidarə orqanlarına məsul nüfuzlu qurum olan Avropa Yerli və Regional Hakimiyyətlər Konqresinin prezidentinə və baş katibinə Ermənistanın ölkəmizə qarşı hərbi təxribatları, xüsusilə dinc əhaliyə hədəflənən müharibə cinayətləri ilə bağlı müraciət ünvanlayıb.

Müraciətdə dünya ictimaiyyətinin diqqətinin yönəldiyi 30 ildir davam edən Ermənistan-Azərbaycan hərbi münaqişəsinin acı nəticələri, əzəli tarixi torpağımız olan Dağlıq Qarabağın və ətraf yeddi rayonun işğal olunaraq etnik təmizləməyə məruz qalan azərbaycanlıların öz dədə-baba yurdlarından didərgin salınması, bununla da ermənilərin işğal altında saxladıqları ərazilərimizdə bələdiyyə institutunun yaradılmasının qeyri-mümkünlüyü və məcburi köçkün düşmüş soydaşlarımızın uzun illərdir yerli özünüidarə hüququndan tamamilə məhrum olunduğu barədə məlumat verilib.

Ermənistanın münaqişənin ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar yolu ilə həllini dəfələrlə müxtəlif bəhanələrlə uzatması, silahlı qüvvələrini işğal altında olan ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin icrasına məhəl qoymaması, ona sərf edən status-kvonu davam etdirərək işğal altındakı ərazilərin zəngin təbii ehtiyatlarını istismar etməsi və qeyri-qanuni iqtisadi fəaliyyət göstərməsi, qanunsuz məskunlaşdırma həyata keçirməsi diqqətə çatdırılıb.

Bildirilib ki, bununla da beynəlxalq hüquq normalarını, o cümlədən 1949-cu il Cenevrə Konvensiyalarını kobud şəkildə pozan Ermənistanın yeni rəhbərliyinin açıq işğalçılığa hesablanan şüarlarla çıxışlar etməsi və beynəlxalq ictimaiyyətin buna səssiz qalması təcavüzkarı hərbi təxribatları daha da intensivləşdirməyə ruhlandırıb.

Bütün bunlar barədə Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının 75-ci sessiyasında çıxışı zamanı tutarlı faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırıldığı vurğulanıb.

Müraciətdə Ermənistan silahlı birləşmələrinin yaşayış məntəqələrimizə və dinc əhaliyə qarşı başladığı hərbi təxri-



QARABAĞ bizimdir, Azərbaycandır!



batlara cavab olaraq Azərbaycanın BMT Nizamnaməsinin 51-ci maddəsinə uyğun özünümüdafiə hüququna əsaslanmaqla işğalçını sülhə məcbur etmək məqsədilə əks-hücum əməliyyatları həyata keçirdiyi, doğma torpaqları uğrunda və yalnız öz ərazisində heç bir kənar dəstək olmadan öz gücü ilə vuruşduğu qeyd olunub.

Cəzasızlıqdan azğınlaşan Ermənistanın hərbi mövqelərimizi, xüsusilə qəsdən ağır artilleriya qurğularından yaşayış məntəqələrimizi və mülki əhalimizi atəşə tutması nəticəsində bu günədək təkcə hərbçilərimiz deyil, eyni zamanda 11-i uşaq olmaqla 91 mülki şəxsin həlak olduğu və 400-dən çox insanın yaralandığı qeyd edilib, doğum xəstəxanası, uşaq bağçaları, məktəblər, rayon məhkəməsi binası və s. daxil olmaqla 3.000-ə yaxın yaşayış binasının və mülki obyektlərin məhv edildiyi və ya ciddi ziyan gördüyü, həmçinin Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan neft kəmərlərinin atəşə tutulduğu diqqətə çatdırılıb.

Düşmənin mülki əhalimizə qarşı törətdiyi qeyri-insani əməllərinin təzahürü olaraq döyüş meydanından xeyli aralıda yerləşən əhalinin sıx məskunlaşdığı Gəncə və Bərdə şəhərlərinin beynəlxalq hüququn qadağan etdiyi kasset bombaları və ballistik raketlərlə atəş tutulduğu, nəticədə 47 nəfərin həlak olduğu, 200-dən çox insanın yaralandığı vurğulanıb.

Ədliyyə Nazirliyi tərəfindən bələdiyyələrin fəaliyyətinə məsul qurum kimi Konqresə məlumat verilib ki, ölən və xəsarət alanlar sırasında, həmçinin biri qadın olmaqla bələdiyyə sədrləri də var və 3 bələdiyyə binasına ciddi ziyan dəyib, bələdiyyələrin 30-dan çox üzvünün və qulluqçusunun əmlakına zərər vurulub.

Diqqətə çatdırılıb ki, hətta erməni terroruna məruz qalan şəhərləri ziyarət edən diplomatik korpus üzvləri də artilleriya atəşinə tutulub. Düşmənin həyata keçirdiyi namərd hücumlar razılaşdırılmış humanitar atəşkəs rejimi şəraitində həyata keçirilib.

BMT-nin Baş katibi və Avropa İttifaqı əhalinin yaşadığı bölgələrə edilən hücumları qınayan və onların qətiliklə qəbuledilməz olduğunu qeyd edən, mülki şəxslərin və obyektlərin atəşə tutulmasına son qoyulmasını tələb edən bəyanatlarla çıxış ediblər.

Lakin beynəlxalq normalara və çağırışlara məhəl qoymayan Ermənistan mülki əhaliyə hədəflərini dayandırmır və hazırda Azərbaycanın bir çox şəhərlərinə bu cür raket hücumlarının davam etməsi ilə ölən və yaralanan mülki şəxslərin sayı artmaqdadır.

Eyni zamanda, düşmən raket zərbələrini öz ölkəsinin ərazisindən endirməklə münaqişənin coğrafiyasını genişləndirmək və döyüş əməliyyatlarına üçüncü ölkələri cəlb etmək məqsədini güdür.

Müraciətdə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və ATƏT, Avropa Şurası, Avropa Parlamenti və Qoşulmama Hərəkatı kimi aparıcı beynəlxalq təşkilatların digər oxşar qərarlarının təxirəsalınmadan dərhal icra edilməsinin və ədalətin bərpa edilməsi üçün beynəlxalq hüququn tam gücünü tətbiq etməsinin zəruriliyi diqqətə çatdırılıb.

Bildirilib ki, ölkə Prezidenti cənab İlham Əliyevin bəyan etdiyi kimi, Azərbaycan döyüş meydanında açıq üstünlüyə malik olmasına baxmayaraq, insanların həyatını xilas etmək naminə qan tökülməsini istəmir və münaqişənin siyasi yolla həlli üçün sülh danışıqlarının aparılmasının tərəfdarıdır.

Ədliyyə naziri Yerli və Regional Hakimiyyətlər Konqresinin yüksək nüfuzunu, geniş coğrafiyasını və təmsilçiliyini nəzərə alaraq ədaləti, sülhü və əmin-amanlığı bərpa etmək, insanlıq əleyhinə və müharibə cinayətlərinin qarşısını almaq üçün səsini ucaldacağına ümidvar olduğunu bildirib.

Nazirlik tərəfindən həmçinin, Ermənistanın işğalçılığı ilə bağlı əsl həqiqətləri dünyanın daha geniş ictimaiyyətinin diqqətinə çatdırmaq məqsədilə 150 mindən çox yerli və regional hakimiyyətlərin təmsil olunduğu Konqresin rəhbər orqanları olan Palatalarının sədrlərinə və Avropa Şurasının 45 üzv dövlətini təmsil edən nümayəndə heyətlərinin rəhbərlərinə analoji müraciətlər göndərilib.




# Ədliyyə naziri Avropa Şurasının konfransında Ermənistanın ölkəmizə qarşı müharibə cinayətlərini ifşa edib




1. Yunanıstanın ədliyyə naziri Konstantinos Tsiaras
2. Avropa Şurasının Baş katibi Mariya Buriç
3. Avropa Şurası Parlament Assambleyasının sədri Rik Daems
4. İnsan hüquqları üzrə Avropa Məhkəməsinin sədri Robert Spano

**Noyabrın 9-da Yunanıstanın Avropa Şurası (AŞ) Nazirlər Komitəsində sədrliyi çərçivəsində üzv dövlətlərin ədliyyə nazirlərinin "Ədliyyənin müstəqilliyi və qanunun aliliyi" mövzusunda videoformatda konfransı keçirilib.**

Tədbirin açılışında AŞ-nın Baş katibi, Avropa İttifaqının ədliyyə komissarı, AŞ Parlament Assambleyası, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi, Venesiya Komissiyası, Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyası (CEPEJ) və Avropa Hakimlərinin Məşvərət Şurasının (CCJE) rəhbərləri tərəfindən çıxış edilərək COVID-19 qlobal pandemiyasının qanunun aliliyinə və ədalət mühakiməsinə təsirindən danışılıb.

Konfransın birinci sessiyasında ilk məruzə ilə çıxış edən Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə ölkəmizdə pandemiyanın qarşısının alınması üzrə görülən qəti tədbirləri vurğulayıb.

Bildirib ki, pandemiya İKT-lərin geniş tətbiqini və fəaliyyətin onlayn rejimə keçməsini stimullaşdırıb. Bu baxımdan "Elektron məhkəmə" informasiya sisteminin və onun mobil proqram təminatının tətbiqi karantin dövründə məhkəmələrə onlayn qaydada müraciət etmək, məhkəmə proseslərinin videoformatda keçirilməsi imkanlarını xeyli asanlaşdırıb, bu sahədə qanunvericilik təkmilləşdirilib.

Nazir koronavirus infeksiyasına yoluxma riski yüksək olan penitensiar sistemdə görülən tədbirlərə toxunaraq pandemiya dövründə respublika Prezidenti tərəfindən humanist siyasətinin təzahürü olaraq yaşı 65-dən yuxarı məhkumların əksəriyyətinin əfv olunduğunu, həbsə alternativ qətimkan tədbirlərinin və azadlıqdan məhrumetməyə alternativ cəzaların tətbiqinin genişləndiyini, cəza siyasətinin humanistləşdirilərək yüzlərlə məhkumun müxtəlif cəzalardan azad edildiyini diqqətə çatdırıb.




Bununla yanaşı, sərhədlərin bağlı olduğu pandemiya şəraitində hüquqi sahədə, o cümlədən ekstradisiya üzrə səmərəli əməkdaşlığı qeyd edərək, bu işdə qardaş Türkiyənin ədliyyə nazirinə təşəkkürünü ifadə edib.

Çıxışın əsas hissəsi Ermənistanın-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə həsr olunaraq bildirilib ki, Ermənistan 30 ildir BMT Təhlükəsizlik Şurasının və tədbirdə sədrinin iştirak etdiyi AŞPA-nın qətnamələrinə məhəl qoymayaraq işğalda saxladığı torpaqlarımızı azad etməyib, danışıqlar prosesini qəsdən tamamilə pozaraq işğalçılığa hesablanan şüarlarla çıxışlar etməklə hərbi təxribatlara keçib.

Buna cavab olaraq Azərbaycanın BMT Nizamnaməsinə uyğun özünümüdafiə hüququna əsaslanmaqla işğalçını sülhə məcbur etmək məqsədilə heç bir kənar dəstək olmadan əks-hücum əməliyyatları həyata keçirdiyi bildirilib.

Avropa ədliyyə nazirlərinin və AŞ rəhbərliyinin diqqətinə çatdırılıb ki, Ermənistan beynəlxalq humanitar hüquq normalarını kobud surətdə pozaraq dinc əhalini məqsədyönlü şəkildə atəşə tutub və bu zaman qadağan olunmuş kassetli və fosforlu bombalardan, ballistik raketlərdən istifadə edib. Nəticədə uşaqlar və qadınlar daxil olmaqla 100-ə yaxın mülki vətəndaşların həlak olduğu, 400-dən çox insanın yaralandığı bildirilib.

Bütün bunlar insanlıq əleyhinə və müharibə cinayətləridir və bununla bağlı Ermənistan tərəfi beynəlxalq müstəvidə məsuliyyətə cəlb olunaraq cavab verməli və beynəlxalq qurumlar bu məsələdə ədalət naminə prinsipiallıq göstərməlidirlər.

Ədliyyə naziri onu da əlavə edib ki, döyüş meydanında tamamilə məğlub olmasına baxmayaraq Ermənistan öz vətəndaşlarını bilə-bilə, nahaqdan ölümə göndərir.

Ali Baş Komandanın rəhbərliyi ilə qələbə çalan Azərbaycan isə mənasız yerə qan tökülməsin deyə ümidvardır ki, Ermənistan reallıqla barışaraq işğal etdikləri qalan ərazilərimizi siyasi yolla ölkəmizə geri qaytaracaqdır.

# Türkiyənin ədliyyə nazirindən xalqımıza dəstək

**Sentyabrın 30-da Türkiyə Respublikasının ədliyyə naziri Abdulhamit Gülün təşəbbüsü ilə Türkiyə və Azərbaycan ədliyyə nazirləri arasında telefon danışığı olub.**



Danışıq zamanı A.Gül dost və qardaş Azərbaycana qarşı Ermənistanın törətdiyi hərbi təxribatı qınadığını, bu təxribatlar qarşısında Türkiyənin ölkəmizin və xalqımızın haqq davasında yanında olduğunu, Azərbaycanın beynəlxalq hüquqdan qaynaqlanan haqlarının hər platformada yorulmaz dəstəkçisi və müdafiəçisi olduğunu vurğulayıb.

Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov Türkiyə dövlətinin, Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla bütün türk xalqının qətiyyətli qardaşlıq mövqeyini vurğulayaraq Azərbaycanı birmənalı dəstəklədiyinə görə türkiyəli həmkarına dərin təşəkkürünü bildirib, bu dəstəyin "bir millət, iki dövlət" kəlamının yalnız sözdə deyil, real əməllərlə həyata keçirilməsinin əyani təzahürü olduğunu qeyd edib.



**QARABAĞ** *bizimdir, Azərbaycandır!*



Bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən bəyan olunduğu kimi, Türkiyə bizim üçün təkcə dost yox, qardaş ölkədir və xalqımız üçün həqiqət anı olan bu günlərdə Türkiyə, hər zaman olduğu kimi, Azərbaycanın yanındadır.

Söhbət zamanı həmçinin, ölkələrimiz arasında hüquqi sahədə əlaqələrin yüksək səviyyəsindən məmnunluq ifadə olunaraq, səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirilib.

**Noyabrın 13-də Türkiyə Respublikasının ədliyyə naziri Abdulhamit Gül və Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov arasında telefon danışığı olub.**

Danışıq zamanı A.Gül dost və qardaş Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə nəticələnən şanlı Qələbə münasibətilə təbrik edib, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin haqq davasında zəfər calması ilə bağlı sevincini bölüşüb. Türkiyəli nazir xalqlarımızın və dövlətlərimizin hər zaman bir-birinin yanında olduğunu qeyd edərək bundan sonra da dəstəyini əsirgəməyəciyini vurğulayıb.

Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov təbrikə görə təşəkkürünü bildirib, müharibənin ilk günündən qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan başda olmaqla bütün türk xalqının Azərbaycanın yanında olduğunu qeyd edib, bu ərəfədə yüksək səviyyəli şəxslərin ölkəmizə dəstəkverici səfərlərini xüsusilə vurğulayıb.

F.Məmmədov həmkarının səmimi dəstəyinə, o cümlədən tvitter hesabı ilə ürək sözlərinə görə minnətdarlığını ifadə edib, Türkiyə-Rusiya birgə atəşkəsə nəzarət mərkəzinin fəaliyyətinin önəmli addım olduğunu bildirib.

Söhbət zamanı nazir, həmcinin oktyabrın 30-da Türkiyənin İzmir vilayətində baş vermiş və coxsaylı insan tələfatı ilə nəticələnən zəlzələ ilə bağlı bir daha kədərini ifadə edib, həlak olanlarla bağlı başsağlığı verib.

Bildirilib ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu əbədidir və hərtərəfli əməkdaşlığımız bundan sonra da uğurla davam etdiriləcəkdir.

# Türkiyənin baş ombudsmanı ilə görüş və "Qarabağ Azərbaycandır!" elektron məlumat platformasının təqdimatı

**Oktyabrın 23-də ədliyyə naziri Fikrət Məmmədov ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının Baş Ombudsmanı Şərəf Malkoç və rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Tarixən qədim köklərə malik iki dost və qardaş Azərbaycan-Türkiyə əlaqələrinin ən yüksək səviyyədə olduğunu qeyd edən nazir müttəfiq münasibətlərimizin möhkəmlənməsində Prezident cənab İlham Əliyevin və Prezident cənab Rəcəb Tayyib Ərdoğanın müstəsna xidmətlərini vurğulayıb.

Bildirib ki, Azərbaycan-Türkiyə qədər dünyada bir-birinə yaxın olan, bir-birini daim dəstəkləyən ikinci ölkə yoxdur. İşğalçı Ermənistanın ölkəmizə qarşı hərbi təxribatlara başladığı andan Türkiyə Prezidenti başda olmaqla türk xalqı Azərbaycanın yanındadır, ilk gündən qardaş ölkənin bütün yüksək rəsmi şəxsləri Azərbaycana birmənalı dəstəyini ifadə ediblər.

Nazir türkiyəli həmkarı Abdulhamit Gülün xalqımız üçün həqiqət anı olan bu günlərdə yanımızda olduğunu, onunla telefon danışığını, rəsmi

müraciət ünvanlanmasını, tvitter hesabı ilə öz dəstəyini bildirməsini minnətdarlıqla qeyd edib. İki ölkənin Ədliyyə nazirlikləri arasında uğurlu əməkdaşlığı, o cümlədən azərbaycanlı hakimlərin tədrisində qardaş ölkənin dəstəyini və digər birgə tədbirlərin səmərəsini vurğulayıb.

Həmçinin, Türkiyənin nüfuzlu media nümayəndələri tərəfindən düşmənin hərbi təxribatlarının və müharibə cinayətlərinin işıqlandırılmasının, dövlətimizin başçısının həmin KİV-lərə müsahibələrinin Azərbaycan həqiqətlərinin dünyaya geniş və dolğun çatdırılması baxımından əhəmiyyətini qeyd edib.

Qonaq Azərbaycan torpaqlarının 30 ildir işğal altında olduğunu, bir milyon insanın demək olar ki, həyatının yarısınadək öz doğma torpaqlarından didərgin düşdüyünü, münaqişə ilə bağlı beynəlxalq təşkilatların qərarlarının icrasız qaldığını bildirib. Qeyd edib ki, işğala son qoyulmalıdır. O, Türkiyə xalqının, hər bir vətəndaşının ürəyinin Azərbaycanla döyündüyünü, ölkəmizin haqlı mövqedə olduğunu vurğulayıb.

Ş.Malkoç səfər zamanı Gəncədə törədilmiş hərbi təxribatların nəticələrinin şahidi olduğunu söyləyərək Ermənistan tərəfindən dinc insanların bombalanmasını pisləyib, onların törətdikləri müharibə cinayətləri ilə bağlı dünya ictimaiyyətinin məlumatlandırılması üçün tədbir görəcəklərini vurğulayıb.



Ədliyyə Nazirliyi tərəfindən yaradılmış "Qarabağ Azərbaycandır!" elektron məlumat platformasının (http://www.justice.gov.az/categories/1148) istifadəyə verilməsi görüşə təsadüf etdiyindən tədbirdə onun təqdimatı keçirilib.

Üç dildə (Azərbaycan, ingilis və rus) olan və daim yenilənən platformada ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan xalqına müraciətləri, Ermənistanın işğalçılıq siyasəti, Azərbaycanın dinc əhalisinə qarşı yönələn müharibə cinayətləri ilə bağlı dünyanın nüfuzlu kütləvi informasiya vasitələrinə müsahibələri, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın sosial şəbəkələrdə müraciətləri və mediada çıxışları,




“Qarabağ Azərbaycandır!” elektron məlumat platforması



QARABAĞ bizimdir, Azərbaycandır!



Azərbaycan Ordusunun işğaldan azad etdikləri ərazilərimiz barədə rəsmi xəbərlər, həmin torpaqlarda Azərbaycan Bayrağının ucaldılması mərasimlərinə dair video-materiallar, əzəli torpağımız olan Qarabağ və ətraf yeddi rayonun tarixi, mədəni və dini abidələrinə dair fotoqalereya yerləşdirilib.

Daha geniş oxucu kütləsi üçün platformanın digər saytlara inteqrasiyası təmin olunub.

Tədbirdə maraqla qarşılanan platformanın Azərbaycan həqiqətlərinin təbliğində və geniş yayılmasında mühüm vasitə olduğu vurğulanıb.

Görüşdə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva iştirak edib.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanışı olub.

# Xarici ölkələrin Azərbaycandakı səfirləri Ermənistanın müharibə cinayətləri barədə məlumatlandırılıb

## İranın ölkəmizdəki səfiri ilə görüş

Oktyabrın 15-də Ədliyyə naziri Fikrət Məmmədov İran İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş səfiri Seyid Abbas Musəvini onun xahişi ilə qəbul edib.

Görüşdə Azərbaycan və İran arasında dostluq və səmərəli əməkdaşlıq münasibətlərinin inkişafı, bu əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin və Prezident Həsən Ruhaninin xüsusi rolu, dövlət başçılarının müntəzəm qarşılıqlı səfərləri vurğulanıb, zəngin müqavilə bazasına söykənən əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi, hüquqi sahədə uğurla inkişaf etməsi qeyd olunub.

Ədliyyə naziri işğalçı Ermənistan tərəfindən Azərbaycana qarşı törədilmiş hərbi təxribatlar barədə səfirə ətraflı məlumat verib, xüsusilə dinc əhalinin və mülki obyektlərin, insanların sıx yaşadığı şəhər və rayonlarımızın, o cümlədən təmas xəttindən xeyli aralıda yerləşən Gəncə və Mingəçevir kimi böyük şəhərlərimizin qəsdən və məqsədyönlü şəkildə ağır artilleriya atəşinə tutulduğunu vurğulayıb, nəticədə 43 dinc sakinin həlak olduğunu, 214 nəfərin yaralandığını və 1850 mülki obyektin, o cümlədən yaşayış evlərinin və çoxmənzilli binaların yararsız vəziyyətə düşdüyünü diqqətə çatdırıb.



Eyni zamanda, razılaşdırılmış humanitar atəşkəs rejiminə baxmayaraq Ermənistanın törətdiyi müharibə cinayətləri ilə beynəlxalq humanitar hüquq norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyalarını kobud surətdə pozduğu vurğulanıb, işğalçı dövlətin hazırkı rəhbərliyinin açıq-aşkar müharibəyə təhrik edən bəyanatlarına beynəlxalq ictimaiyyətin reaksiya verməməsinin təəssüf doğurduğu bildirilib.

Nazir həmçinin, düşmənin Çikaqo Konvensiyasının tələblərini pozaraq humanitar yardım adı altında mülki aviasiya vasitəsilə Ermənistana silahların daşınması ilə əlaqədar Azərbaycan tərəfindən Beynəlxalq Mülki Aviasiya Təşkilatına müraciət olunduğu




barədə məlumat verib.

Səfir Seyid Abbas Musəvi İran İslam Respublikasının Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini, son hadisələrdə ölkəsinin Azərbaycan dövlətinin və xalqının yanında olduğunu vurğulayıb, işğala son qoyulması ilə bağlı Azərbaycanın haqlı iradəsini qeyd edib, münaqişənin tezliklə danışıqlar yolu ilə həll ediləcəyinə ümidvar olduğunu söyləyib. O, həmçinin Gəncədə baş vermiş son təxribatlar barədə məlumatlı olduğunu bildirib, mülki əhalinin atəşə tutulmasının müharibə cinayəti olduğunu qeyd edib və dinc insanların həlak olmasından təəssüfləndiyini söyləyib.

Qonaq Ermənistana silah-sursatın tranzitinin qarşısının alınması üzrə qətiyyətli tədbirlərin görüldüyünü vurğulayıb. Azərbaycan Ədliyyə nazirinin Ermənistanın hərbi təxribatları ilə bağlı rəsmi müraciətinin iranlı həmkarına təqdim olunduğunu bildirib və onun salamlarını çatdırıb.

F.Məmmədov İranın ölkəmizin haqlı mövqeyini dəstəklədiyinə görə minnətdarlığını ifadə edib, S.A.Musəviyə uğurlu fəaliyyət arzulayıb, İranın Ədliyyə nazirinə salamlarını çatdırmağı xahiş edib.

Söhbət zamanı iki ölkə arasında ədliyyə sahəsində əməkdaşlığın perspektivlərinə toxunulub, hüquqi yardım, məhkumların verilməsi və digər məsələlər ətrafında faydalı fikir mübadiləsi aparılıb.

## Almaniyanın ölkəmizdəki səfiri ilə görüş



Oktyabrın 19-da Ədliyyə naziri Fikrət Məmmədov Almaniya Federativ Respublikasının ölkəmizdəki səfiri Volfqanq Maniqi onun xahişi ilə qəbul edib.

Azərbaycan və Almaniya arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə inkişafını qeyd edən nazir ölkələrimizin Ədliyyə nazirliklərinin səmərəli qarşılıqlı fəaliyyətini, o cümlədən hüquqi sahədə Almaniyanın Beynəlxalq Əməkdaşlıq Təşkilatı (GİZ) və Beynəlxalq Hüquq Əməkdaşlığı Fondu (İRZ) ilə sıx əlaqələri vurğulayıb.

Nazir ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən və beynəlxalq aləmdə təqdir olunan məhkəmə-hüquq islahatlarından danışıb, bu sahədə alman ekspertlərinin iştirakını qeyd edib.

Görüşdə səfir Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, xüsusilə son vaxtlar dinc əhaliyə qarşı törətdiyi müharibə cinayətləri barədə məlumatlandırılıb.

Bildirilib ki, razılaşdırılmış humanitar atəşkəs rejiminə əməl etməyən Ermənistan tərəfindən insanların sıx yaşadığı şəhər və rayonlarımız ağır artilleriya atəşinə məruz qalıb, təmas xəttindən on kilometrlərlə uzaqda yerləşən Gəncə şəhərinə endirilmiş raket zərbələri nəticəsində qadınlar və uşaqlar olmaqla 25 nəfər həlak olub, 120-dən çox insan yaralanıb. Bütövlükdə isə 61 dinc vətəndaş vəfat edib, 282 nəfər xəsarət alıb, 2200 mülki infrastruktur obyektləri yararsız vəziyyətə düşüb. Ermənistan törətdiyi bu müharibə cinayətləri ilə beynəlxalq humanitar hüquq normalarını, 1949-cu il

Cenevrə Konvensiyalarını kobud surətdə pozur.

Həmçinin qeyd olunub ki, işğal altındakı ərazilərimizdə qeyri-qanuni iqtisadi fəaliyyəti, Azərbaycana aid tarixi, mədəni və digər abidələrin dağıdılması və ya adlarının saxtalaşdırılması, qanunsuz məskunlaşdırma siyasətini həyata keçirən və bununla da torpaqlarımızı qaytarmaqda niyyətinin olmadığını göstərən Ermənistan rəhbərliyi açıq-aşkar müharibəyə təhrik edən bəyanatları ilə çıxış edərək danışıqlar prosesini tam pozmuşdur.

Bütün bunların ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən BMT Baş Assambleyasının 75-ci sessiyasında dünya ictimaiyyətinin diqqətinə çatdırıldığı vurğulanıb.

Eyni zamanda, Almaniya Bundestaqı deputatlarının qanunsuz olaraq işğal altındakı torpaqlarımıza səfərinin təəssüf doğurduğu bildirilib, səfir V.Maniq həmin deputatların ölkəsinin məhkəmə qərarlarına əsasən faşist mövqeyi ilə seçilən radikal partiya təmsilçiləri olduqlarını söyləyib, Federal Hökumətin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini vurğulayıb.

O, son hadisələrlə bağlı dəqiq və dolğun məlumatlara görə təşəkkürünü ifadə edib, Azərbaycan həqiqətlərinin ölkəsində daha geniş təbliğ olunmasının əhəmiyyətini qeyd edib. Qonaq Azərbaycanın dostu olduğunu bildirərək, ölkəmizin tolerantlığını vurğulayıb, ikitərəfli əlaqələrin genişləndirilməsinə hazır olduğunu diqqətə çatdırıb, bildirib ki, Almaniyanın Avropa İttifaqında bu yaxınlarda edəcək sədrliyi əməkdaşlıq üçün əlavə imkan yaradacaqdır. Səfir, həmçinin Ədliyyə Nazirliyi ilə sıx əlaqələri yüksək qiymətləndirib.

Söhbət zamanı iki ölkə arasında ədliyyə sahəsində qarşılıqlı fəaliyyətin perspektivlərinə toxunulub, hüquqi yardım, ekstradisiya və digər əməkdaşlıq edilə bilən yeni sahələrlə bağlı faydalı fikir mübadiləsi aparılıb.

## Özbəkistanın ölkəmizdəki səfiri ilə görüş



Oktyabrın 22-də Ədliyyə naziri Fikrət Məmmədov Özbəkistanın ölkəmizdə yeni təyin olunmuş səfiri Bahrom Aşrafxanovla görüşüb.

Görüşdə Azərbaycan və Özbəkistan arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olunub, bu əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin və Prezident Şavkat Mirziyoyevin xüsusi rolu vurğulanıb. Əməkdaşlığımızın müxtəlif istiqamətlərdə, o cümlədən ədliyyə sahəsində səmərəli həyata keçirildiyi bildirilib.

Səfir ölkələrimizin həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq etdiyini qeyd edərək diplomatik fəaliyyəti dövründə əlaqələrin genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini söyləyib.

Söhbət zamanı işğalçı Ermənistanın ölkəmizə qarşı hərbi təxribatlarından, xüsusilə dinc əhaliyə yönələn müharibə cinayətlərindən danışılıb.

Ədliyyə naziri düşmənin döyüş bölgəsindən aralıda yerləşən insanların sıx yaşadığı Gəncə və Mingəçevir şəhərlərini, həmçinin səhər saatlarında hərbi əməliyyatlar aparılan yerdən 100 kilometr-







lərlə uzaqda olan Siyəzən, Qəbələ və Kürdəmir rayonlarını ballistik raketlərlə atəşə tutduğunu qeyd edərək Ermənistanın təcavüzkar siyasətindən əl çəkmədiyini, dinc əhaliyə və mülki infrastruktura hədəflənən təxribatlarını davam etdirdiyini vurğulayıb.

Səfir Ermənistanın raket hücumlarına məruz qalan Gəncə şəhərinə səfərlər edərək dinc əhaliyə qarşı törədilmiş müharibə cinayətlərinin dəhşətlərini və heç bir məntiqə sığmadığını vurğulayıb, həlak olanlara görə başsağlığı verib, xəsarət alanlara şəfa diləyib.

B.Aşrafxanov Özbəkistanın ilk günlərdən bəyanatlarla çıxış edərək Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə şərtsiz riayət etməklə BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun tez bir zamanda həll olunması ilə bağlı prinsipial mövqe nümayiş etdirdiyini vurğulayıb.

F.Məmmədov səfirə ölkəsinin dəstəyinə görə minnətdarlığını ifadə edib, düşmənin işğalçılıq siyasəti və müharibə cinayətləri ilə bağlı 80 dövləti təmsil edən xarici həmkarlarına və prokurorlara müraciətlər ünvanladığını söyləyərək Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə dəqiq və dolğun çatdırılmasında diplomatik korpusun da mühüm rolunu vurğulayıb.

Qonaq Azərbaycan Ədliyyə nazirinin Ermənistanın hərbi təxribatları ilə bağlı rəsmi müraciətini özbəkistanlı həmkarının artıq aldığını və Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini çatdırıb, həmçinin ölkəsinin ədliyyə nazirinin əlaqələrin dərinləşdirilməsində maraqlı olduğunu bildirib. Azərbaycanın ədliyyə sahəsində nailiyyətlərindən ölkəsində aparılan islahatlarda bəhrələnildiyini, o cümlədən respublikamızın brendi olan, ədliyyənin də müxtəlif xidmətlər göstərdiyi ASAN praktikasının tətbiq olunduğunu qeyd edib.

Görüşdə iki ölkənin ədliyyə orqanları arasında qarşılıqlı fəaliyyətin perspektivlərinə toxunulub, Azərbaycanın rəqəmsal ədliyyə sahəsində yeniliklərinə maraq göstərilərək təqdir olunub, təcrübə mübadiləsinin hər iki tərəf üçün faydası vurğulanıb.

Qonaq nazirlikdə Ədliyyə tarixi muzeyi ilə tanış olub.

# Ədliyyə naziri vyetnamlı həmkarına məktub ünvanlayıb

**Tarixi dostluq əlaqələrinə söykənən Azərbaycan-Vyetnam münasibətləri Prezident İlham Əliyevin və Prezident Nquyen Fu Çonqun iradəsi ilə uğurla inkişaf edir, ölkələrimiz ikitərəfli formatda və beynəlxalq təşkilatlar, o cümlədən hazırda Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatı çərçivəsində sıx əməkdaşlıq edir.**

Əlaqələrimiz həmçinin, hüquqi sahədə genişlənərək, iki dövlətin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Saziş imzalanıb, nümayəndə heyətlərinin ikitərəfli səfərləri həyata keçirilib, faydalı təcrübə mübadiləsi aparılıb.

COVID-19 qlobal pandemiyasına baxmayaraq əlaqələrin dərinləşdirilməsi ilə bağlı qarşılıqlı niyyət ifadə olunaraq Azərbaycan və Vyetnam Ədliyyə nazirlikləri arasında ədliyyə və məhkəmə sistemlərinin, elektron xidmətlərin tətbiqinin videokonfranslara üstünlük verilməklə öyrənilməsi və bu kimi digər konkret tədbirləri nəzərdə tutan Əməkdaşlıq Proqramının imzalanması qərara alınıb.

Xüsusi karantin rejimi şəraitində diplomatik kanallar vasitəsilə sentyabr ayında imzalanmış sənədin qüvvəyə minməsi münasibətilə Ədliyyə naziri Fikrət Məmmədov Vyetnamın Ədliyyə naziri Le Thanh




Lonqa məktub ünvanlayıb.

Məktubda Əməkdaşlıq Proqramının qarşılıqlı fəaliyyətə mühüm töhfə verəcəyi, ədliyyə və məhkəmə sistemindəki islahatlara və yeniliklərə dair təcrübə mübadiləsinin hər iki tərəf üçün faydalı olacağı vurğulanıb.

Nazir F.Məmmədov vyetnamlı həmkarına bir aydan artıqdır dünya ictimaiyyətinin diqqətinin yönəldiyi Ermənistanın işğalçılıq siyasəti, ölkəmizə və dinc əhaliyə qarşı beynəlxalq humanitar hüquq normaları kobud pozulmaqla törətdiyi hərbi təxribatlar, insanlıq əleyhinə və müharibə cinayətləri





barədə ətraflı məlumat verib.

Eyni zamanda BMT-nin Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı aparılmış müzakirələrdə qurumun qeyri-daimi üzvü olan Vyetnamın beynəlxalq hüquq normalarına sadiq qalmaqla Azərbaycanın haqlı mövqeyinin müdafiəsində prinsipiallıq göstərilərək dəstəyinə görə minnətdarlığını ifadə edib.

Sonda nazir Azərbaycan-Vyetnam əlaqələrinin bundan sonra da müxtəlif istiqamətlərdə, o cümlədən hüquqi sahədə uğurla inkişaf edəcəyinə əminliyini bildirib.

# İşğaldan azad olunmuş torpaqların sakinləri Ali Baş Komandana minnətdardırlar

**Ölkə Prezidenti cənab İlham Əliyevin vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları Ədliyyə Nazirliyində daim diqqətdə saxlanılaraq Ədliyyə naziri Fikrət Məmmədov tərəfindən karantin rejimi şəraitində müxtəlif bölgələrin vətəndaşlarının videoformatda qəbulu keçirilib.**

Sumqayıt, Göyçay və Xaçmaz regional ədliyyə idarələrində videoqəbula qoşulan vətəndaşların ədliyyə fəaliyyəti ilə bağlı müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli





üzrə zəruri tədbirlərin görülməsi üçün aidiyyəti məsul işçilərə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar işğalçı Ermənistanın növbəti hərbi təxribatlarına cavab olaraq Ali Baş Komandanın rəhbərliyi ilə Qələbəyə doğru inamla irəliləyən Ordumuza tam güvəndiklərini, böyük ruh yüksəkliyi ilə dövlət başçısının ətrafında sıx birləşdiklərini vurğulayıblar.

İşğaldan azad olunmuş rayonların qəbulda iştirak edən sakinləri öz dədə-baba yurdlarına qayıdacaqlarını səbirsizliklə gözlədiklərini bildirərək onlara yaşatdığı hədsiz sevinc və qürur hisslərinə görə ölkə Prezidentinə minnətdarlıqlarını ifadə ediblər.




# Ədliyyə Nazirliyində Zəfərlərimiz qeyd olunub



**Bu gün Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan dövləti ölkə Prezidenti cənab İlham Əliyevin qətiyyəti, yenilməz sərkərdə cəsarəti və diplomatik məharəti sayəsində tarixinin şanlı günlərini yaşayır. 30 ilə yaxındır mənfur erməni işğalçılarının əsarətində olan doğma Qarabağımız, dədə-baba torpaqlarımız Ali Baş Komandanın rəhbərliyi ilə müzəffər ordumuz tərəfindən azad edilir, ərazi bütövlüyümüz bərpa olunur.**

Milli müstəqilliyimizin simvolu olan Dövlət Bayrağı Günü qeyd olunan bu ərəfədə xalqımızın qalibiyyət rəmzi - Şuşa şəhərinin işğaldan azad olunması ilə Qələbə çaldığımız tarixi gün münasibətilə Ədliyyə Nazirliyində yığıncaq keçirilib.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin nazirlikdəki büstü önünə gül dəstələri qoyularaq əziz xatirəsi dərin ehtiramla yad edilib.

Çıxış edən ədliyyə naziri Fikrət Məmmədov ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun şanlı Qələbə qazanması və Bayraq Günü münasibətilə kollektivi təbrik edib. Nazir hərbçilərimizin şücaəti və qəhrəmanlığı sayəsində Şuşanın düşmən tapdağından qurtarılaraq bayrağımızın sancılmasının mübarizəmizin dönüş nöqtəsi olduğunu, 300-dən çox yaşayış yerlərinin və yüksəkliklərin işğaldan azad edildiyini qeyd edib, dövlətimizin başçı-



QARABAĞ bizimdir, Azərbaycandır!



sının ulu öndər Heydər Əliyevin ən ümdə vəsiyyətinin şərəflə icra etdiyini, "Qarabağ Azərbaycandır!" ifadəsinin bu tarixi gündə Qələbəmizin rəmzinə çevrildiyini vurğulayıb.

Tədbirdə erməni işğalçılarının əsarətində olan doğma torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün bərpası uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Şuşada və işğaldan azad olunan digər ərazilərdə doğulan ədliyyə işçiləri sevinclərini bölüşərək, xalqımıza unudulmaz və ölçüyəgəlməz fəxarət hissləri yaşatdığı üçün ölkə Prezidentinə və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya sonsuz minnətdarlıqlarını ifadə ediblər.

Bildirilib ki, böyük ruh yüksəkliyi ilə Ali Baş Komandanın ətrafında sıx birləşən xalqımız, o cümlədən ədliyyə işçiləri və hakimlər qələbələr bəxş edən dövlətimizin başçısı və ordumuzla həmrəylik nümayiş etdirərək qürurla dalğalanan üçrəngli bayrağımızın Dağlıq Qarabağın hər yerində ucalacağı üçün çox sevincli və xoşbəxtdir.

Yığıncaqda ədliyyə işçilərinin və hakimlərin adından Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə müraciət qəbul olunub.

# Ədliyyə işçiləri və hakimlərdən Silahlı Qüvvələrin Yardım Fonduna və YAŞAT Fonduna dəstək

**İşğalçı Ermənistanın növbəti hərbi təxribatlarına cavab olaraq Azərbaycan Ordusu tərəfindən bütün cəbhə boyu uğurlu əks-hücum əməliyyatları həyata keçirilir.**




Ordumuza daim xüsusi diqqət yetirən Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən onun ən yüksək səviyyədə təchizatı təmin edilir.

Bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır, cənubi Qafqazda isə birincidir. Bunun kökündə qəhrəman ordumuzun yüksək döyüş qabiliyyəti, müasir silah-sursat və texnika ilə təchizatı dayanır.

Torpaqlarımızın işğaldan azad olunmasında ordumuzun uğurlu hərbi əməliyyatları xalqımızda böyük ruh yüksəkliyi yaratmaqla, vətənpərvərlik hissini daha da artırmışdır. Vətəndaşlarımız kütləvi könüllü yazılır, cəbhə üçün, qələbə üçün hər şey etməyə hazır olduqlarını bildirirlər.

Ədliyyə işçiləri və hakimlər vətəndaş fəallığı və orduya dəstəklərini nümayiş etdirərək mütəmadi olaraq əmək haqlarının bir hissəsini Silahlı Qüvvələrə Yardım Fonduna köçürürlər.




Cəbhədə qələbələrimizdən ruhlanan ədliyyə işçiləri və hakimlər hazırda da əmək haqları fondundan 1 milyon 600 min manatın Silahlı Qüvvələrə Yardım Fonduna köçürülməsi qərarına gəliblər.

Ordumuz ən yüksək səviyyədə təchiz edilir, gündəlik dövlət qayğısı ilə əhatə olunur və əlavə heç bir yardıma ehtiyac yoxdur. Bu addım isə ordu ilə həmrəylik nümayişi kimi mənəvi borc hesab olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qətiyyətli mövqeyindən qürur və iftixar hissi duyan ədliyyə və məhkəmə işçiləri bu şərəfli yolda dövlət başçısının ətrafında sıx birləşdiklərini ifadə edirlər.

**Vətən müharibəsi iştirakçılarının sosial müdafiəsinin və rifahının yaxşılaşdırılması ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin fəaliyyətinin əsas prioritetlərindən olmaqla hərbi qulluqçular və şəhid ailələri hərtərəfli dövlət qayğısı ilə əhatə olunurlar.**




Dövlət başçısının və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yaralı hərbçilərimizə baş çəkməsi, onların qayğıları ilə maraqlanması böyük ruh yüksəkliyi və təsəlli olub.

Eyni zamanda xalqımız tərəfindən dövlətimiz və ordumuzla həmrəylik nümayiş etdirilərək hərbçilərimizin zəruri ehtiyaclarının təmin edilməsi məqsədilə xeyirxah addımlar atılıb.

Ali Baş Komandanın ətrafında sıx birləşən ədliyyə işçiləri və hakimlər də bu şərəfli dönəmdə ordumuza dəstək göstərərək xüsusi fonda əmək haqlarından könüllü vəsaitlər köçürüblər. Həmçinin, nazirliyin tibb xidmətinin həkimləri müharibə dövründə yaralananlara zəruri tibbi yardım göstərib, ədliyyə və məhkəmə orqanlarında qanvermə aksiyaları keçirilib, nazirliyin əməkdaşları tərəfindən döyüşlərdə yaralanaraq hərbi hospitallarda müalicə alan hərbçilərimizə mütəmadi baş çəkilib və sovqatlar təqdim olunub.

Eyni zamanda ədliyyə və məhkəmə orqanlarının 100-dək əməkdaşı hərbi əməliyyatlarda, o cümlədən könüllü kimi iştirak edib, onların sırasında yaralananlara və şəhid olmuş şəxslərin ailələrinə lazımi yardım və mənəvi dəstək göstərilib.

Ölkə Prezidentinin 08.12.2020-ci il tarixli Fərmanı ilə ərazi bütövlüyümüzün müdafiəsi uğrunda yaralananların və şəhid ailələrinin təminatı ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması məqsədilə YAŞAT Fondu yaradılıb və müxtəlif təşkilatlar, fiziki və hüquqi şəxslər tərəfindən fonda könüllü ianələr edilir.

Ədliyyə işçiləri və hakimlər də dövlətimiz, xalqımız və ordumuzla hər zaman həmrəy olaraq əmək haqlarından YAŞAT Fonduna 1.000.000 (bir milyon) manat məbləğində vəsait köçürüblər.



QARABAĞ *bizimdir, Azərbaycandır!*



# Ədliyyə işçiləri peşə bayramlarını böyük qələbə sevinci ilə qeyd ediblər






**22 noyabr - ədliyyə işçilərinin peşə bayramı günü bu il xalqımızın şanlı qələbə sevinci ilə birgə qeyd olunur.**

Bu münasibətlə ədliyyə orqanlarında və məhkəmələrdə xüsusi karantin rejiminə əməl edilməklə silsilə tədbirlər təşkil olunub, xalqımızın Vətən müharibəsində zəfər yürüşünə, Azərbaycan ədliyyəsinin tarixi inkişaf yoluna nəzər salınıb, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilib, tarixi qələbəmizə həsr olunmuş foto və video-materiallar nümayiş etdirilib.

Bundan əlavə, bayram ərəfəsində ədliyyə işçiləri və hakimlər tərəfindən Silahlı Qüvvələrə Yardım Fonduna 900 min manatdan çox məbləğdə ianə edilib, yaralılara baş çəkilərək sovqatlar verilib, ənənəvi olaraq qanvermə aksiyaları keçirilib.

Peşə bayramı ilə əlaqədar Ədliyyə Nazirliyinin və Ali Məhkəmənin rəhbərliyi Fəxri




Xiyabana gələrək müasir Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, abidəsi önünə əklil qoyublar. Akademik Zərifə xanım Əliyevanın məzarı önünə gül dəstələri düzülüb, Şəhidlər xiyabanında xalqımızın azadlığı və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən qəhrəman övladlarımızın, həmçinin Vətən müharibəsində şəhid olmuş ədliyyə işçisinin əziz xatirəsi anılıb.

Bayramlar münasibətilə həmçinin, Ədliyyə Nazirliyi kollegiyasının videoformatda xüsusi iclası keçirilib. Əvvəlcə dahi öndərin nazirlikdəki büstü önünə tər çiçəklər qoyulub.

Tədbiri açan ədliyyə naziri Fikrət Məmmədov ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində parlaq qələbə və peşə bayramı münasibətilə kollektivi təbrik edib. Möhtəşəm zəfərlərimizə həsr olunmuş və nazirlik tərəfindən hazırlanmış video-çarx nümayiş etdirilib.

Nazir rəşadətli ordumuzun tarixi torpaqlarımızı, Qarabağın tacı olan Şuşanı azad edərək döyüş meydanında şanlı qələbələr qazandığını, dövlət başçısının sərkərdə istedadı və diplomatik məharəti nəticəsində düşmənin siyasi müstəvidə faktiki kapitulyasiyasına və işğal altında qalan digər ərazilərimizin qaytarılmasına nail olduğunu qeyd edib.

Ölkə Prezidentinin noyabrın 20-də Qarabağın ürəyi - Ağdam rayonunun Birgə Bəyanata uyğun olaraq sülh yolu ilə qan tökülmədən azad olunması barədə xəbərinin peşə bayramlarını qeyd edən ədliyyə işçiləri tərəfindən böyük sevinc hissi ilə qarşılandığını bildirib, "Düşmənə döyüşsüz qalib gəlmək müharibə sənətinin zirvəsidir" müdrik kəlamını xüsusi diqqətə çatdırıb.

Ədliyyə naziri qeyd edib ki, ulu öndər Heydər Əliyevin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirərək adını əbədi olaraq tariximizə müzəffər Ali Baş Komandan kimi qızıl hərflərlə həkk edən dövlətimizin başçısı xalqımızın qəlbində Milli qəhrəmana çevrildi. Görkəmli dövlət xadimi olaraq uzun sürən savaşa son qoyaraq sülhü bərqərar etməklə, bəşəriyyətdə sülh naminə mühüm xidmətlər göstərdi.

Tədbirdə Ali Baş Komandanın ən sadiq silahdaşı olan respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti, cəbhədə döyüşən igid hərbçilərimizə dəstəyi və qayğılı münasibəti, xalqımızın ədalətli mübarizəsi naminə hər birimizi informasiya platformalarında mübarizəyə sövq edən vətənpərvər çağırışları xüsusi qeyd olunub.

Vətən müharibəsinə, o cümlədən könüllü olaraq yollanan ədliyyə və məhkəmə işçilərinin də fədakarlıq və qəhrəmanlıq göstərdikləri vurğulanıb, bütün şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan həqiqətlərinin, Ermənistanın işğalçılığının, müharibə və insanlıq əleyhinə cinayətlərinin beynəlxalq ictimaiyyətə geniş çatdırılmasına Ədliyyə Nazirliyinin də fəal qoşulduğu qeyd olunub.

Bildirilib ki, bu ərəfədə Avropa Şurası Baş katibinin, Avropa Şurası Parlament Assambleyasının, Avropa İnsan Hüquqları Məhkəməsinin və digər ixtisaslaşmış qurumların rəhbərlərinin, habelə Avropa İttifaqı ədliyyə komissarının iştirakı ilə Avropa ədliyyə nazirlərinin videoformatda konfransı keçirilib. İlk məruzəçi qismində çıxış edən F.Məmmədov Ermənistanın hərbi təxribatlarını və dinc əhaliyə qarşı müharibə cinayətlərini, vandalizm və beynəlxalq hüququn pozulması faktlarını həmkarlarının və beynəlxalq təşkilatların yüksək təmsil-







çilərinin diqqətinə çatdırıb, bununla bağlı Ermənistanın beynəlxalq müstəvidə məsuliyyətə cəlb olunaraq cavab verməli olduğu vurğulanıb.

Xarici dövlətlərin ədliyyə nazirlərinə, dünya prokurorlarına, nazirliyin sıx tərəfdaşlıq etdiyi nüfuzlu beynəlxalq təşkilatlara müraciətlər ünvanlanaraq, həmçinin müxtəlif dövlətlərin səfirləri ilə görüşlər keçirilərək Ermənistanın beynəlxalq insan hüquqları və humanitar hüquq normalarını kobud surətdə pozması, müharibə və insanlıq əleyhinə cinayətləri geniş qeyd olunub, beynəlxalq birlik ədalət naminə bu məsələdə prinsipiallıq göstərərək qəti tədbirlər görməyə çağırılıb.

Bununla yanaşı, Azərbaycan ədalətli mövqeyinin təbliği və geniş yayılması məqsədilə üç dildə "Qarabağ Azərbaycandır!" elektron məlumat platforması (http://justice.gov.az/categories/1148) yaradılıb. Daim yenilənən və interaktiv rejimdə fəaliyyət göstərən platformada Vətən Müharibəsi dövründə dövlət başçısının və Birinci vitse-prezidentin fədakar xidmətləri, Zəfər yürüşümüzə dair xəbərlər, sənədlər, foto və video-materiallar, hüquqi maarifləndirməyə dair nazirliyin hazırladığı materiallar əks olunub. Digər saytlara inteqrasiya olunmuş platformadan artıq minlərlə istifadəçi yararlanıb.

Eyni zamanda dövlət başçısının tapşırıqlarının operativ icrası üçün ədliyyə nazirinin rəhbərliyi ilə Qərargah yaradılıb, qarşıda duran vəzifələrin mütəşəkkil qaydada icrası məqsədilə yeni Qarabağ regional ədliyyə idarəsi təsis edilib və bütün işğaldan azad olunmuş torpaqlarımızdakı ədliyyə orqanları onun yurisdiksiyasına daxil edilib. İdarə fəaliyyətini digər qurumlarla əlaqəli həyata keçirəcəkdir.

Tədbirdə həmçinin, ədliyyə sahəsində görülmüş işlərə nəzər salınıb, fəaliyyətin qlobal pandemiya şəraitində təşkilinə baxmayaraq, işin təkmilləşdirilməsi üzrə tədbirlərin davam etdirildiyi, dövlət başçısının tapşırıqlarından irəli gələn vəzifələrin, o cümlədən ədliyyə və məhkəmə sahəsində idarəçiliyin müasirləşdirilməsi, şəffaflığın artırılması, korrupsiyanın qarşısının alınması, innovasiyaların tətbiqi üzrə əməli işlərin görüldüyü qeyd edilib.

Azərbaycan ədliyyəsinin qədim vaxtlardan müasir dövrümüzə qədər tarixini əks etdirən, nəfis çap olunmuş kitab kollektivə təqdim edilib. Bildirilib ki, kitabda ədliyyənin təşəkkülü, müasir hüquq sistemimizin banisi, ümummilli lider Heydər Əliyev tərəfindən ədliyyə sisteminin və məhkəmə hakimiyyətinin formalaşmasına göstərilən xüsusi diqqət və qayğı, ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bu sahədə fəaliyyətin müasirləşdirilməsi barədə maraqlı məlumatlar əks olunub.

Çıxış edən məcburi köçkün ədliyyə işçiləri Qələbə münasibətilə, xüsusilə doğma torpaqlarının azad olunmasına görə sevinclərini bölüşüb, torpaqlarımızı işğaldan qurtarmaqla hər kəsə unudulmaz və sonsuz iftixar hissləri bəxş etdiyi üçün ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını ifadə ediblər.

Tədbirdə tarixi Qələbə münasibətilə və ədliyyə sisteminin inkişafına xüsusi qayğıya görə ədliyyə işçiləri adından ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə müraciət qəbul edilib. Bildirilib ki, böyük inam və ruh yüksəkliyi ilə ölkə Prezidentinin ətrafında sıx birləşən ədliyyə işçiləri demokratik hüquqi dövlət quruculuğu, azad olmuş torpaqlarımızın bərpası naminə üzərlərinə düşən vəzifələri şərəflə yerinə yetirmək əzmindədirlər.



QARABAĞ bizimdir, Azərbaycandır!



# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə ədliyyə işçilərinin müraciəti

*Möhtərəm cənab Prezident!*

*Ədliyyə işçiləri və hakimlər müasir Azərbaycan dövlətinin banisi ümummilli lider Heydər Əliyevin bəxş etdiyi 22 noyabr - peşə bayramı gününü bu il xalqımızın şanlı Qələbəsi ilə əlamətdar olan bir dövrdə xüsusi sevinc hissi ilə qeyd edirlər.*

*Müzəffər Ali Baş Komandan kimi xalqımıza yaşatdığınız qalibiyyət sevincləri və hədsiz fəxarət hissinə görə Sizə sonsuz minnətdarlığımızı bildirir, tarixi Qələbəmiz münasibətilə Zati-alilərinizi ürəkdən təbrik edirik.*

*Sizin qəti iradəniz, müdrik xarici siyasətiniz və diplomatik məharətiniz, xalqımızı yumruq kimi sıx birləşdirməyiniz, qələbəmizin rəmzinə çevrilmiş şüarlarınız, cəsarətli mövqeyiniz və müraciətləriniz hər bir azərbaycanlını düşmənlə mübarizəyə səfərbər etmişdir.*

*Azərbaycan xalqının inamını özünə qaytaran və tarixi ədaləti bərpa edən bu böyük qələbənin əsasında Sizin 17 ildə ölkəmizin güclü iqtisadiyyatını yaratmağınız, müasir silah və hərbi texnika ilə təchiz olunmuş qüdrətli ordu quruculuğuna yönəlmiş uzaqgörən və məqsədyönlü siyasətiniz, düşünülmüş və prinsipial qərarlarınız dayanır.*

*Şanlı ordumuzun Zəfər yürüşünü siyasi müstəvidə parlaq qələbəmizlə başa çatdıraraq düşmənin kapitulyasiyasına və işğal altında qalan digər ərazilərimizin bir güllə atmadan, şəhid vermədən qaytarılmasına, imzalanmış birgə bəyanatın şərtlərinə uyğun olaraq artıq noyabr ayının 20-də Ağdam rayonunun azad edilməsinə nail olmağınız Sizin yenilməz sərkərdə cəsarətinizin, milli maraqlarımız naminə dönməz mövqeyinizin və hərbi-siyasi uğurunuzun əyani təzahürüdür.*

*Tarixi xidmətlərinizlə doğma yurd-yuvalarına qayıdacaqları günü səbirsizliklə gözləyən soydaşlarımızın ümidlərini reallığa çevirməklə, hər kəsdə işğaldan azad olunmuş torpaqlarımızın rəhbərliyinizlə tezliklə dirçələrək yenidən orada firavan həyat yaşanacağına qəti əminlik yaratmısınız.*

*Ən sadiq silahdaşınız, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqımızın ədalətli mübarizəsi naminə hər birimizi informasiya platformalarında mübarizəyə sövq edən vətənpərvər çağırışları, cəbhədə döyüşən igid əsgərlərimizə duaları ilə, yaralılarımıza, həlak olan günahsız dinc insanlarımızın ağrı-acısına şərik olaraq bir ana, bacı kimi doğma və qayğılı münasibəti ilə xalqımıza təsəlli olması xüsusilə qeyd edilməlidir.*

*Heydər Əliyev dühasının ideyalarını reallaşdıran yenilməz sərkərdə kimi Siz adınızı tariximizə qızıl hərflərlə həkk edərək xalqımızın qəlbində Milli qəhrəmana çevrilmiş, görkəmli dövlət xadimi olaraq müdrik siyasətinizlə uzun sürən savaşa son qoyaraq sülhü bərqərar etməklə, bəşəriyyətdə sülh naminə mühüm xidmətlər göstərmisiniz.*

*Ali Baş Komandanlığınızla döyüşlərdə iştirak edən, o cümlədən könüllü yollanan ədliyyə və məhkəmə işçiləri də Vətən uğrunda şücaət göstərərək canlarını belə əsirgəməmiş, informasiya mübarizəsində Azərbaycan həqiqətlərinin, Ermənistanın işğalçılığının, müharibə və insanlıq əleyhinə cinayətlərinin təfsilatı ilə beynəlxalq ictimaiyyətə çatdırılmasında fəallıq göstərmişlər.*

*Möhtərəm cənab Prezident!*

*Bu gün peşə bayramımızı Böyük Qələbə sevinci ilə qeyd edərkən tarixi Zəfər günlərini bizlərə yaşatdığınıza, Azərbaycan ədliyyəsinin inkişafına göstərdiyiniz yüksək diqqət və qayğıya görə Sizə dərin minnətdarlıq hissi keçiririk.*

*Sizi qəti əmin edirik ki, ədliyyə işçiləri Vətənimizin çiçəklənməsi və hərtərəfli tərəqqisi naminə Zati-alilərinizin ətrafında sıx birləşərək demokratik hüquqi dövlət quruculuğu, azad olunmuş torpaqlarımızın bərpası naminə üzərlərinə düşən vəzifələri şərəflə yerinə yetirmək əzmindədirlər.*

*Dərin hörmət və ehtiramla,*

*Ədliyyə işçiləri adından*

*Fikrət Məmmədov*
*Azərbaycan Respublikasının ədliyyə naziri*
*22 noyabr 2020-ci il*


QARABAĞ bizimdir, Azərbaycandır!


# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya ədliyyə işçilərinin müraciəti

*Hörmətli Mehriban xanım!*

*Sizi möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Böyük Qələbəmiz münasibətilə təbrik edir, xalqımızın və dövlətimizin rifahı naminə mühüm və gərəkli fəaliyyətinizdə uğurlar arzulayırıq.*

*Bu gün Azərbaycan ulu öndər Heydər Əliyevin ən ümdə vəsiyyətini yerinə yetirən dövlətimizin başçısının uzaqgörən, düşünülmüş siyasəti və müdrik rəhbərliyi ilə tarixinin şanlı günlərini yaşayır. 30 ildir mənfur erməni işğalçılarının əsarətində olan doğma torpaqlarımız, mədəniyyət beşiyi - qədim Şuşa şəhəri ordumuzun döyüş meydanında qəhrəmanlığı və şücaəti sayəsində düşmən tapdağından azad edilmiş, ərazi bütövlüyümüz bərpa olunmuş, zəfər rəmzi olan üçrəngli bayrağımız vüqarla ucaldılmışdır.*

*Xalqımız üçün çətin və şərəfli olan bu dönəmdə Siz Ali Baş Komandanın ən sadiq silahdaşı kimi yorulmaz fəaliyyət göstərmiş, xalqımızın ədalətli mübarizəsi barədə həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmış, vətənpərvər çağırışlarınız və müraciətləriniz hər birimizi milli maraqlarımızı qorumaq naminə düşmənlə mümkün platformalarda, o cümlədən informasiya məkanında mübarizəyə səfərbər etmişdir.*

*Sizin cəbhədə döyüşən igid, yenilməz əsgərlərimizə ünvanlanan dualarınız, yaralılarımıza qayğılı münasibətiniz, düşmənin hərb meydanından xeyli aralıda yerləşən yaşayış yerlərimizə namərd hücumu nəticəsində həlak olmuş günahsız dinc insanlarımızın - körpələrin, qadınların, ahılların ağrı-acısını bölüşüb dərdlərinə şərik olmağınız, hər kəsə doğma və xüsusi həssaslıqla yanaşaraq "Sizin Mehriban" deyə ana, bacı kimi müraciətiniz bu çətin günlərdə xalqımıza böyük ruh yüksəkliyi və təsəlli olmuş, bir daha nəcib, səmimi, təmkinli, xalqını və Vətənini sonsuz məhəbbətlə sevən əsl Azərbaycan xanımı kimi nümunə yaratmısınız.*

*Böyük inam və əzmlə Ali Baş Komandanın ətrafında sıx birləşən xalqımız, o cümlədən ədliyyə işçiləri möhtəşəm qələbələr bəxş edən ölkə rəhbərliyi və ordumuzla həmrəylik nümayiş etdirərək unudulmaz və ölçüyəgəlməz fəxarət yaşayır, Prezidentimizə və Sizə sonsuz minnətdarlıq hissi keçirirlər.*

*Qəti əminik ki, Siz düşmən işğalından azad olmuş torpaqlarımızdakı gələcək quruculuq işlərinə daha artıq coşqu və səylə dəyərli töhfələrinizi verəcək, yüksək işgüzar keyfiyyətləriniz və təşkilatçılıq qabiliyyətinizlə həmişə olduğu kimi dövlət başçımızın ən yaxın dayağı olacaqsınız.*

*Hörmətli Mehriban xanım,*

*Sizi tarixi ədalətin bərpa olunması - Zəfər yürüşümüzdə torpaqlarımızın, mübarizəmizin dönüş nöqtəsi olan Şuşanın işğaldan azad olunması və ölkəmizin həm hərbi, həm siyasi meydanda Böyük Qələbə qazanması münasibətilə bir daha ürəkdən təbrik edir, Sizə, ailənizə, Azərbaycan gəncliyinə örnək olan vətənpərvər övladlarınıza, daim sevinc bəxş edən nəvələrinizə möhkəm cansağlığı, uzun ömür, səadət və xoşbəxtlik diləyirik.*

*Dərin hörmət və ehtiramla,*

*Ədliyyə işçiləri adından*

*Fikrət Məmmədov*
*Azərbaycan Respublikasının ədliyyə naziri*

*9 noyabr 2020-ci il*




# Azərbaycan ədliyyəsi xalqımızın şanlı Qələbəsi ilə qürur dolu günlər yaşayır

**Fikrət Məmmədov,**
**Azərbaycan Respublikasının ədliyyə naziri,**
**Məhkəmə-Hüquq Şurasının sədri**
**I dərəcəli dövlət ədliyyə müşaviri**

**Ümummilli lider Heydər Əliyevin bəxş etdiyi 22 noyabr – ədliyyə işçilərinin peşə bayramı günü bu il xalqımızın şanlı Qələbəsi ilə xüsusilə əlamətdar olmaqla ikiqat sevinc hissi ilə qeyd olunur.**

Sentyabrın 27-də Ermənistanın hərbi təxribatlarına qarşı əks-hücum əməliyyatı ilə başlayan və noyabrın 10-da düşmənin təslim olması ilə nəticələnən İkinci Qarabağ müharibəsində ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev xalqımızın zəfər salnaməsini yazdı.

Dövlət başçısının qəti iradəsi və müdrik xarici siyasəti, müzəffər ordumuzun qəhrəmanlığı və şücaəti, xalqımızın birliyi və həmrəyliyi nəticəsində erməni işğalçıları həm hərbi, həm də siyasi meydanda ağır məğlubiyyətə uğradıldı, Böyük Qələbə qazanılaraq tarixi ədalət bərpa olundu, xalqın inamı özünə qaytarıldı.

30 ildir BMT Təhlükəsizlik Şurasının işğalçı qüvvələrin torpaqlarımızdan dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri ordumuzun inamlı qələbəsi ilə icra edildi, doğma torpaqlarının həsrətini çəkən, qayıdacaqları günü səbirsizliklə gözləyən insanlarımızın arzuları reallığa çevrildi.

Cəsur Azərbaycan hərbçiləri düşmənin işğal altındakı ərazilərimizdə otuz ilə yaxın müddətdə qurduqları istehkamları, hərbi texnikasını və infrastrukturunu, çoxsaylı canlı qüvvəsini darmadağın edərək torpaqlarımızı qarış-qarış, kəndbəkənd, şəhərbəşəhər əsarətdən xilas etdi. 44 günlük zəfər yürüşündə 300-dən çox şəhər, kənd və qəsəbələrimiz işğaldan azad edildi, Silahlı Qüvvələrimiz tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərində və digər doğma torpaqlarımızda üçrəngli şanlı bayrağımız ucaldıldı.

Ölkə Prezidentinin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusu tərəfindən noyabrın 8-də dahilər ocağı, hər daşı bir tarix olan, Qarabağın tacı Şuşanın işğaldan azad olunması xalqımıza hədsiz qələbə sevinci yaşatdı. "Şuşasız bizim işimiz yarımçıq olar", - deyən Ali Baş Komandan ulu babalarımızın miras qoyduğu qiymətli əmanəti azad etməklə müasir müstəqil dövlətimizin banisi, ulu öndər Heydər Əliyevin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirdi. Həmin gün Fəxri xiyabanı ziyarət edərək sanki Ümummilli Liderimizə bu barədə hesabat verən cənab Prezident Vətənimizin azadlığı uğrunda şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsini Şəhidlər Xiyabanında ehtiramla yad etdi və oradan xalqımıza Şuşanın azad olunması müjdəsini verdi.

Nüfuzlu hərbi ekspertlər təsdiq edirlər ki, çətin keçilən relyefə malik olan və üç tərəfdən sıldırım qayalıqla əhatə olunan alınmaz qala Şuşa uğrunda Azərbaycan Ordusunun xüsusi şücaətlə həyata keçirdiyi döyüşlər müstəsna olmaqla dünya hərb tarixinə unikal əməliyyat kimi düşəcək, hərb elminə dair dərsliklərə salınacaqdır.

Şuşanın işğaldan qurtarılaraq üçrəngli bayrağımızın sancılması Vətən müharibəsində dönüş nöqtəsi oldu, dövlətimizin başçısı düşməni təslim olmağa məcbur edərək Ermənistanın kapitulyasiya aktı



**QARABAĞ** *bizimdir, Azərbaycandır!*





“İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İLHAM ƏLİYEV başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.

**HEYDƏR ƏLİYEV,**
**Azərbaycan xalqının ümummilli lideri**

Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan!

**İLHAM ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**”

olan birgə bəyanatla qalan digər torpaqlarımızın – Kəlbəcər, Laçın və Ağdam rayonlarının qan tökülmədən Azərbaycana qaytarılmasına, ərazi bütövlüyümüzün bərpasına nail oldu.

Bununla da dövlət başçısı cənab İlham Əliyev xalqımızın qəlbində Milli qəhrəmana çevrilərək, onun adı tariximizə qızıl hərflərlə həkk olundu. Möhtərəm Prezidentimiz görkəmli dövlət xadimi kimi müdrik siyasəti nəticəsində uzun sürən savaşa son qoyaraq sülhü bərqərar etməklə, bəşəriyyətdə sülh naminə mühüm xidmətlər göstərdi.

Danılmaz həqiqətdir ki, ölkəmizin şanlı Qələbə qazanmasının təməlində Azərbaycan Prezidenti cənab İlham Əliyevin 17 ildə həyata keçirdiyi uzaqgörən, düşünülmüş və müstəqil siyasəti dayanır. Dövlətimizin başçısı bu illər ərzində respublikamızın iqtisadiyyatını gücləndirmiş, ordu quruculuğunu, müdafiə sənayesini inkişaf etdirərək Azərbaycan Ordusunu, Vətən müharibəsində bütün dünyaya nümayiş etdirildiyi kimi, 5-ci nəsil müasir silah və hərbi texnika ilə təchiz olunmaqla dünyanın ən güclü 50 ordusundan birinə çevirmişdir.

Ölkənin bütün ərazisində hərbi vəziyyət və qismən səfərbərlik elan olunduğu, bütün xalqımızın böyük həmrəylik nümayiş etdirdiyi bu şərəfli dönəmdə ölkə Prezidenti hər kəsin səbirsizliklə gözlədiyi və həyəcanla dinlədiyi xalqa müraciətlərində, dünyanın nüfuzlu medialarına müsahibələrində diplomatik məharəti ilə milli maraqlarımızı uğurla müdafiə etdi, yalan və feyk xəbərlər üzərində qurulan erməni təbliğatını tam ifşa etdi.

Bu dövrdə həmçinin, BMT-







nin Təhlükəsizlik Şurasında Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı aparılmış müzakirələrdə Qoşulmama Hərəkatının və eyni zamanda, hazırda Təhlükəsizlik Şurasının üzvü olan ölkələrin beynəlxalq hüquq normalarına sadiq qalmaqla Azərbaycanın haqlı mövqeyinin müdafiəsində prinsipiallıq göstərərək dəstəyi ölkəmizin beynəlxalq aləmdə yüksək nüfuzunun və hörmətinin əyani təzahürü oldu.

Ali Baş Komandanın ən sadiq silahdaşı olan respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın ölkəmizin ədalətli mübarizəsi barədə həqiqətlərin beynəlxalq birliyə çatdırılması ilə bağlı vətənpərvər çağırışları hər bir azərbaycanlını informasiya platformalarında mübarizəyə səfərbər etdi. Cəbhədə döyüşən igid əsgərlərimizə duaları ilə, yaralılarımıza, həlak olan günahsız dinc insanlarımızın ağrı-acısına şərik olaraq bir ana, bacı kimi doğma və qayğılı münasibəti ilə Birinci vitse-prezident xalqımıza təsəlli oldu.

Cənab Prezidentin və birinci xanımın işğaldan azad olunduqdan sonra Füzuli və Cəbrayıl şəhərlərinə, Xudafərin körpüsünə səfəri, Füzuli-Şuşa avtomobil yolunun təməlinin qoyulması xalqımızın o torpaqlara qayıdışının təntənəsi oldu. Bayrağımızı ucaldan dövlət başçısı erməni vandallarının torpaqlarımızda törətdikləri vəhşiliklərə, o cümlədən bu günlərdə Kəlbəcər və Ağdam rayonlarının boşaldılması zamanı evlərin və digər mülki obyektlərin dağıdılaraq yandırılmasına, törədilən ekoloji fəlakətə görə Ermənistanın beynəlxalq müstəvidə cavab verəcəyi ilə bağlı mühüm mesajlar verdi.

Şübhəsiz ki, Ermənistanın işğalçılıq siyasəti, müharibə və insanlıq əleyhinə cinayətləri onun beynəlxalq hüquqi məsuliyyətini doğurur və qeyd edilən cinayətlərin törədilməsində iştirak etmiş şəxslərin məsuliyyətə cəlb olunmasını zəruri edir.

Bununla əlaqədar Ədliyyə Nazirliyi tərəfindən Ermənistanın ölkəmizə qarşı müharibə cinayətlərinin dünya ictimaiyyətinin diqqətinə dolğun və hərtərəfli çatdırılması istiqamətində məqsədyönlü işlər həyata keçirilmişdir.

Belə ki, tərəfimizdən 70-ə yaxın dövlətin ədliyyə nazirlərinə, dünya prokurorlarına, sıx tərəfdaşlıq etdiyimiz nüfuzlu beynəlxalq təşkilatlara, o cümlədən 140 ölkəni birləşdirən Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyası, Dünya Bankı, UNICEF, Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresi, Almaniyanın Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti, Ümumdünya Səhiyyə Təşkilatı və digər qurumlara, habelə Beynəlxalq Hakimlər Assosiasiyasına müraciətlər ünvanlanmış, xarici ölkələrin səfirləri ilə görüşlər təşkil olunmuş, ərazilərimizin 20 faizinin işğal olunaraq azərbaycanlıların etnik təmizləməyə və soyqırıma məruz qalması, dədə-baba yurdlarından didərgin salınması, xalqımıza qarşı törədilmiş müharibə və insanlıq əleyhinə cinayətləri vurğulanmışdır.

Həmçinin, bu günlərdə Avropa Şurası ədliyyə nazirlərinin videoformatda keçirilmiş konfransında Ermənistanın qeyri-insani əməlləri və müharibə cinayətlərinin dəhşətləri təfsilatı ilə Avropa Şurası Baş katibinin, Avropa Şurası Parlament Assambleyasının, Avropa İnsan Hüquqları Məhkəməsinin və digər ixtisaslaşmış qurumlarının rəhbərlərinin, habelə Avropa İttifaqı ədliyyə komissarının və bütün üzv dövlətlərin ədliyyə nazirlərinin diqqətinə çatdırılmışdır.

Müraciətlərdə və tədbirlərdə Ermənistanın münaqişənin ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar yolu ilə həllini dəfələrlə müxtəlif bəhanələrlə pozması, silahlı qüvvələrinin işğal altında olan ərazilərimizdən çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının, Avropa Şurası Parlament Assambleyasının, Qoşulmama Hərəkatının, İslam Əməkdaşlıq Təşkilatının və digər beynəlxalq təşkilatların sənədlərinin icrasına məhəl qoymaması, ona sərf edən status-kvonu davam etdirərək işğal altındakı ərazilərimizin zəngin

təbii ehtiyatlarını istismar etməsi və qeyri-qanuni iqtisadi fəaliyyət göstərməsi, qanunsuz məskunlaşdırma həyata keçirməsi, dövlət və xüsusi mülkiyyətin talan edilməsi, tarixi, mədəni və dini abidələrimizin dağıdılması və ya saxtalaşdırılması, məscidlərimizin təhqir olunması xüsusilə vurğulanmışdır.

Qeyd olunmuşdur ki, çoxsaylı dinc insanların, o cümlədən uşaq, qadın və ahılların həlak olması, yaralanması, minlərlə mülki infrastruktura, həmçinin ədliyyə və məhkəmə binalarına ciddi ziyan dəyməsi ilə nəticələnən Ermənistanın qeyri-insani əməlləri beynəlxalq insan hüquqları və humanitar hüquq normalarının, xüsusilə 1949-cu il Cenevrə Konvensiyalarının və onlara Əlavə Protokollardan irəli gələn öhdəliklərin kobudcasına pozulması deməkdir. Bununla əlaqədar dünya dövlətləri və beynəlxalq təşkilatlar ədalət naminə bu məsələdə prinsipiallıq göstərərək səslərini ucaltmalıdırlar, çünki insanlıq əleyhinə və müharibə cinayətləri törədən Ermənistan beynəlxalq müstəvidə məsuliyyətə cəlb olunaraq cavab verməlidir.

İşğalçı Ermənistanın ölkəmizə qarşı hərbi təxribatlara başladığı andan qardaş Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan başda olmaqla türk xalqının Azərbaycanın yanında olduğu, yüksək səviyyəli rəsmi şəxslərin ölkəmizə dəstəkverici səfərlər etdiyi, ədliyyə naziri cənab Abdulhamit Gülün telefonla zəng edərək, həmçinin rəsmi müraciət ünvanlayaraq xalqımızın haqq davasında tərəddüdsüz dəstəyi və Qələbə münasibətilə səmimi təbrik etməsi, tvitter hesabı ilə ürək sözlərini söyləməsi xüsusilə vurğulanmalıdır.

Bu dövrdə həmçinin, ədliyyə işçiləri Birinci vitse-prezidentin çağırışlarına fəal qoşularaq sosial şəbəkələrdə vətəndaş mövqeyindən çıxış etməklə ermənilərin yalan təbliğatının və dezinformasiyalarının qarşısının alınması məqsədilə müxtəlif dillərdə çoxsaylı məlumatlar və digər materiallar paylaşmışlar.

Bununla yanaşı, nazirlik tərəfindən Azərbaycan həqiqətlərinin təbliği və geniş yayılması məqsədilə "Qarabağ Azərbaycandır!" elektron məlumat platforması (http://justice.gov.az/categories/1148) yaradılmışdır.

Üç dildə (Azərbaycan, ingilis və rus) olan, daim yenilənən və interaktiv rejimdə fəaliyyət göstərən platformada Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətləri və Ermənistanın işğalçılıq siyasəti, Azərbaycanın dinc əhalisinə qarşı yönələn müharibə cinayətləri ilə bağlı dünyanın nüfuzlu medialarına müsahibələri, Birinci vitse-prezident Mehriban Əliyevanın sosial çağırışları və çıxışları, dövlət başçısının və birinci xanımın azad edilmiş rayonlarımıza səfərləri və digər rəsmi xəbərlər, qanun və fərmanlar, tarixi sənədlər yerləşdirilmişdir. Həmçinin burada zəfərlərimizə, Azərbaycan Bayrağının doğma torpaqlarımızda ucaldılması mərasimlərinə dair videomateriallar, əzəli torpağımız olan Qarabağ və ətraf yeddi rayonun tarixi, mədəni və dini abidələri barədə fotoqalereya, bu sahədə hüquqi maarifləndirməyə dair nazirliyin məlumatları mövcuddur. Digər saytlara da inteqrasiya olunmuş platformadan artıq minlərlə istifadəçi yararlanmışdır.

Eyni zamanda, işğaldan azad olunmuş ərazilərdə müvəqqəti xüsusi idarəetmənin təşkilinə dair dövlət başçısının tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən qarşıda duran vəzifələrin mütəşəkkil və operativ icrasının təmin olunması məqsədilə nazirliyin rəhbərliyindən və aidiyyəti məsul şəxslərindən ibarət Qərargah yaradılmışdır. Ermənistanın müharibə və insanlıq əleyhinə cinayətləri, işğalçılığa və separatçılığa dəstək xarakteri daşıyan iqtisadi və digər qeyri-qanuni fəaliyyəti ilə bağlı milli və beynəlxalq qanunvericiliyin təhlili, işğaldan azad olunmuş ərazilərdə ədliyyə və məhkəmə infrastrukturuna dəymiş ziyanın dəqiqləşdirilməsi və bu orqanların fəaliyyətinin təmin olunması məqsədilə zəruri tədbir-





*Ali Baş Komandan İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva işğaldan azad olmuş torpaqlarda*

lərin görülməsi, habelə ədliyyə orqanlarının qarşısında duran digər vəzifələr müəyyən edilmiş və onların mütəşəkkil icrası məqsədilə yeni Qarabağ regional ədliyyə idarəsi təsis olunmuşdur.

Qeyd edilməlidir ki, böyük inam və əzmlə Ali Baş Komandanın ətrafında sıx birləşərək həmrəylik nümayiş etdirən ədliyyə işçiləri və hakimlər müharibənin ilk günlərindən ordumuza dəstək məqsədilə könüllü olaraq öz əmək haqları fondundan Silahlı Qüvvələrə Yardım Fonduna 1 milyon 600 min manat köçürmüşlər. Təbii ki, gündəlik dövlət qayğısı ilə əhatə olunan və ən yüksək səviyyədə təchiz edilən Azərbaycan Ordusu üçün edilən bu təşəbbüs hərbçilərimizlə həmrəylik nümayişi kimi mənəvi borc hesab olunmuşdur. Peşə bayramı ərəfəsində işçilərimiz və hakimlər tərəfindən növbəti dəfə əmək haqlarından 900 min manatdan çox ianə edilmişdir.

Həmçinin ədliyyə və məhkəmə orqanlarının 100-dək əməkdaşı hərbi xidmətə, o cümlədən könüllü kimi yollanaraq, yüksək vətənpərvərlik nümunəsi göstərmişlər. Döyüşlərdə iştirak edən əməkdaşlarımız arasında təəssüf ki, yaralanan və qəhrəmancasına şəhid olanlar da var. Nazirlik tərəfindən onların hər birinin və ailə üzvlərinin qayğıları ilə maraqlanılaraq zəruri tədbirlər görülür. Eyni zamanda, cəbhəboyu şəhər və rayonlarda təhlükəli və gərgin şəraitdə fəaliyyət göstərən işçilərə əlavə maddi dəstək göstərilmişdir.

Vətən müharibəsində ordumuzun uğuru, torpaqlarımızın işğaldan azad olunması ilə bağlı dövlətimizin başçısının xoş müjdəli xəbərləri, o cümlədən tvitter hesabı ilə xalqa çatdırdığı zəfərlər ədliyyə orqanlarında sevinc hissi ilə qarşılanmışdır. Bu münasibətlə nazirlikdə keçirilən tədbirlərdə torpaqlarımızın azad edilməsi böyük coşqu ilə qeyd olunmuş, ərazi bütövlüyümüzün bərpası uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsi ehtiramla anılmışdır.

Xalqımıza unudulmaz və hədsiz fəxarət hissləri yaşatdığı üçün ölkə rəhbərliyinə minnətdarlıq ifadə olunmuş, tarixi qələbələrimiz münasibətilə Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə və respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya müraciətlər qəbul olunmuş, işğaldan azad olunmuş torpaqlarımızın tezliklə dirçələ-

cəyinə, bərpa-quruculuq və abadlıq işləri aparılaraq yenidən orada həyat qaynayacağına qəti əminlik vurğulanmışdır.

Bu il dövlətimiz təkcə döyüş meydanında deyil, həm də arxa cəbhədə digər təhlükəli düşmənlə – bütün dünyanı bürüyən COVID-19 qlobal pandemiyası ilə mübarizə aparmışdır. Dövlət başçısının və Birinci vitse-prezidentin rəhbərliyi ilə görülmüş qəti tədbirlər sayəsində Azərbaycan pandemiyanın ilk və olduqca təhlükəli mərhələsini ən az sayda itki ilə başa vurmuş dövlətlər sırasındadır və bu bəla ilə mübarizədə nümunəvi ölkə kimi dəyərləndirilir.

Pandemiyanın iqtisadi çətinliklərinə baxmayaraq, iqtisadi sabitlik, makroiqtisadi və maliyyə dayanıqlığının təmin edilməsi, işsizlik probleminin həlli məqsədilə 2 milyard dollar həcmində iqtisadi-sosial yardım paketi təqdim edilmiş, sosial dəstək tədbirləri ölkə əhalisinin təqribən yarısını əhatə etmişdir.

Ədliyyə Nazirliyi də pandemiyaya qarşı mübarizəyə fəal qoşulmuşdur.

Belə ki, nazirlik tərəfindən koronavirusun qarşısının alınması ilə bağlı ədliyyə qurumlarında və məhkəmələrdə zəruri profilaktik və digər preventiv işlər aparılmış, pandemiya şəraitində ədliyyəyə əlçatanlığın təmin olunması məqsədilə nazirliyin internet saytının və sosial şəbəkə səhifələrinin imkanları və interaktivliyi artırılmış, saytda yeni - "Vətəndaşlar üçün əlaqə", "İnteraktiv əlaqə" və "KİV üçün əlaqə" bölmələri yaradılmış, innovasiyaların tətbiqi genişləndirilərək "Mobil notariat"ın funksionallığı yüksəldilmiş, bir sıra etibarnamələrin mobil qaydada verilməsi təmin edilmişdir.

Vətəndaşların müasir İKT-lərin köməyi ilə nazirlikdə videoqəbulu Qaydası müəyyən edilmiş və müxtəlif bölgələrin, o cümlədən Vətən müharibəsi dövründə cəbhəyə yaxın rayonların 250-dək sakini videoformatda qəbul edilmiş, habelə nazirliyin icra xidməti tərəfindən borclu şəxslərə aliment və digər icra ödənişlərin onlayn qaydada aparılması, uşaqla ünsiyyətin video-əlaqə vasitəsilə həyata keçirilməsi təmin olunmuşdur.

Qlobal pandemiya şəraitində ədalət mühakiməsinin həyata keçirilməsi məsələləri də diqqətdə saxlanılmış, məhkəmə proseslərinin videoformatda keçirilməsi məqsədilə xüsusi proqram modulu hazırlanaraq tətbiqinə başlanılmış, habelə cinayət işlərinə də video-əlaqə ilə baxılmasının təmin edilməsi üçün dövlət başçısının təşəbbüsü ilə qanunvericiliyə mühüm dəyişikliklər edilmişdir.

Məhkumların və təqsirləndirilən şəxslərin həyat və sağlamlıqlarının qorunması ciddi nəzarətdə saxlanılmış, dövlət başçısının humanist siyasətinin təzahürü olaraq imzaladığı əfv Sərəncamı ilə virusa yoluxması daha riskli olan yaşı 65-dən yuxarı məhkumların əksəriyyəti azadlığa buraxılmış, 2.300-ə yaxın məhkum cəzadan şərti olaraq vaxtından əvvəl azad olunmuş və ya yüngül rejimli müəssisəyə keçirilmiş, 740 nəfər isə ev dustaqlığı və digər alternativ qətimkan tədbirlərinin tətbiqi nəticəsində həbsdən azad edilmişlər.

Cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı yeni qanunvericiliyə əsasən 2.000-dən çox məhkum cəzadan tamamilə azad edilmiş, 3.200-dən artıq məhkumun cəza müddəti azaldılmış, habelə xarici dövlətlərdən olan bir çox məhkumlar karantin rejiminə əməl edilməklə öz ölkəsinə təhvil verilmişdir.

Fəaliyyətin pandemiya şəraitində təşkilinə baxmayaraq, Azərbaycan ədliyyəsinin inkişafı üzrə tədbirlər də davam etdirilmiş, hüquq mühafizə orqanlarının və məhkəmələrin fəaliyyəti ilə bağlı dövlət başçısının göstəriş və tövsiyələrindən irəli gələn vəzifələr nazirliyin videoformatda keçirilən Kollegiya iclaslarında, ölkənin bütün məhkəmələrini əhatə edən müşavirələrdə geniş müzakirə olunaraq ədliyyə və məhkəmə sahəsində idarəçiliyin müasirləşdirilməsi, şəffaflığın artırılması, korrupsiyanın qarşısının alınması, ictimai iştirakçılığın təşviqi, inno-

vasiyaların tətbiqi ilə bağlı əməli tədbirlər həyata keçirilmiş, yüksək hazırlıqlı kadrlar rəhbər vəzifələrə irəli çəkilmiş, o cümlədən nazirliyin və struktur qurumların, yüksək məhkəmələrin rəhbərliyi möhkəmləndirilmişdir.

Cari ildə nazirlik tərəfindən 1.600-dən çox qanunvericilik aktı layihəsi hazırlanmış, 2.800-dən artıq normativ sənəd layihəsinə rəy verilmiş, 3,4 milyonadək notariat hərəkəti rəsmiləşdirilmiş, 230 mindən çox vətəndaşlıq vəziyyəti aktları dövlət qeydiyyatına alınmış, bu əməliyyatlarla bağlı 6,5 milyon manat vəsait dövlət büdcəsinə köçürülmüşdür.

Məhkəmə qərarlarının icrasının səmərəliliyinin artırılması üzrə tədbirlər davam etdirilmiş, alternativ mexanizmlərin, o cümlədən özəl icranın tətbiqi imkanları nəzərdən keçirilmiş, bu sahədə zəruri təhlillər aparılmış və xarici təcrübə öyrənilmiş, beynəlxalq təşkilatlarla səmərəli əlaqələr qurulmuşdur. Cari ildə 375 min icra sənədinin icrası təmin edilmiş, 610 milyon manat vəsait fiziki və hüquqi şəxslərə, habelə vergi borcları üzrə büdcəyə ödətdirilmiş, ədalət mühakiməsi əleyhinə, o cümlədən məhkəmə qərarlarının icra olunmamasına dair 370-dən çox iş üzrə ibtidai istintaq tamamlanmışdır.

Məhkəmə ekspertizası mərkəzində 41 ekspert ixtisası üzrə 24 min rəy və arayış verilmiş, bələdiyyələrin 67 mindən çox aktı inzibati nəzarət qaydasında yoxlanılmış, qanunsuz ayrılmış 7.600 hektardan artıq torpaq sahələri geri qaytarılmış, cinayət xarakterli pozuntularla bağlı 24 fakt üzrə materiallar prokurorluğa göndərilmişdir.

Beynəlxalq hüquqi əlaqələrin genişləndirilməsinə xüsusi önəm verilərək cari ildə Səudiyyə Ərəbistanı, Bosniya və Herseqovina, Estoniya, Meksika, Bəhreyn, Misir və Əlcəzair ilə əməkdaşlığa dair sənədlərin razılaşdırılması işi aparılmışdır. Tərəfimizdən Vyetnamla ədliyyə sahəsində Sazişin implementasiyası üzrə Əməkdaşlıq Proqramının, habelə Azərbaycan Hökuməti adından Beynəlxalq Qırımızı Xaç Komitəsi ilə qurumun azadlıqdan məhrumetmə yerlərinə, o cümlədən penitensiar müəssisələrə maneəsiz baş çəkməsinə səlahiyyət verən Sazişin müddətinin uzadılması ilə bağlı Protokolun diplomatik kanallar vasitəsilə imzalanması həyata keçirilmişdir.

Dövlət başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanının icrası çərçivəsində sahibkarlıq subyektlərinin ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılması məqsədilə yeni kommersiya, habelə inzibati məhkəmələr yaradılaraq cari ildən fəaliyyətə başlamış, yeni ayrılmış 200 hakim ştatının komplektləşdirilməsi üzrə ardıcıl tədbirlər görülmüşdür.

Məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə tədbirlər davam etdirilmiş, dövlət başçısı tərəfindən Bakı şəhəri Binəqədi Rayon Məhkəməsinin yeni müasir binasının açılışı həyata keçirilmişdir, yüksək texnologiyalı digər binaların, o cümlədən Masallı Məhkəmə Kompleksinin inşası başa çatdırılmış, Sumqayıt Məhkəmə Kompleksinin və Bakı şəhəri Suraxanı rayon Məhkəməsinin tikintisi isə yekunlaşmaq üzrədir.

Dövlət başçısının tapşırığına əsasən ədalət mühakiməsinin səmərəliliyinin artırılmasında mühüm rol oynayan "Elektron məhkəmə" və "Elektron icra" informasiya sistemlərinin respublikanın bütün ərazisi üzrə tətbiqi üçün əməli tədbirlər görülmüş, bu sahədə Dünya Bankı ilə yeni razılaşma imzalanaraq icrasına başlanılmışdır.

Azərbaycan ədliyyəsinin davamlı inkişafı üzrə görülən bu və mətbuatda mütəmadi işıqlandırılan digər məqsədyönlü tədbirlər, əldə olunan nailiyyətlər möhtərəm Prezidentimiz cənab İlham Əliyevin güclü siyasi iradəsi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatların mühüm tərkib hissəsi olmaqla dövlət başçısının ədliyyə və məhkəmə fəaliyyətinə göstərdiyi yüksək diqqət və qayğının real təzahürüdür.



QARABAĞ bizimdir, Azərbaycandır!



Peşə bayramı ilə əlaqədar nazirliyin rəhbərliyi və kollegiya üzvləri Fəxri Xiyabanı ziyarət edərək müasir müstəqil Azərbaycan dövlətinin banisi, dahi öndər Heydər Əliyevə əbədi ehtiramlarını bildirir, Şəhidlər Xiyabanında Vətənimizin azadlığı uğrunda şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsini yad edirlər.

Həmçinin ədliyyə orqanları və məhkəmələrdə Azərbaycan ədliyyəsinin tarixi inkişaf yoluna, xalqımızın Vətən müharibəsində zəfər yürüşünə nəzər salınaraq ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilmiş, nazirlikdə və struktur qurumlarda bu əlamətdar və tarixi hadisələrə həsr olunmuş filmlər, foto və video-slaydlar nümayiş etdirilmiş, hərbçilərimizə sovqatlar tədarük olunmuş, yaralılara baş çəkilmiş, könüllü qanvermə aksiyası keçirilmişdir.

Eyni zamanda Azərbaycan ədliyyəsinin tarixinə dair nəfis şəkildə tərtib olunmuş kitab çap edilmişdir. Kitabda ölkəmizdə ədliyyənin təşəkkülü, müasir hüquq sistemimizin banisi, ümummilli lider Heydər Əliyev tərəfindən ədliyyə sisteminin və məhkəmə hakimiyyətinin formalaşmasına göstərilən xüsusi diqqət və qayğı, ölkə Prezidenti cənab İlham Əliyevin bu sahədə fəaliyyətin müasirləşdirilməsi və inkişafı barədə ətraflı məlumatlar əks olunmuşdur.




Fürsətdən istifadə edərək, dövlət bayramları ilə zəngin olan bu ayda qeyd etdiyimiz Şuşanın azad olunması günü və tarixi qələbəmiz, habelə peşə bayramımız münasibətilə bütün ədliyyə işçilərini ürəkdən təbrik edir, onlara qanunun aliliyinin və insan hüquqlarının təmin olunması kimi gərəkli fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzulayıram.

Peşə bayramlarını Qələbə sevinci ilə qeyd edən və bu zəfər günlərini bizlərə yaşatdığına görə ölkə Prezidentinə dərin minnətdarlıq hissi keçirən ədliyyə işçiləri Vətənimizin çiçəklənməsi və hərtərəfli tərəqqisi naminə dövlət başçısının ətrafında sıx birləşərək demokratik hüquqi dövlət quruculuğu, azad olmuş torpaqlarımızın bərpası ilə bağlı üzərlərinə düşən vəzifələri şərəflə yerinə yetirmək əzmindədirlər.

Qoy Vətənimizdə daim sülh, firavanlıq və təhlükəsizlik hökm sürsün! Eşq olsun Ali Baş Komandana! Qarabağ Azərbaycandır!



QARABAĞ bizimdir, Azərbaycandır!



# Ədliyyə Nazirliyində Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqımızın şanlı Qələbəsinə həsr olunan kollegiya iclası keçirilib

**Dekabrın 15-də Ədliyyə Nazirliyində videokonfrans formatında kollegiya iclası keçirilib. Çıxış edən ədliyyə naziri Fikrət Məmmədov Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində xalqımızın şanlı Qələbəsi münasibətilə kollektivi təbrik edib, dövlət başçısının döyüş meydanında və siyasi müstəvidə Ermənistanı ağır məğlubiyyətə uğradaraq torpaqlarımızı işğaldan azad etməklə ulu öndər Heydər Əliyevin ən ümdə vəsiyyətini şərəflə yerinə yetirdiyini vurğulayıb.**

Bildirib ki, ölkəmizin hərbi-siyasi uğuru, müzəffər ordumuzun qəhrəmanlığı sayəsində, şəhidlərimizin qanı və canı bahasına xalqımız 30 il həsrətində olduğu doğma torpaqlarına qovuşub, ərazi bütövlüyümüz bərpa edilib. Bu münasibətlə dövlət başçısının və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilmiş Zəfər Paradı ölkəmizin hərbi, iqtisadi qüdrətini, ordumuzun gücünü və xalqımızın qələbə əzmini, eyni zamanda Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığını bütün dünyaya bir daha nümayiş etdirib.

Paradda 3000 nəfərdən artıq şəxsi heyətin, 150-dək müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin, həmçinin Vətən müharibəsi zamanı Azərbaycan Ordusunun düşməndən ələ keçirdiyi hərbi qənimətlərin nümayişi böyük maraq və qürur hissi ilə qarşılanıb.

Nazir bu şərəfli dönəmdə dövlət başçısının qəti iradəsi və diplomatik məharəti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın xalqımızın ədalətli mübarizəsi naminə vətənpərvər çağırışları ilə Ermənistanın təcavüzkar siyasəti və törətdiyi müharibə cinayətləri barədə beynəlxalq ictimaiyyətin hərtərəfli və dolğun məlumatlandırıldığını, düşmənin informasiya məkanında yalan təbliğatının tam ifşa olunduğunu qeyd edib.

Müharibənin artıq arxada qaldığı, azad olunan ərazilərin bərpa olunması ilə bağlı ölkə Prezidentinin rəhbərliyi ilə nəhəng quruculuq işlərinin, o cümlədən Şuşaya və digər azad olmuş ərazilərə yol çəkilişlərinin, həmçinin Birinci vitse-prezidentin təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən dini abidə və məscidlərimizin bərpası üzrə layihə həyata keçirildiyi bildirilib. Cənab Prezidentin və birinci xanımın işğaldan azad olunan torpaqlarımıza səfərinin xalqımızın öz dədə-baba yurdlarına qayıdışının təntənəsi olduğu vurğulanıb.

Həmçinin, bu ərəfədə əsir və girovların, o cümlədən uzun müddətdir erməni girovluğunda saxlanılan Şahbaz Quliyev və Dilqəm Əsgərovun qaytarılmasının beynəlxalq humanitar hüquq normalarına və humanizm prinsiplərinə sadiq qalan ölkəmizin növbəti uğuru olduğu bildirilib.

Kollegiyada Vətən müharibəsində Ədliyyə Nazirliyinin fəaliyyəti, əməkdaşların döyüşlərdə, o cümlədən könüllü fədakar xidmətləri, ordumuza, yaralananlara və şəhid ailələrinə maddi, mənəvi və tibbi dəstəyin göstərilməsi, xarici

dövlətlərin və nüfuzlu beynəlxalq təşkilatların 400-ə yaxın müraciətlər göndərilməklə Ermənistanın işğalçılığı, müharibə və insanlıq əleyhinə cinayətləri ilə bağlı məlumatlandırılması, daim yenilənən və interaktiv fəaliyyət göstərən, minlərlə istifadəçinin yararlandığı "Qarabağ Azərbaycandır!" üç dilli elektron məlumat platformasının ölkəmizin ədalətli mövqeyinin təbliği və geniş yayılmasında əhəmiyyəti qeyd olunub.

Azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı ölkə Prezidentinin 24.11.2020-ci il tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahı çərçivəsində nazirlik tərəfindən görülən işlər, habelə yeni yaradılmış Qarabağ regional ədliyyə idarəsinin fəaliyyətinin təşkili üzrə tədbirlər diqqətə çatdırılıb.

Post-konflikt dövründə ədliyyə orqanlarının qarşısında duran vəzifələr müzakirə olunaraq fəaliyyətin Əlaqələndirmə Qərargahı ilə koordinasiyada qurulması, müvəqqəti xüsusi idarəetməni həyata keçirən komendantlıqlarla əlaqəli fəaliyyətin genişləndirilməsi, törədilmiş müharibə və insanlıq əleyhinə cinayətlər barədə təhlillərin aparılması, hüquqi məsuliyyət tədbirlərinin müəyyən edilməsi, bu işə yerli və xarici QHT-lərin cəlb olunması tapşırılıb.

Həmçinin işğal nəticəsində ərazilərimizə, o cümlədən ədliyyə və məhkəmə orqanlarına dəymiş ziyanın dəqiqləşdirilməsi, onların fəaliyyətinin bərpası, müvafiq məhkəmələrin yaradılması ilə bağlı nazirliyin vəzifələri və digər konkret tədbirlər müəyyən edilib.

İclasda qeydiyyat məsələlərinə baxılıb. Gələcək Azərbaycan Partiyasının müraciəti əsasında təqdim olunmuş təsis sənədlərinin qanunvericiliyə uyğunluğu nazirlikdə öyrənilərək Kollegiyada partiyanın, habelə bir sıra qeyri-kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatına alınması barədə qərar qəbul olunub.

# XALQIMIZIN QƏLƏBƏ SEVİNCİ








# QANUNÇULUQ

## hüquq jurnalı

**BURAXILIŞA MƏSUL:**
**Rasim Həsənov**

Təsisçinin hüquqi ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 510-10-01, 537-05-54
Qaynar xətt: (+99412) 539-76-75
www.justice.gov.az / contact@justice.gov.az

***

Redaksiyanın ünvanı:
Azərbaycan Respublikası, AZ1073
Bakı şəhəri, İnşaatçılar pr., 1
Telefon: (+99412) 537-06-40
Email: mojpress@justice.gov.az

"Qanunçuluq" jurnalı redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş, "Ədliyyə Nəşriyyat Evi" MMC-də çap olunmuşdur.
"Ədliyyə Nəşriyyat Evi" MMC-nin ünvanı:
Xaqani küç., 14, tel.: 598-26-77, 498-55-69

Bank rekvizitləri: "Ədliyyə Nəşriyyat Evi" MMC
VÖEN 1700212121 H/h 384974 AZM 380701
Azərbaycan Beynəlxalq Bankın Səbail
filialı, kod 805551, VÖEN 9900001881,
M/h 0137010002031, SWIFT/Bik IBAZAZ-2x
Sifariş: 1864 Tiraj:1100 ədəd